RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 59 (10079) 9 aprel 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Aviasiya sahəsində milli kadr potensialının formalaşmasına mühüm töhfə

## Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak edib



Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb. Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub.

Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün bu sahədə dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Burada Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün imkan yaradır.

2

# İlham Əliyev Məsud Pezeşkianı atəşkəslə bağlı təbrik edib

**Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.**



Dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb.

Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan-Qazaxıstan ikitərəfli əlaqələri əməkdaşlıq və qardaşlıq ruhunda inkişaf edir

## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın xarici işlər və nəqliyyat nazirlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Qazaxıstan Respublikasının xarici işlər naziri Yermek Koşerbayevi və nəqliyyat naziri Nurlan Sauranbayevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-Qazaxıstan ikitərəfli əlaqələrinin əməkdaşlıq və qardaşlıq ruhunda inkişaf etdiyini məmnunluqla vurğulayaraq, dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı aparılmış müzakirələrin, qəbul olunmuş qərarların, həmçinin Azərbaycandan Qazaxıstana, Qazaxıstandan isə ölkəmizə müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin səfərlərinin xalqlarımızı və ölkələrimizi daha da yaxınlaşdırdığını, qarşılıqlı fəaliyyətin potensialını möhkəmləndirdiyini dedi.

Dövlətimizin başçısı birgə investisiya fondunun imkanlarından tam istifadə ediləcəyinə ümidvarlığını bildirdi, bir neçə layihənin artıq işlənmə mərhələsində olduğunu vurğuladı və Azərbaycanla Qazaxıstanın üçüncü ölkələrə birgə investisiya yatırmaq potensialına toxundu.

Prezident İlham Əliyev Qazaxıstanın xarici işlər və nəqliyyat nazirlərinin Azərbaycana səfərinin uğurlu olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən Qazaxıstanın xarici işlər naziri dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduqlarını dedi.

Yermek Koşerbayev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Qonaq Qazaxıstanda Azərbaycan Prezidentinə çox böyük hörmətlə yanaşıldığını vurğuladı.

Görüşdə Azərbaycanla Qazaxıstan arasında münasibətlərin bir çox sahədə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, logistika, investisiyalar, enerji, həmçinin "yaşıl enerji" və digər istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd edilərək, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı Orta dəhliz, Trans-Xəzər Yaşıl Enerji Dəhlizi və fiber-optik xətti layihələrinə toxunuldu, bu çərçivədə Azərbaycanla Qazaxıstanın uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşma prosesinin və Ermənistan ərazisindən keçəcək TRIPP layihəsinin regional əməkdaşlıq və nəqliyyat bağlantıları baxımından rolu qeyd edildi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu tərəfdaşlığı vurğulandı və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Qafqaz evi

## Azərbaycanın liderliyi ilə region ölkələri yeni dövrə qədəm qoyur

Prezident İlham Əliyevin Tbilisidə də vurğuladığı kimi, bu gün Cənubi Qafqaz artıq sülh və əməkdaşlıq məkanı kimi tanınmağa başlayıb. Bu mühitdə həm də Azərbaycanın lider dövlət statusu daha da möhkəmlənib. Çünki ölkəmiz təkcə öz milli maraqlarını deyil, bütövlükdə "Qafqaz evi"nin təhlükəsizliyini və rifahını düşünən əsas tərəfdir.



Azərbaycanın yaratdığı yeni reallıqlar regionun hər bir ölkəsinə inkişaf şansı verir. Bu prosesdə ən uğurlu tərəfdaşlıq modelini biz Azərbaycan və Gürcüstan arasında görürük. İki ölkə arasında qurulan münasibətlər, sadəcə, qonşuluq deyil, həm də sarsılmaz dostluq körpüsüdür.

Bu dostluğun təməlində isə böyük layihələr dayanır. Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Qars kimi nəhəng layihələr regionun taleyini dəyişdi. İndi isə gündəmdə olan Orta dəhliz layihəsi hər iki ölkəni dünyanın ən vacib nəqliyyat damarına çevirir. Bu dəhliz vasitəsilə yüklər Şərqdən Qərbə daha sürətlə və təhlükəsiz daşınacaq. Bununla həm Azərbaycanın, həm də Gürcüstanın büdcəsinə milyardlarla vəsait daxil olacaq, eyni zamanda bu xalqlarımızın rifahına birbaşa təsir göstərəcək.

Prezident İlham Əliyevin sözügedən səfəri zamanı vurğuladığı mühüm məqamlardan biri də Gürcüstanın müstəqil siyasəti oldu: "Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək".

5

# Ermənistan taleyüklü seçim qarşısındadır

## Sülh yolu ölkəyə rifah, revanşistlərin mövqeyi isə Azərbaycanın "dəmir yumruğ"unu vəd edir

Seçki ərəfəsində Rusiya və Qərb arasında maraqların toqquşması da pik həddədir. Moskvanın niyyəti Paşinyanı devirmək və yerinə Kremlə sadiq qüvvələrin gətirilməsinə nail olmaqdır. Avropa isə hazırkı hökumətin stabilliyini qorumaqla Ermənistanı tədricən Rusiyanın təsir dairəsindən uzaqlaşdırmağa səy göstərir. Paşinyan Qərbin dəstəyi ilə Rusiyanın təsirindən uzaqlaşmaq istəsə də, ölkənin hərbi və iqtisadi asılılığı bu prosesi ağrılı edir. Ermənistanda hakimiyyət dəyişikliyi Cənubi Qafqazda mövqelərini qorumaq üçün Rusiyanın son şanslarından biridir. Qərb isə Paşinyanı "demokratiyanın qoruyucusu" kimi saxlayaraq Rusiyanın bölgədən sıxışdırılıb çıxarılmasını hədəfləyir. Beləliklə, ölkə faktiki olaraq iki böyük güc mərkəzinin nüfuz savaşı meydanına çevrilib ki, bu da dövlətçilik maraqları baxımından ciddi risklər vəd edir.

7



# Milli-mənəvi dəyərlərin dəyərsizləşmə təhlükəsi

Milli-mənəvi dəyərləri qorumaq əsrlər boyu miras kimi xalqın aparıcı və qoruyucu qüvvələrinə - xalqın liderlərinə, ziyalılarına, qəhrəman övladlarına ötürülür. Bu prizmadan baxanda, Ulu Öndər Heydər Əliyevin sözlərinin əsl mahiyyəti də açılır: "Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir". 20 Yanvardan tutmuş Aprel döyüşlərinə qədər xalqın taleyində dövlət başçısının rolunu və fəaliyyətini araşdıran bir kitabda deyildiyi kimi: "Bir milləti ən rəzil, yazıq vəziyyətə salan da, onu millətlər arasında ən uca bir zirvəyə qaldırıb, haqqında dastan qoşduran da onun lideri, qəhrəmanıdır." Bunu isə xalqın lideri məhz milli kimliyə, yüksək mənəviyyata söykənməklə edə bilir.

10

# Aviasiya sahəsində milli kadr potensialının formalaşmasına mühüm töhfə

## Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 8-də Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Samir Rzayev dövlətimizin başçısına və birinci xanıma mərkəzin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb. Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub.

Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün bu sahədə dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Burada Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün imkan yaradır.





Mərkəzdə həmçinin hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsinə imkan verən müasir təlim trenajoru kompleksi quraşdırılıb.

Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

Bundan başqa, mərkəz fövqəladə vəziyyətlərdə və müxtəlif qəza hallarında hava gəmisi kabininin daxilində təhlükəsizlik tədbirlərinin səmərəli icrası üçün Türkiyənin bu sahədə ixtisaslaşmış və beynəlxalq səviyyədə tanınmış şirkəti olan "SkyArt" tərəfindən "A320/A321 NEO CEET" tipli yeni nəsil hava gəmisi simulyatoru ilə təchiz edilib. Simulyatora "Boeing 787" təyyarəsi üzrə Qapı Təlim Qurğuları (Door Trainers), həmçinin real yanğın şəraitini simulyasiya edən yeni nəsil Yanğınsöndürmə Təlim Qurğuları (RFFT) daxildir.

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək.

Mərkəz müasir aviasiya sahəsinin tələblərinə uyğun olaraq kadr hazırlığını həyata keçirən ixtisaslaşmış tədris strukturu kimi aviasiya mütəxəssislərinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayacaq.

Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.

## "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 9, maddə 187; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 1-ci hissəsinə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavinləri" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının rəhbəri".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2026-cı il*

## "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 2446 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 2446 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 62 (Cild I) birinci hissəsində "Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri "Anar Kərimov - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2026-cı il*

## Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin birinci müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin müavinləri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Hüquq şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Haqsız rəqabət və reklam qanunvericiliyinə nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Standartlaşdırma, texniki tənzimləmə və sertifikatlaşdırma şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin İstehlak bazarına nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin müdiri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 8 aprel 2026-cı il

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 176 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2000-ci il 6 mart tarixli 291 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 27 mart tarixli 975 nömrəli, "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" 2021-ci il 18 mart tarixli 1304 nömrəli və "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I); 2024, № 7, maddə 823;2025, № 8, maddə 750) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-3-cü bənddə "səkkizinci- on birinci" sözləri "səkkizinci, onuncu və on birinci" sözləri ilə əvəz edilsin;

1.2. 2.1-4-cü bənddən "12-ci maddəsinin 5-ci hissəsində," sözləri çıxarılsın;

1.3. 2.1-5-ci bənd 2.1-6-cı bənd hesab olunsun və aşağıdakı məzmunda 2.1-5-ci bənd əlavə edilsin:

"2.1-5. həmin Məcəllənin 6-cı maddəsinin doqquzuncu abzasında nəzərdə tutulmuş dövlətin vəzifələrini və 12-ci maddəsinin 4-cü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

1.4. aşağıdakı məzmunda 2.10-1-ci bənd əlavə edilsin:

"2.10-1. həmin Məcəllənin 12-ci maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Əmlak Məsələləri Dövlət Xidməti qismində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

2. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 158 (Cild I); 2024, № 6 (I kitab), maddə 665, № 7, maddə 823, № 8, maddə 938, № 11, maddə 1202) 1-ci hissəsinin səkkizinci abzasından "12-ci maddəsinin 4-cü hissəsində," sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541, № 10, maddə 900) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.38-1-ci yarımbənd əlavə edilsin:

"3.0.38-1. Nazirliyin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlar vasitəsilə, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan hallarda, habelə meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaqların kənd təsərrüfatına az yararlı və ya yararsız torpaq sahələri ilə əvəzləşdirilməsinin məqsədəuyğunluğuna, faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə uyğunluğuna, həmçinin torpaqların kateqoriyasının dəyişdirilməsinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğuna dair rəy vermək;";

3.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti haqqında Əsasnamə"nin 3.0.15-ci yarımbəndinə "yaratmaq" sözündən sonra ", Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan hallarda, habelə meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaqların kənd təsərrüfatına az yararlı və ya yararsız torpaq sahələri ilə əvəzləşdirilməsinin məqsədəuyğunluğuna dair rəy vermək" sözləri əlavə edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 3.1.12-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.12. faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə, həmçinin torpaqların kateqoriyasının dəyişdirilməsinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğuna dair rəy vermək;".

4. "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 mart tarixli 1304 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 228 (Cild I) 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"1.3. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"na uyğun olaraq, tikinti və faydalı qazıntı yataqlarının istismarı məqsədləri üçün ayrılması nəzərdə tutulan torpaq sahələrinin kateqoriyalara aid edilməsi və ya onların bir kateqoriyadan digərinə keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət edilməsi.".

5. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2024, № 9, maddə 1006) ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissə üzrə:

5.1.1. 1.4-cü bəndə "(bundan sonra - Nazirlər Kabineti)" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin" sözləri əlavə edilsin;

5.1.2. 1.5-ci bəndə "Nazirlər Kabinetinin" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin" sözləri əlavə edilsin;

5.1.3. 1.7-ci bənddə "2025-ci" sözləri "2026-cı" sözləri ilə əvəz olunsun, həmin bəndə ikinci halda "obyektlərinin" sözündən sonra "(infrastruktur obyektlərinin)" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin Fərmanla müəyyən edilmiş qaydada təqdim edilən vəsatət və ona əlavə olunan istismarına icazə verilmiş qeyri-yaşayış binasının (infrastruktur obyektinin) yerləşdiyi torpaq sahəsinin yerquruluşu planı əsasında torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi barədə qərar qəbul edilir.";

5.1.4. 1.14-cü bəndə "(bundan sonra - Xidmət)" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra - Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)" sözləri əlavə edilsin;

5.1.5. 1.15-ci bəndə "Xidmət" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)" sözləri əlavə edilsin;

5.1.6. 1.19-cu bənddə "Meşə" sözü "Bu Qaydaların 1.18-ci bəndində nəzərdə tutulan hallarda, habelə meşə" sözləri ilə əvəz edilsin, həmin bənddən"habelə" və "şərti" sözləri çıxarılsın;

5.2. 2-ci hissə üzrə:

5.2.1. 2.1.17-ci yarımbənddə "2025-ci" sözləri "2026-cı" sözləri ilə əvəz edilsin;

5.2.2. 2.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi - Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan hallarda, habelə meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaqların kənd təsərrüfatına az yararlı və ya yararsız torpaq sahələri ilə əvəzləşdirilməsinin məqsədəuyğunluğuna, faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə uyğunluğuna, həmçinin torpaqların kateqoriyasının dəyişdirilməsinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğuna dair;";

5.2.3. aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə bu Qaydaların 2.3.1-2.3.4-cü yarımbəndlərində nəzərdə tutulmuş səlahiyyətləri, müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər.";

5.3. 3-cü hissə üzrə:

5.3.1. 3.1-ci bəndə "Xidmətə" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə)" sözləri əlavə edilsin;

5.3.2. 3.2.4-cü yarımbənd üzrə:

5.3.2.1. 3.2.4.2-ci abzas aşağıdakı redaksiyada verilsin:

"3.2.4.2. xüsusi mülkiyyətdə və ya uzunmüddətli istifadədə olan torpaqlara münasibətdə mülkiyyətçi (istifadəçi və ya icarəçi) fiziki şəxs olduqda - onun şəxsiyyətini təsdiq edən sənədin surəti (müraciət torpaq mülkiyyətçisinin (istifadəçi və ya icarəçinin) adından başqa şəxs tərəfindən edildikdə, notariat qaydasında təsdiq edilmiş etibarnamənin surəti), mülkiyyətçi (istifadəçi və ya icarəçi) hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, onun nümayəndəsinin səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surətləri;";

5.3.2.2. 3.2.4.3-cü abzasa "Nazirliyinin" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin)" sözləri əlavə edilsin;

5.3.2.3. 3.2.4.5-ci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.4.6-cı və 3.2.4.7-ci abzaslar əlavə edilsin:

"3.2.4.6. kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda və ya bu Qaydaların 1.11-ci bəndinə əsasən torpağın məqsədli təyinatının dəyişdirilməsi zərurəti yarandıqda, mülkiyyət növündən asılı olmayaraq kateqoriyası və ya məqsədli təyinatı dəyişdirilən torpaq sahəsinin əkinəyararlılıq vəziyyətinin müəyyən edilməsi məqsədilə "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş sınaq laboratoriyası tərəfindən verilmiş aqrokimyəvi analizlərin nəticələrinə dair sənəd;

3.2.4.7. bu Qaydaların 2.1.2-ci, 2.1.4-cü, 2.1.14-cü və 2.1.16-cı yarımbəndlərinə əsasən kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, mülkiyyət növündən asılı olmayaraq kateqoriyası dəyişdirilən torpaq sahəsində həyata keçiriləcək layihənin məqsədi və aid olduğu fəaliyyət sahəsi, habelə səmərəliliyi barədə məlumatlar qeyd edilməklə iqtisadi əsaslandırılma.";

5.3.3. 3.3-cü bəndə və 3.4-cü bəndin birinci və beşinci cümlələrinə "Xidmət" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)" sözləri əlavə edilsin;

5.3.4. 3.5-ci bənd üzrə:

5.3.4.1. birinci cümləyə "Xidmət" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)" sözləri əlavə olunsun və həmin cümlədə "2.3.1-ci, 2.3.3-2.3.6-cı" sözləri "2.3.1 - 2.3.6-cı" sözləri ilə əvəz edilsin;

5.3.4.2. ikinci cümlədə "10 (on)" sözləri "15 (on beş)" sözləri ilə əvəz edilsin;

5.3.5. 3.7-ci bənd üzrə:

5.3.5.1. birinci cümləyə "Xidmət" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)" sözləri əlavə edilsin;

5.3.5.2. üçüncü cümlədə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə" sözləri "Xidmət tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə)" sözləri ilə əvəz edilsin;

5.3.6. 3.8-ci bəndə "Nazirliyi" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi)" sözləri, "məlumatları" sözündən sonra "və Nazirlər Kabinetinin (Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin) razılaşdırılmış sərəncamı layihəsini" sözləri və "Nazirlər Kabinetinə" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə - Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə)" sözləri əlavə edilsin;

5.3.7. 3.9-cu bəndin birinci cümləsindən "Nazirlər Kabineti tərəfindən" sözləri çıxarılsın və həmin cümləyə "Xidmətə" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə)" sözləri əlavə edilsin;

5.3.8. aşağıdakı məzmunda 3.11-ci və 3.12-ci bəndlər əlavə edilsin:

"3.11. Bu Qaydaların 2.1.12-ci yarımbəndində göstərilən əsaslar üzrə yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin yerləşdiyi torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi müvafiq ərazinin ərazi planlaşdırılması sənədlərində, ərazilərin zonalaşdırılmasında nəzərdə tutulmuş dəyişikliklərə uyğun olduqda, həmçinin həmin ərazidə infrastruktur və mühəndis-kommunikasiya təminatı sistemləri imkan verdikdə həyata keçirilir. Bu məqsədlə, aidiyyəti yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin müvafiq ərazilərdə salınmış yaşayış massivlərində həyata keçirdikləri monitorinqlərin nəticələri və onların sifarişi ilə Xidmətin (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət) apardığı kompleks yerquruluşu işlərinin nəticələrinə istinad edilməklə hazırlanmış yerquruluşu planları (xəritələri) əsasında yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin əsaslandırılmış təklifləri hazırlanır və Xidmətə (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə) təqdim edilir. Həmin təkliflər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin"Azəriqaz" İstehsalat Birliyi, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti (Naxçıvan Muxtar Respublikasında müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla, həmin yaşayış massivlərində normativ hüquqi aktlarla müəyyən edilmiş ərazi planlaşdırılması və şəhərsalma tələblərinə uyğun olaraq kompleks təhlil aparılmaqla, ümumi yaşayış massivi yanaşması əsasında bütün ərazinin kateqoriyasının dəyişdirilməsi barədə müvafiq qərarın qəbul edilməsi üçün Xidmət tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi vasitəsilə Nazirlər Kabinetinə (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi vasitəsilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə) təqdim edilir.

3.12. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində tikinti və faydalı qazıntı yataqlarının istismarı məqsədləri üçün ayrılması nəzərdə tutulan torpaq sahələrinin kateqoriyalara aid edilməsi və ya onların bir kateqoriyadan digərinə keçirilməsi,fəaliyyət sferalarına (maraqlarına) toxunulan dövlət orqanlarının, eləcə də Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin rəyləri və torpaq sahələrinin yerquruluşu planları əlavə edilməklə, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Xidmətə müraciəti əsasında, bu Qaydalara uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə həyata keçirilir.";

5.4. 4.3-cü bəndə "Xidmətə" sözündən sonra "(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli 418 nömrəli və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2023-cü il 1 may tarixli 2130 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1."Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575 (Cild I); 2024, № 12 (II kitab), maddə 1360) 3.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. TƏBİB-in Müşahidə Şurası Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisindən (sədr olmaqla), Azərbaycan Respublikası maliyyə nazirinin müavinindən, Azərbaycan Respublikası səhiyyə nazirinin müavinindən, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinindən və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədrindən ibarət tərkibdə formalaşdırılır;".

2.Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 634 (Cild I) ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin 4.4-cü bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Şuranın tərkibinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi (sədr olmaqla), Azərbaycan Respublikası maliyyə nazirinin müavini, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri daxildir.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2026-cı il*

# "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

**Müşahidə Şurasının üzvləri:**

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2026-cı il*

# Litvanın Baş naziri Azərbaycana səfərə gəlib



**Litva Respublikasının Baş naziri İnqa Ruqiniene aprelin 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Litvanın Baş naziri İnqa Ruqinieneni hava limanında Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Azərbaycanla Serbiya arasında iqtisadi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib



**Aprelin 8-də Azərbaycan Respublikasının maliyyə naziri, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Sahil Babayev ölkəmizdə səfərdə olan Serbiya Respublikasının mədən və energetika naziri xanım Dubravka Djedoviç Handanoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Maliyyə Nazirliyindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli əməkdaşlıq, o cümlədən enerji sahəsində əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Nazir Sahil Babayev iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayaraq, əməkdaşlığın möhkəm hüquqi baza və yüksəksəviyyəli siyasi dialoq əsasında uğurla inkişaf etdiyini deyib. Bildirilib ki, imzalanmış çoxsaylı sazişlər, Hökumətlərarası Komissiyanın və Strateji Tərəfdaşlıq Şurasının fəaliyyəti əlaqələrin genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

Enerji sahəsində əməkdaşlığın əsas istiqamətlərinə toxunan nazir 2023-cü ildən etibarən Azərbaycan qazının Bolqarıstan-Serbiya interkonnektoru vasitəsilə Serbiyaya çatdırılmasının tərəfdaşlığın mühüm nailiyyətlərindən biri olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, bu çərçivədə imzalanmış müqavilə 2026-cı ilin sonunadək uzadılıb və hazırda qaz təchizatı həyata keçirilir.

Öz növbəsində xanım D.Djedoviç iki ölkə arasında enerji sahəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinin önəmini vurğulayıb. O, 2026-cı ilin fevral ayında imzalanan və Serbiyada qaz-turbin elektrik stansiyasının tikintisini nəzərdə tutan sazişin regionda enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Görüş zamanı həmçinin neft və neft məhsulları, elektrik enerjisi, eləcə də "yaşıl enerji" və bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycanın xarici işlər naziri iranlı həmkarı ilə telefon danışığında atəşkəsi alqışlayıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı tərəflər regionda mövcud təhlükəsizlik vəziyyəti və əldə olunmuş atəşkəs barədə fikir mübadiləsi aparıblar.





Ceyhun Bayramov elan olunmuş atəşkəsi alqışlayıb. Atəşkəsin təmin olunmasının gərginliyin azaldılması, danışıqların uğurla nəticələnməsi və sabitliyin bərqərar olunması baxımından əhəmiyyəti vurğulanıb.

Atəşkəsin əldə olunmasında vasitəçi ölkələrin, xüsusilə də dost və qardaş Pakistanın rolu təqdir olunub.

C.Bayramov atəşkəs rejiminə riayət olunmasının vacibliyini qeyd edərək, vəziyyətin diplomatik yollarla həllinin önəmini diqqətə çatdırıb, İslamabadda aparılacaq danışıqların nəticəyönümlü və məhsuldar olacağına ümidvar olduğunu bildirib.

Azərbaycanın hər zaman regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə hazır olduğu Ceyhun Bayramov tərəfindən vurğulanıb.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan və Ukrayna xarici işlər nazirləri arasında telefon danışığı olub

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ukraynanın xarici işlər naziri Andrey Sibiqa arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı





Azərbaycan və Ukrayna arasında tərəfdaşlıq münasibətlərinin aktual məsələləri, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlıq müzakirə olunub.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Türk dünyasının mənəvi irsi Özbəkistanda:* 7 ölkədən alimlər bir araya gəliblər

**Özbəkistanın Buxara şəhərində Türkiyənin Qafqaz Universitetinin Əbül-Həsən Xaraqani adına Tətbiqi Araşdırmalar Mərkəzinin və Qafqaz Universiteti İlahiyyat fakültəsinin öndərliyi, Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutu və Özbəkistanın Beynəlxalq Buxara Universitetinin birgə təşkilatçılığı ilə türk dünyasının mənəvi irsinə həsr olunmuş beynəlxalq simpozium keçirilib.**




Beynəlxalq Buxara Dövlət Universitetinin evsahibliyi ilə baş tutan "I beynəlxalq türk dünyasında ortaq dəyərlərin ehyası və inşası simpoziumu"nda Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Malayziya, Pakistan və İngiltərə daxil olmaqla 7 ölkədən məruzəçilər iştirak ediblər.

Bu barədə AZƏRTAC-a Xəzər Universitetindən məlumat verilib.

Konfransın açılış mərasimi Özbəkistan ənənələrinə uyğun olaraq bədii hissə ilə başlayıb; tələbələrdən ibarət rəqs və musiqi qrupları xarici qonaqları qarşılayıb. Sonra Beynəlxalq Buxara Universitetinin rektoru professor Şərif Barotov rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verib, konfransın türk dünyasının inteqrasiyası yolundakı əhəmiyyətini vurğulayıb.

Daha sonra çıxış edən Türkiyənin Özbəkistandakı səfirliyinin mətbuat müşaviri professor Mehmet Yüce türk dövlətlərinin ortaq tarixindən bəhs edib. O, yalnız ortaq mədəni dəyərlərin qorunmasının kifayət etmədiyini, eyni zamanda müasir texnoloji və elmi nailiyyətlərə adaptasiya məsələsinin də mühüm olduğunu qeyd edib.

Simpoziumun Təşkilat Komitəsinin sədri və Qafqaz Universitetinin Əbül-Həsən Xaraqani adına Tətbiqi Araşdırmalar Mərkəzinin direktoru dosent Muhammed Alparslan Kartal çıxışında konfransın türk dünyasına xidmət məqsədi daşıdığını və genişmiqyaslı bir layihə çərçivəsində həyata keçirildiyini bildirib. Ev sahibi Beynəlxalq Buxara Universitetinə təşəkkürünü bildirən M.A.Kartal bu konfransların akademik əlaqələrin gücləndirilməsində mühüm rol oynadığını ifadə edib. O, Beynəlxalq Buxara Universitetinin prorektoru Əli Əsgərxon Qasımova, simpoziumun Təşkilat Komitəsi sədrinin müavinləri Murad Sarıgül və dosent Məleykə Məmmədovaya, eləcə də simpoziumun koordinatoru Fəridə Seyidovaya fəaliyyətinə görə minnətdarlığını bildirib.

Qazaxıstandakı Beynəlxalq Xoca Əhməd Yasəvi adına Türk-Qazax Universitetini təmsil edən dosent Xəlil Çetin türk birliyinin həm xalqlar, həm də dövlətlər səviyyəsindəki inkişafından bəhs edib.

Açılış mərasimindən sonra konfrans işini 7 bölmədə əyani və onlayn formatda davam etdirib. Ümumilikdə konfransa 45 məruzə təqdim olunub. Məruzələrdən 8-i Türkiyədən, 37-si isə digər ölkələrdən olan alimlər tərəfindən təqdim edilib. Proqram çərçivəsində "Dil və təhsil", "Mədəniyyət və ədəbiyyat", "Tarix və sosial strukturlar", "İqtisadiyyat və inteqrasiya", "Türk mədəniyyətində ədəbiyyat", "Sənət və ənənələr", "Türk dünyasında dil", "Ədəbiyyat və mədəni qarşılıqlı əlaqələr", "Türk dünyasında dini elmlər" mövzuları üzrə bölmə iclasları təşkil edilib. İclaslarda türk dünyasının ortaq mədəni dəyərləri dil, ədəbiyyat, folklor, tarix, din və s. istiqamətdə araşdırılıb, elmi müzakirələr aparılıb.

Xəzər Universitetini konfransda Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun koordinatoru Fəridə Seyidova təmsil edib.

# Qırğızıstanlı ekspert TDT ölkələri hökumət başçılarının Bakı görüşünün türk dünyası üçün həlledici amil olmasının səbəbləri barədə

**Bu yaxınlada Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü təkcə koordinasiya xarakteri daşımırdı. Bu, mahiyyətcə, strateji seçim səviyyəsində qərarların qəbul ediləcəyi Türküstan Zirvə görüşü ərəfəsində mövqelərin müəyyən dərəcədə uyğunlaşdırılması mərhələsi idi.**

Bu fikirləri AZƏRTAC-a Qırğızıstan politoloqu Mars Sariyev ifadə edib.

Politoloqun fikrincə, Türküstan görüşünün konteksti TDT-nin daxili gündəliyi ilə deyil, xarici amillərlə, ilk növbədə İran ətrafındakı gərginlik və Yaxın Şərqdəki ümumi kataklizmlərlə müəyyən edilir.



O əlavə edib: "Türk dövlətlərinin nümayişkaranə şəkildə təmkin göstərməsi dövrü başa çatmaqdadır. Çox güman ki, Türküstan Zirvə görüşü bu fasiləni pozmaq üçün bir məqam olacaq. Əsas məsələ budur: türk dövlətləri regionun proksi münaqişə zonasına çevrilməsini istəmir və İranı strateji zəiflik nöqtəsinə qədər zəiflətməkdə maraqlı deyil. Bu, sərt, praqmatik formada çoxvektorlu siyasətdir - tarazlıq deyil, məcburi seçimdən yayınmaqdır".

M.Sariyev diqqətə çatdırıb ki, belə olan halda Türk Dövlətləri Təşkilatının ittifaq kimi deyil, hər birinin öz maraqlarını müdafiə etdiyi dövlətlərin vəziyyətdən asılı olan koalisiyası kimi hərəkət etdiyini anlamaq vacibdir. Agentliyin həmsöhbəti belə bir nəticəyə gəlib: "Beləliklə, Türküstan Zirvə görüşü bəyanatlardan daha çox, daxili konsensus sammiti olacaq: TDT Yaxın Şərq münaqişəsində neytraldır, eyni zamanda öz maraqlarını nəzərə almadan güclərin yenidən bölüşdürülməsini qəbul etmir. Bu xəttin davam etdiriləcəyi təqdirdə, türk dövlətləri ilk dəfə xarici təzyiq obyekti kimi deyil, regional siyasətdə müstəqil amil kimi ortaya çıxa biləcək", - deyə ekspert sözlərini yekunlaşdırıb.

# Milli Biznesin İnkişafı Forumunun sessiyası keçirilib

**Aprelin 8-də Dövlət Gömrük Komitəsinin dəstəyi, "Caspian Energy Club" və Azərbaycan Milli Biznes Assosiasiyasının birgə təşkilatçılığı ilə Milli Biznesin İnkişafı Forumunun XIV xüsusi sessiyası keçirilib.**





Dövlət Gömrük Komitəsinin inzibati binasında keçirilən tədbirdə müxtəlif sahələrdə fəaliyyət göstərən biznes subyektlərinin nümayəndələri iştirak ediblər.

Sessiya biznes nümayəndələrinin sual və təkliflərinin müzakirəsi, onların operativ şəkildə cavablandırılması, dövlət-biznes dialoqunun daha da inkişaf etdirilməsi məqsədilə təşkil olunub.

Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov bildirib ki, gömrük-biznes münasibətlərinin tərəfdaşlıq prinsipləri əsasında qurulması, biznes subyektlərinin məmnunluğunun təmin edilməsi gömrük xidmətinin əsas strateji hədəflərindən biridir. Bu məqsədlə gömrük orqanları müxtəlif platformalarda sahibkarlarla səmərəli, işgüzar dialoqun qurulmasına, gömrük sistemində tətbiq ediləcək yeniliklərin, layihələrin biznes nümayəndələri ilə birlikdə müzakirə edilərək onların təklif və rəylərinin öyrənilməsinə xüsusi önəm verir.

"Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev Dövlət Gömrük Komitəsi ilə ictimaiyyəti arasındakı açıq və konstruktiv dialoqdan məmnunluqla bəhs edərək gömrük orqanlarının sahibkarların müraciətlərinə həssaslıqla yanaşdığını, qaldırılan məsələlərin həlli istiqamətində operativ addımlar atıldığını bildirib.

O da qeyd olunub ki, Dövlət Gömrük Komitəsi ilə "Caspian Energy Club" arasında fəaliyyət göstərən birgə işçi qrupu çərçivəsində sahibkarların qaldırdıqları məsələlər, eləcə də təkliflər birlikdə müzakirə olunur, effektiv həll yolları araşdırılır.

Sonra sessiya müzakirələrlə davam edib.

Müzakirələr zamanı biznes subyektləri tərəfindən səsləndirilən təklif və rəylər dinlənilib, suallar ətraflı cavablandırılıb.

Sessiya çərçivəsində bəzi biznes subyektlərinə "Caspian Energy Club"ın üzvlük sertifikatları təqdim olunub.

Tədbirin sonunda iştirakçılar Dövlət Gömrük Komitəsinin yeni inzibati binası ilə tanış olublar.

## Qanun layihələri və onların şərhi

# Əmək münasibətləri daha da təkmilləşdirilir

**Aprelin 6-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında keçirilən iclasında Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihə birinci oxunuşda müzakirə edilərək plenar iclasa tövsiyə olundu. Qanuna təklif edilən dəyişikliklər "eyni və ya oxşar iş" anlayışını genişləndirərək "bərabər dəyərli iş" prinsipini təsbit edir, kişilər və qadınlar arasında əməkhaqqı ödənişində fərqlərin aradan qaldırılmasını nəzərdə tutur. Layihəyə əsasən, işəgötürənlərin bu sahədə öhdəlikləri konkretləşdirilir və əmək münasibətlərində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir.**



Məsələ ilə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin fikirlərini öyrəndik. Onun sözlərinə görə, bu sənədin əsas məqsədi əməyin ödənilməsində gender bərabərliyinin daha geniş və effektiv şəkildə tətbiqini təmin etməkdən ibarətdir. Təklif olunan dəyişiklik kişi və qadın əməyinin bərabər tutulması, eləcə də əməyin eyni prinsiplərlə qiymətləndirilməsi təminatlarının daha da gücləndirilməsinə xidmət edir.

Komitə sədri bildirdi ki, Beynəlxalq Əmək Təşkilatının 100 nömrəli Konvensiyasına və Avropa Sosial Xartiyasına əsasən, eyni işi və ya bərabər dəyərli işi yerinə yetirən kişi və qadınlar arasında əməkhaqqı baxımından heç bir fərq olmamalıdır: "Mövcud milli qanunvericilikdə əsasən "eyni iş" anlayışı nəzərdə tutulurdu, lakin yeni dəyişikliklə "bərabər dəyərli iş" anlayışı da qanunvericiliyə daxil edilir. Bu isə o deməkdir ki, işçilər fərqli vəzifələrdə çalışsalar belə, gördükləri iş nəticə və funksional baxımdan eyni dəyərə malikdirsə, onların əməkhaqları arasında fərq olmamalıdır".

Musa Quliyev əlavə etdi ki, işin bərabər dəyərli olub-olmaması Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müəyyənləşdiriləcək. Bu zaman əmək şəraiti, iş funksiyalarının xarakteri, həmçinin vahid tarif-ixtisas sorğu kitabçalarında göstərilən meyarlar və peşə xüsusiyyətləri nəzərə alınacaq. Bu qiymətləndirmə işəgötürən tərəfindən aparılacaq və eyni və ya fərqli vəzifələrdə çalışan kişi və qadınların bərabər dəyərli iş gördüyü müəyyən edilərsə, onların əməkhaqları arasında fərqin yaranmasına yol verilməyəcək.

Musa Quliyev dedi ki, bu qanunun qəbul olunması və qüvvəyə minməsi Azərbaycanın bu sahədə beynəlxalq öhdəliklərinin daha dolğun icrasına, eləcə də ölkənin beynəlxalq reytinqlərinin yüksəlməsinə müsbət təsir göstərəcək.

Bu dəyişikliklər həm də sosial ədalət prinsiplərinin daha dolğun təminatı deməkdir. İndiyədək respublikamızda gender bərabərliyi ilə bağlı hüquqi bazanın gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Əmək Məcəlləsinə və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanuna dəyişikliklər də həmin prosesin davamıdır.

Qeyd edək ki, Azərbaycanda qadınların əmək bazarında iştirak imkanlarının genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu mənada "bərabər dəyərli iş" anlayışının qanunvericilikdə ayrıca yer tutması olduqca mühüm yenilikdir.

Müsbət məqamlardan biri də odur ki, bu qanun işəgötürənlərin məsuliyyətini daha da artırır. Artıq dəyəri eyni olan işlər üzrə əməkhaqqı fərqlərinin qarşısı alınacaq. Bu isə iş mühitində sağlam rəqabətin, motivasiyanın və işçi məmnunluğunun yüksəlməsinə şərait yaradan amillərdəndir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Türk dövlətləri arasında əməkdaşlıq turizm sektorunda yeni inkişaf mərhələsinin əsasını qoyur

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında son illərdə müşahidə olunan çoxşaxəli əməkdaşlıq dinamikası turizm sektorunda da yeni inkişaf mərhələsinin əsasını qoyur.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli turizm üzrə ekspert Adnan Zamburkan bildirib.

Onun sözlərinə görə, türk dünyasını birləşdirən ortaq tarix, mədəniyyət və dil faktoru bu ölkələrin vahid turizm məkanı kimi çıxış etməsi üçün unikal imkanlar yaradır.

"Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan kimi ölkələrin hər biri fərqli turizm üstünlüklərinə malikdir və bu müxtəliflik sinerji effekti yaradır. Azərbaycanın müasir şəhər infrastrukturu ilə yanaşı, zəngin tarixi irsi, Türkiyənin inkişaf etmiş turizm sənayesi və geniş xidmət şəbəkəsi, Qazaxıstanın geniş çölləri və təbii landşaftları, Özbəkistanın qədim İpək Yolu şəhərləri, Qırğızıstanın isə dağ turizmi potensialı birləşdirilərək kompleks turizm məhsuluna çevrilə bilər. Bu ölkələr arasında ortaq turizm marşrutlarının yaradılması xüsusi əhəmiyyət kəsb edir. "Bir marşrut - çox ölkə" konsepsiyası çərçivəsində hazırlanacaq paketlər turistlərə qısa müddət ərzində bir neçə ölkəni ziyarət etmək imkanı verəcək. Bu yanaşma xüsusilə uzaq bazarlardan - Avropa, Asiya və Amerika qitəsindən gələn turistlər üçün cəlbedici olacaq və regionun qlobal turizm xəritəsində çəkisini artıracaq", - deyə Adnan Zamburkan vurğulayıb.

Ekspertin fikrincə, nəqliyyat və logistika sahəsində həyata keçirilən iri layihələr turizm əlaqələrinin inkişafına birbaşa təsir göstərir. Orta dəhliz boyunca formalaşan müasir infrastruktur, yeni hava marşrutlarının açılması, dəmir yolu xətlərinin genişləndirilməsi turistlərin daha rahat və sürətli hərəkətini təmin edir. Bu isə yalnız turist



axınının artmasına deyil, həm də region daxilində turizm xidmətlərinin keyfiyyətinin yüksəlməsinə səbəb olur.

Adnan Zamburkan əlavə edib ki, turizm sahəsində əməkdaşlığın dərinləşdirilməsi üçün investisiya mühitinin yaxşılaşdırılması da vacib şərtlərdəndir. Qarşılıqlı investisiyaların təşviqi, mehmanxana və kurort infrastrukturlarının inkişafı, xidmət sektorunda beynəlxalq standartların tətbiqi regionun rəqabət qabiliyyətini artıracaq. Bu baxımdan dövlət və özəl sektor əməkdaşlığının gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır: "Mədəni-humanitar tədbirlər turizm əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Türk dünyasına məxsus festivallar, beynəlxalq sərgilər, idman yarışları və mədəniyyət günlərinin birgə təşkili turistlərin marağını artırmaqla yanaşı, ölkələr arasında mədəni inteqrasiyanı daha da gücləndirir.

Bundan əlavə, ekspert dayanıqlı turizm prinsiplərinin tətbiqinin vacibliyini vurğulayıb. Ekoloji cəhətdən təmiz turizm layihələrinin həyata keçirilməsi, milli parkların və təbii irsin qorunması, yerli icmaların turizm fəaliyyətinə cəlb olunması uzunmüddətli inkişaf üçün əsas şərtlərdən hesab olunur. TDT-yə üzv ölkələr arasında inkişaf edən əməkdaşlıq turizm sektorunda geniş perspektivlər açır. Mövcud potensialın düzgün istiqamətləndirilməsi və koordinasiyalı fəaliyyət nəticəsində türk dünyası yaxın illərdə vahid, güclü və rəqabətqabiliyyətli turizm məkanı kimi beynəlxalq arenada mövqeyini daha da möhkəmləndirə bilər".



# Qafqaz evi

## Azərbaycanın liderliyi ilə region ölkələri yeni dövrə qədəm qoyur

**Bu gün Cənubi Qafqaz böyük dəyişikliklər dövrünü yaşayır. Uzun illər davam edən münaqişələr və gərginliklər artıq tarixin arxivinə gedir. Bölgədə sülhə, əmin-amanlığa, əməkdaşlığa xidmət edən yeni dövr başlayır. Bu yeni dövrün memarı isə apardığı uzaqgörən və məqsədyönlü siyasətlə dünyada böyük nüfuz qazanan Azərbaycan dövlətidir.**

Aprelin 6-da Prezident İlham Əliyevin Gürcüstana etdiyi dövlət səfəri və orada səsləndirdiyi fikirlər də bir daha təsdiqlədi ki, sülh ünvanına çevrilən Cənubi Qafqaz artıq mühüm iqtisadi mərkəz kimi də mövqelərini möhkəmləndirir.

### Yaranmış bu fürsət əldən verilməməlidir

Azərbaycanın son illərdə atdığı strateji addımlar Cənubi Qafqazda onilliklər boyu kök salmış münaqişəni tamamilə aradan qaldırdı. Hərbi və siyasi qələbəsi ilə regionda yeni reallıqlar yaradan Bakı həm də Cənubi Qafqazın iqtisadi potensialını önə çıxararaq bölgəni dünya üçün cəlbedici mərkəz halına gətirdi. İlk növbədə də bununla region ölkələri yeni və daha perspektivli inkişaf imkanları əldə etdilər.

Azərbaycanın yaratdığı yeni reallığın ən mühüm özəlliyi isə təkcə özünün yox, digər region ölkələrinin də inkişafını ehtiva etməsidir. Ölkəmiz bölgədə, sözün əsl mənasında, "Qordi düyünü"nə çevrilmiş mürəkkəb münaqişəni öz gücü ilə həll edərək, Cənubi Qafqazı dünyanın ən böyük enerji və nəqliyyat qovşaqlarından birinə çevirdi. ABŞ və Çin kimi nəhəng siyasi, iqtisadi güclər belə regionun bu imkanlarından faydalanmaq niyyətlərini açıq şəkildə bildirirlər. Bütün bunlara görə də indi bölgə dövlətləri öz seçimlərini etməlidirlər. Xüsusilə də bu, Ermənistana aiddir. O mənada ki, bu ölkə ya Azərbaycanın yaratdığı yeni reallığa uyğunlaşıb tərəqqi yolunu seçməlidir, ya da köhnə və faydasız iddialarla inkişafdan kənarda olan dalan ölkə kimi qalmalıdır.

Prezident İlham Əliyev aprelin 6-da Gürcüstanda səfərdə olarkən Cənubi Qafqaz dövlətlərini yaranmış bu fürsəti əldən verməməyə çağırdı: "Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir".

Dövlətimizin başçısı əlavə etdi ki, bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir: "Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim".

Prezident İlham Əliyevin Tbilisidə də vurğuladığı kimi, bu gün Cənubi Qafqaz artıq sülh və əməkdaşlıq məkanı kimi tanınmağa başlayıb. Bu mühitdə həm də Azərbaycanın lider dövlət statusu daha da möhkəmlənib. Çünki ölkəmiz təkcə öz milli maraqlarını deyil, bütövlükdə "Qafqaz evi"nin təhlükəsizliyini və rifahını düşünən əsas tərəfdir.

Azərbaycanın yaratdığı yeni reallıqlar regionun hər bir ölkəsinə inkişaf şansı verir. Bu prosesdə ən uğurlu tərəfdaşlıq modelini biz Azərbaycan və Gürcüstan arasında görürük. İki ölkə arasında qurulan münasibətlər, sadəcə, qonşuluq deyil, həm də sarsılmaz dostluq körpüsüdür.

Bu dostluğun təməlində isə böyük layihələr dayanır. Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Qars kimi nəhəng layihələr regionun taleyini dəyişdi. İndi isə gündəmdə olan Orta dəhliz layihəsi hər iki ölkəni dünyanın ən vacib nəqliyyat damarına çevirir. Bu dəhliz vasitəsilə yüklər Şərqdən Qərbə daha sürətlə və təhlükəsiz daşınacaq. Bununla həm Azərbaycanın, həm də Gürcüstanın büdcəsinə milyardlarla vəsait daxil olacaq, eyni zamanda bu xalqlarımızın rifahına birbaşa təsir göstərəcək.

Prezident İlham Əliyevin sözügedən səfəri zamanı vurğuladığı mühüm məqamlardan biri də Gürcüstanın müstəqil siyasəti oldu: "Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək".

Gürcüstanın müstəqil siyasəti Cənubi Qafqaz üçün mühüm əhəmiyyət daşıyır. Son parlament seçkilərinin nəticələri də bunu bir daha təsdiqlədi. Gürcü xalqının istəyinin təzahürü olaraq "Gürcü arzusu" Partiyasının hakim mövqeyini qoruyub saxlaması, həmçinin sözügedən partiya tərəfindən namizədliyi irəli sürülən Mixeil Kavelaşvilinin seçkilərdə qalib gələrək Gürcüstan Prezidenti seçilməsi ölkənin, xalqın taleyində mühüm dönüş oldu.

Gürcüstanın öz ayaqları üzərində möhkəm dayanması, Azərbaycan üçün də güclü və etibarlı tərəfdaş anlamına gəlir.

### Sülh yolu ilə inkişaf

Azərbaycan heç vaxt təcrid siyasəti tərəfdarı olmayıb. Bakı hər zaman Cənubi Qafqazın üç dövlətinin birgə əməkdaşlığının tərəfdarı olduğunu bəyan edir. Hazırda Azərbaycanla Ermənistan arasında ticarətin Gürcüstan vasitəsilə həyata keçirilməsi də buna misaldır. Ancaq sülh yalnız kağız üzərində olmamalıdır. Bunun üçün real addımlar atılmalıdır. Əgər Ermənistan siyasi iradə nümayiş etdirib regional layihələrə qoşulsa, bu, ən çox onun öz iqtisadiyyatının xilası olacaq. Regionda yaranan bu yeni əməkdaşlıq mühiti heç kimi kənarda qoymur, sadəcə, qarşı tərəfdən siyasi iradə, sülh prosesinə sadiqlik tələb edir.

"Qafqaz evi" regionumuzun, həqiqətən də, evimiz olması kimi danılmaz fakta söykənir. Kənar qüvvələrin burada öz maraqlarını yürütməsinə imkan vermədən, üç dövlət birləşib bu evi abadlaşdırmalıdır. Bu gün dünyanın müxtəlif yerlərində müharibələr, qanlı toqquşmalar baş verdiyi bir vaxtda Cənubi Qafqazın sülh və əməkdaşlıq ünvanına çevrilməsi böyük uğurdur.

Azərbaycan hər zaman mehriban qonşuluq siyasətinə sadiqdir və digər ölkələri də buna dəvət edir. Yəni hər bir dövlət regiondakı yeni reallığa töhfə verməlidir.

Bir sözlə, Prezident İlham Əliyevin Tbilisidən bəyan etdiyi kimi, Cənubi Qafqaz dövlətləri yeni yaranmış fürsəti əldən verməməlidir. Çünki birlikdən güc doğur və bu da sabitliyin, inkişaf və tərəqqinin əsasını təşkil edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin Gürcüstan və Ermənistan istiqamətləri: *yeni reallıqlar*

**Hazırda Azərbaycan Cənubi Qafqazın regional müəyyənedici qüvvəsidir. Politoloji anlamda regional müəyyənedici qüvvə elə bir dövlət olur ki, iqtisadi, hərbi və siyasi potensialına görə, qonşu ölkələri əhəmiyyətli dərəcədə qabaqlayır və özünün yerləşdiyi coğrafi makroregion hüdudlarında beynəlxalq münasibətlər sisteminə ciddi təsir göstərə bilir. Deməli, regional müəyyənedici qüvvə potensial, təsir və oynadığı rol kimi faktorların sinxronlaşdırılması əsasında yerləşdiyi geosiyasi və coğrafi-iqtisadi məkanda aparıcı gücdür. Onun potensialı qonşulardan üstün olan iqtisadi imkanları və güclü ordusu ilə bağlıdır.**

Yuxarıda vurğulananlar Azərbaycanın Cənubi Qafqazın müəyyənedici gücə malik olduğunu təsdiq edir. Bu proses 2020-ci ildəki 44 günlük Vətən müharibəsindən sonra öz hərbi və hüquqi təsbiti və təsdiqini tapmışdır. Bunun fonunda Azərbaycanın tədricən bütün meyarlar üzrə regionda müəyyənedici güc olması qəbul edilmişdir. Prosesin siyasi, geosiyasi, hüquqi və hərbi aspektlərini özündə ehtiva edən mərhələsi məlum 8 avqust Vaşinqton razılaşmasından sonra başlamışdır.

Azərbaycanın regional müəyyənedici güc kimi xarakteristikasını Prezident İlham Əliyev belə müəyyən etmişdir: "Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman birnömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik... Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq".

Əlbəttə, öncə milli miqyasda, sonra isə regional səviyyədə sülh və təhlükəsizliyin qalıcı təmini Azərbaycanın iqtisadi, hərbi və siyasi potensialının sinerjisi sayəsində mümkün olmuşdur.

### Beynəlxalq münasibətlərə təsir

Azərbaycan özünün iqtisadi və hərbi potensialına görə, beynəlxalq münasibətlər sisteminə təsir göstərə bilir ki, bu imkan da regional müəyyənedici qüvvə olmağın əsas şərtlərindən biridir. Lakin klassik regional müəyyənedici qüvvələrdən (onlar özlərini "fövqəldövlət" də adlandırırlar) fərqli olaraq, Bakı heç vaxt Cənubi Qafqazda hegemonluğa can atmayıb və indi də atmır. Bu məqam Prezident İlham Əliyevin yuxarıda vurğuladığımız "biz sülhə nail olduq və artıq sülh şəraitində yaşayırıq" tezisinin semantikasından birbaşa irəli gəlir. Məsələnin bu tərəfi Azərbaycanın regiondakı qonşularına yönəlmiş siyasətində mühüm yer tutur. Məhz həmin siyasətin başlıca meyarları ölkəmizin beynəlxalq münasibətlərə təsirini xarakerizə edir və ona konkret məzmun verir. Bu məqam üzərində bir qədər geniş dayanmağa çalışaq.

### Qarşılıqlı əlaqələrin siyasi məntiqi

Ekspertlər Cənubi Qafqazda "regional geosiyasətdə keyfiyyət yeniləşməsinin əlaməti"ndən bəhs edir, onun təzahürü olaraq "münaqişə paradiqmasından qarşılıqlı əlaqələr məntiqinə keçid"i göstərirlər. Doğrudan da, Cənubi Qafqaz üçün "münaqişə paradiqmasından qarşılıqlı asılılıq məntiqinə keçid" geosiyasi aspektdə keyfiyyət dəyişikliyidir. Maraqlıdır ki, mütəxəssislər bunu "strateji üfüq" kontekstində "yeni regional reallıq" kimi xarakterizə edir, onun arxitektoru kimi isə Azərbaycanı ünvan göstərirlər. Bu, düşündürücü və əsaslı qənaətdir. Azərbaycan regionun müəyyənedici qüvvəsi kimi Cənubi Qafqazda yeni geosiyasi reallıqları yaradan və onun yeniləşmə xüsusiyyətlərini formalaşdıran dövlətdir. Yeni regional reallığın arxitekturasında sosial, siyasi, geosiyasi, mədəni, təhlükəsizlik aspektləri bir-biri ilə qarşılıqlı münasibətlərdədir. Belə bir çoxaspektli prosesdə Azərbaycanın Gürcüstan və Ermənistan siyasətinin sinxronlaşması mühüm faktordur.

Bu prosesdə Gürcüstan daha çox ənənəvi "diplomatik məsləhətləşmələr məkanı" statusundan "infrastruktur inteqratoru və iqtisadi vasitəçi" statusuna transfer edirsə, Ermənistan "münaqişə paradiqması"ndan "qarşılıqlı asılılıq məntiqi"nə keçid edən region dövlətidir.

Bu tarixi keçidin regional miqyasda arxitektoru Azərbaycandır. Gürcüstanın iqtisadi aspekti olmayan diplomatik məsləhətləşmələr məkanından konkret iqtisadi məzmunu olan infrastruktur inteqratoru statusuna yüksəlməsi Azərbaycanın həyata keçirdiyi layihələr və onlarda Tbilisinin iştirakının xarakterini müəyyən etməsi sayəsində mümkün olmuşdur.

Bununla yanaşı, Azərbaycanın uzun müddət apardığı gərgin mübarizə nəticəsində rəsmi İrəvan anlamışdır ki, münaqişə paradiqması onu uçuruma aparır. 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm Zəfərin fonunda isə Ermənistan qarşılıqlı asılılığın siyasi məntiqinə vara bilmişdir.

Bu iki xəttin qarşılıqlı təsirləri nəticəsində yeni regional reallığın geosiyasi konfiqurasiyası formalaşmağa başlamışdır. Ekspertlər bu prosesin maraqlı iyerarxik geosiyasi əhəmiyyətlilik "arxitekturası"ndan bəhs edirlər. Bu, bizcə, ümumiyyətlə, Avrasiyada yeni hadisədir və diqqətəlayiq məzmun daşıyır. Onun bir neçə geosiyasi əlamətini ayrıca vurğulamağa ehtiyac vardır.

### Regional status-kvo

Gürcüstan və Ermənistanın geosiyasi rolunun yeniləşməsi regional miqyasda prinsipial hadisədir. Gürcüstan "infrastruktur inteqratoru və iqtisadi vasitəçi", Ermənistan isə "münaqişə paradiqması"ndan "qarşılıqlı asılılıq məntiqi"nə keçid edən ölkə kimi regional miqyasda bir geosiyasi xüsusiyyətin dəyişməsinə şərait yaratmışlar. Xarici böyük qüvvələr artıq Cənubi Qafqaza "daimi münaqişələr məkanı" kimi baxa bilmirlər. Azərbaycanın qonşu region ölkələri istiqamətindəki siyasəti bu imkanı xarici qüvvələrin əlindən almışdır. Tbilisinin infrastruktur sferasında birləşdirici funksiya yerinə yetirməyə başlaması ilə İrəvanın qarşılıqlı asılılığı dərk etməsi sintez halında Azərbaycanın regional geosiyasi viziyonunu reallaşdıra bilməsi üfüqünü genişləndirmişdir.

Bu xüsusda region davamlı olaraq "münaqişədən barışa" keçid məntiqindən sülh, əməkdaşlıq platformaları, qarşılıqlı məsuliyyət mexanizmlərinin işə salınması və sairə kimi yeni məntiqi faktorlarla xarakterizə olunan vəziyyətə transformasiya edir.

Məhz bu xüsusiyyət qlobal geosiyasi aktorların region siyasətində strateji xarakterli dəyişikliklər etmişdir. Onlar təzyiq və təsir rıçaqları kimi münaqişələrdən istifadə xəttindən imtina etməyə məcbur qalırlar. Regionda institusional yeniləşmələr ön sıraya çıxır. Bu kontekstdə iqtisadi layihələr, nəqliyyat diversifikasiyası və enerji dəhlizlərinin təhlükəsizliyi kimi faktorlar aparıcı rol oynamağa başlayır.

Bütün bunlar yekun halında regionun idarəolunan sülh şəraitinə keçidini təmin edir. Bu şərait gərginliyin artması riskini minimum edir. Belə bir keçid "dialoqun dərinləşməsi və davamlılığını tələb edir, yoxlama mexanizmlərini daxil edir, beynəlxalq təminatçıları sərmayə qoyuluşuna cəlb edir".

### Postmünaqişə mərhələsində idarəetmə formulu

Gürcüstan və Ermənistanın regional geosiyasi proseslər kontekstində vurğulanan dəyişmələri başqa bir faktoru da diqqət mərkəzinə gətirir. Rəsmi Bakının postmünaqişə mərhələsində sabitliyin təmin edilməsi istiqamətində atdığı addımların Tbilisi və İrəvanın geosiyasi statusuna təsiri maraq doğurur. Məsələn, "Azərbaycanla Ermənistan arasında ticari-iqtisadi yaxınlaşma taktiki gedişdirmi?" sualı getdikcə daha aktual xarakter alır. Bu suala cavab axtarışı Cənubi Qafqazda yeni subregional iqtisadi rejimin formalaşıb-formalaşmadığını aydınlaşdırmaqdan başlanmalıdır. Söhbət təhlükəsizlik arxitekturasının, logistikanın və regionun xarici siyasət mövqelərinin transformasiyasının baş verib-vermədiyini müəyyən etməkdən gedir.

Burada ekspertlər postmünaqişə mərhələsində Azərbaycanın Bakı-Tbilisi-Qars dəmiryol layihəsinin geosiyasi roluna xüsusi diqqət yetirirlər. Uzun müddətdir ki, gündəmdə olan bu dəmiryolu layihəsi birbaşa Azərbaycanla Gürcüstanı əhatə edir. Dolayısı ilə Ermənistanın burada rolu ola bilər. Hazırkı proseslər göstərir ki, doğrudan da, Ermənistan Bakı-Tbilisi-Qars dəmiryolu layihəsindən kifayət qədər yararlana bilər. Artıq bu kontekstdə Azərbaycandan Gürcüstana, oradan da Ermənistana yük daşımaları başlamışdır. Bütün bunlara görə də, gürcüstanlı ekspert Vladimir Sxvedianinin Bakı-Tbilisi-Qars dəmiryolu proqramının reallaşmasını obrazlı şəkildə "Cənubi Qafqaz geosiyasətin relslərində" kimi ifadə etməsi yalnız ritorika deyil.

Bunlar onu göstərir ki, Azərbaycan postmünaqişə mərhələsində regional idarəetmədə iqtisadi faktoru önə çəkmişdir. Bu faktor birbaşa geosiyasi dinamikaya təsir edir. Burada Azərbaycanla yanaşı, Gürcüstan və Ermənistanın da maraqları tam nəzərə alınır. Həmin yanaşma ümumən regionda geosiyasi mənzərənin dayanıqlığını təmin edir. Buradan regionun gələcəyi üçün böyük əhəmiyyət kəsb edən bir əməkdaşlıq formatının meydana gəlməsi haqqında qənaətə gəlmək olar.

### Yeni regional platforma

Hazırkı dəyişən şərtlər daxilində ekspertlər üçün belə bir sual olduqca aktualdır: Azərbaycanın təşəbbüsü və atdığı konkret geosiyasi və iqtisadi addımlar fonunda Cənubi Qafqazda Azərbaycan-Gürcüstan-Ermənistan əməkdaşlıq platforması yarana bilərmi? Burada önəmli olan bir neçə məqamı öncədən vurğulamaq lazımdır. Birincisi, Azərbaycan Prezidentinin ikitərəfli, üçtərəfli, dördtərəfli regionlararası əməkdaşlıq platformalarının fəal təşəbbüskarı olduğu hər kəsə məlumdur. Bir sıra tədqiqatlarda Azərbaycanın dövlət başçısının üçtərəfli əməkdaşlıq platformalarını "Əliyev geosiyasi üçbucaqları" kimi adlandırmaqla bağlı fikirlər də irəli sürülmüşdür. Bu tezisin əsasında Azərbaycan Prezidentinin "...ölkənin coğrafi determinantları ilə müasir geosiyasi reallığın başlıca cəhətlərini" ustalıqla uyğunlaşdıra bilməsi məharəti dayanır. Azərbaycan liderinin fəaliyyətinin bu istiqaməti faydalı təcrübə nümunəsi kimi aktiv şəkildə geosiyasi və siyasi-nəzəri müstəvidə araşdırılmalıdır. Belə tədqiqatlar, heç şübhəsiz, çox faydalı elmi və politoloji nəticələrin əldə olunmasına imkan verəcəkdir.

İkincisi, Azərbaycanın xarici siyasətində regional infrastrukturun yaradılması xüsusi yer tutur. Cənubi Qafqaz kontekstində bu, Azərbaycan, Gürcüstan və Ermənistanın birgə iştirakını və yeni infrastruktur nümunələrinin yaradılmasını nəzərdə tutur. Azərbaycan Prezidenti bu barədə öz mövqeyini və nəzərdə tutduğu layihələri ifadə etmişdir. "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda keçirilən XIII Qlobal Bakı Forumundakı çıxışında Azərbaycan lideri demişdir: "Hazırda isə Ermənistanla sülh əldə edildikdən sonra Orta dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini - əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq.

Bu yeni fürsətdən, həqiqətən, yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq".

Vurğulanan layihənin reallaşması sayəsində Cənubi Qafqazda çoxtərkibli əməkdaşlıq şəbəkəsi yaranmış olur: Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Gürcüstan-Ermənistan və Azərbaycan-Ermənistan-Türkiyə istiqamətləri vahid əməkdaşlıq platformasında yeni infrastruktur yaradacaq.

Azərbaycanın Cənubi Qafqazda iqtisadi sahədə həyata keçirdiyi əməkdaşlıq "məntiqi" yuxarıda vurğulanan məqamlardan aydın olur. Maraqlıdır ki, mütəxəssislər geosiyasi və siyasi kontekstlərdə "dünyanın iqtisadi məntiqi" ifadəsini işlədirlər. Bu prizmadan yanaşdıqda, Azərbaycan Prezidentinin regional miqyasda həyata keçirdiyi iqtisadi siyasətin başlıca məntiqi xüsusiyyətlərinin olduqca müasir və səmərəli olduğu aydın görünür. Çünki Azərbaycanın regional iqtisadi məntiqi müasir dünyanın əsas çağırışı olan birləşdirici geosiyasi məkanın formalaşdırılması prinsipinə tam uyğundur.

### Praqmatizm və iqtisadi müstəqillik

Rəsmi Bakının Gürcüstan və Ermənistan istiqamətində yeritdiyi siyasətin mühüm cəhətləri sırasında praqmatizm və iqtisadi müstəqillik ayrıca göstərilir. Çoxqütblü dünyada vurğulanan iki xüsusiyyətin yeri və rolu əhəmiyyətlidir. Lakin onların vahid siyasi məqsəd kontekstində ortaq məntiqi çərçivəyə salınması da zəruridir. Bu baxımdan mütəxəssislərin Azərbaycanın praqmatizm və iqtisadi müstəqilliyin "daha etibarlı alət" olduğunu sübut etməsi tezisi çox əhəmiyyətli hadisədir.

Bunun sayəsində Azərbaycan davamlı olaraq hərbi bloklara qoşulmaqdan imtina etmiş və qlobal geosiyasi güclərlə balanslı münasibətlər qurmuşdur. Nəticədə Bakı özünün resurs potensialını geosiyasi təsir faktoruna çevirə bilmişdir. Avropa İttifaqı ilə əlaqələrin dinamikası buna sübutdur. Bir sıra tədqiqatçılar həmin strateji xətti "fəal bitərəflik" kimi xarakterizə edirlər.

Lakin burada bitərəflik nisbi xarakterlidir. Çünki region dövlətlərinə qarşı bu, bitərəflikdən daha çox "ortaq regional maraqları formalaşdırmaq" mənasını verir. Bunun sayəsində Azərbaycan Gürcüstanı tamamilə özünün enerji strategiyasına daxil etmişdir.

Cənubi Qafqaz kontekstində bu prosesə Ermənistanın da cəlb olunması istiqamətində işlərin aparılması olduqca əhəmiyyətlidir. Belə ki, artıq Zəngəzur dəhlizi (TRIPP) nümunəsində Ermənistanın Azərbaycanla əməkdaşlıqda institutlaşma istiqamətində addımlar atdığı barədə fikirlər irəli sürülür. Yuxarıda vurğuladığımız kimi, Azərbaycan Prezidenti də Ermənistanın müxtəlif əməkdaşlıq proqramlarına daxil edilməsi istiqamətində işlərin aparıldığını qeyd etmişdir.

Beləliklə, Azərbaycan Prezidentinin Gürcüstan və Ermənistan istiqamətində apardığı xarici siyasətin əsas xüsusiyyətləri göstərir ki, regional inteqrasiya, əməkdaşlıq və təhlükəsizlik məsələləri bu siyasətdə xüsusi yer tutur. Region artıq yeni geosiyasi münasibətlər müstəvisinə transfer edir. Bu kontekstdə Cənubi Qafqazın geosiyasi gələcəyi ilə bağlı proqnostik təhlillərin aparılması aktuallıq təşkil edir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

## Akademik Rasim ƏLİQULİYEV:

# "Ölkənin rəqəmsal inkişafı süni intellekt mərhələsinə qədəm qoyur"

*- Rasim müəllim, rəqəmsallaşma fonunda artan kibertəhlükələr ölkəmiz üçün nə kimi problemlər və risklər yaradır? Bu istiqamətdə fəaliyyətin gücləndirilməsi üçün hansı strateji addımların atılmasını məqsədəuyğun hesab edirsiniz?*

- Rəqəmsallaşma proseslərinin dərinləşməsi ilə paralel olaraq, çox təəssüflər olsun ki, kibertəhlükələr və risklər də qlobal miqyasda sistemli, mürəkkəb və çoxşaxəli xarakter alır. Təbii ki, bu proses Azərbaycandan da yan keçmir. Cəmiyyət həyatının idarəetmə, bank, maliyyə, kommunikasiya, təhsil və sosial münasibətlər kimi əsas sahələrinin getdikcə daha çox rəqəmsal platformalara inteqrasiya olunması yeni imkanlar yaratmaqla yanaşı, müəyyən riskləri də aktuallaşdırır. Bu risklər və təhlükələr təkcə texnoloji deyil, eyni zamanda hüquqi, siyasi-ideoloji, institusional və sosial-iqtisadi baxımdan narahatlıqlar doğuran çağırışlardır.

Vətəndaşların fərdi məlumatlarının ələ keçirilməsi, şərəf və ləyaqətlərinə yönəlmiş kiberhücumlar, bank kartları və maliyyə sistemlərinə müdaxilələr və s. cəmiyyət üçün ciddi narahatlıq doğuran məsələlərdir. Bu nöqteyi-nəzərdən əsas hədəf rəqəmsallaşmanın üstünlüklərindən və imkanlarından maksimum yararlanmaq, eyni zamanda onun yaratdığı riskləri nəzarətdə saxlamaqdır.

Hal-hazırda formalaşmaqda olan rəqəmsal dövlət bir tərəfdən milli dövlətçiliyimizin ayrılmaz tərkib hissəsi, digər tərəfdən isə qlobal virtual mühitin bir seqmenti kimi çıxış edir. Bu səbəbdən, rəqəmsal dövlətin dayanıqlığı yalnız ölkədaxili kibertəhlükəsizlik tədbirləri ilə deyil, həm də beynəlxalq kibermühitdə baş verən proseslərin düzgün qiymətləndirilməsi və bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsi ilə təmin olunmalıdır. Məhz bu yanaşmanın nəticəsi olaraq ölkə rəhbərliyi tərəfindən davamlı şəkildə strateji qərarlar qəbul edilir, normativ-hüquqi baza formalaşdırılır və inkişaf etdirilir. Belə ki, Prezident İlham Əliyev tərəfindən 28 avqust 2023-cü il tarixli sərəncamla "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" təsdiq edilmişdir. Bu sənəd rəqəmsal dövlətin təhlükəsizliyinin təmin olunması baxımından konseptual çərçivə rolunu oynayır.

Hazırda ölkəmizdə müvafiq dövlət qurumlarının sıx qarşılıqlı fəaliyyəti əsasında mərkəzləşdirilmiş koordinasiya və vahid prinsiplərlə idarə olunan milli kibertəhlükəsizlik ekosistemi formalaşdırılmaqdadır. Bu ekosistem yalnız baş vermiş kiberinsidentlərə operativ reaksiya mexanizmlərini deyil, eyni zamanda bu insidentlərlə əlaqəli məlumatların sistemli şəkildə toplanmasını, dərin və hərtərəfli intellektual təhlilini, potensial risklərin öncədən müəyyənləşdirilməsini, rəqəmsal mühitdə və obyektlərdə boşluqların aşkarlanaraq aradan qaldırılması üçün tövsiyələrin hazırlanmasını nəzərdə tutur. Bu çərçivədə fərdi məlumatların etibarlı mühafizəsi, uşaqların zərərli və təhlükəli rəqəmsal məzmun və təsirlərdən qorunması prioritet vəzifələr kimi xüsusi diqqət mərkəzində saxlanılır.

Milli kibertəhlükəsizliyin əsas hədəflərindən biri də dövlət qurumlarının rəqəmsal platformada fasiləsiz və dayanıqlı fəaliyyətinin təmin olunmasıdır. Xüsusən də bank-maliyyə sistemlərinin, kritik informasiya infrastrukturlarının, strateji əhəmiyyətli informasiya resurslarının qorunması bu baxımdan prioritet məsələdir. Ayrı-ayrı qurumların kibertəhlükəsizlik vəziyyətinin mütəmadi olaraq kompleks qiymətləndirilməsi, ölkə üzrə kibertəhlükəsizlik vəziyyətinin davamlı monitorinqinin aparılması və qabaqlayıcı tədbirlərin görülməsi xüsusi əhəmiyyət daşıyır.

Nəzərə almaq lazımdır ki, cəmiyyətin və dövlətin kompleks təhlükəsizliyi kontekstində iqtisadi, enerji, ekoloji və s. sferaların təhlükəsizliyi kimi sektorlar da sürətlə rəqəmsallaşır və onlayn platformalara inteqrasiya olunur. Bu kontekstdə əsas məqsəd yalnız kibertəhdidlərə cavab vermək deyil, həm də rəqəmsal dövlətin ifrat mürəkkəb sosio-texnoloji infrastrukturunun kiberdayanıqlığını, həmçinin fövqəladə hallarda belə etibarlı və dayanıqlı fəaliyyət qabiliyyətini artırmaqdır. Xüsusilə, son zamanlar Əşyaların İnterneti texnologiyalarına əsaslanan kiberfiziki sistemlərin nəqliyyat, sənaye, enerji və digər kritik infrastrukturlarda geniş tətbiqi real məkanda baş verən müxtəlif təbiətli və mənşəli təhlükələrin də rəqəmsal mühitə təsir imkanlarını artırır. Bu isə kibertəhlükəsizliklə yanaşı, digər növ təhlükəsizlik mexanizmlərinin də inteqrasiya olunmuş şəkildə işlənib hazırlanmasını tələb edir.

*(Əvvəli qəzetin 8 aprel tarixli nömrəsində)*

Bu kontekstdə milli kibertəhlükəsizlik ekosisteminin effektivliyinin artırılması üçün onun beynəlxalq əməkdaşlıq və koordinasiya münasibətlərinin gücləndirilməsini zəruri edir. Çünki kibertəhlükələr əksər hallarda bir ölkənin sərhədləri ilə məhdudlaşmır. Digər tərəfdən, strateji informasiya resurslarının fövqəladə hallarda həm ölkə daxilində, həm də kənarda data mərkəzlərdə etibarlı saxlanılması rəqəmsal dövlətin kiberdayanıqlığını artırır.

*- Azərbaycanda rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət siyasəti milli süni intellekt ekosisteminin formalaşmasında hansı institusional dəyişikliklərə səbəb olub? Bu çərçivədə elm, biznes və dövlət əməkdaşlığını, yerli süni intellekt təşəbbüslərinin qlobal bazar perspektivlərini necə dəyərləndirirsiniz?*

- Bu gün müşahidə olunan reallıqlar ondan ibarətdir ki, süni intellekt texnologiyaları sürətlə inkişaf edir, ənənəvi olaraq insan təfəkkürünə xas olan qavrama, qərar qəbuletmə, seçim etmə, proqnozlaşdırma, təhlil etmə kimi funksiyaları icra etmək imkanlarına nail olur. Təbii ki, bu proses dövlət, cəmiyyət və biznes strukturları üçün böyük imkanlar yaratmaqla yanaşı, müəyyən risklər, təhlükələr də yaradır. Məhz buna görə ölkəmizdə uzun müddətdir həyata keçirilən rəqəmsal transformasiyanın yeni mərhələsi kimi süni intellektin inkişafına strateji yanaşmanın formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Prezident İlham Əliyev tərəfindən 19 mart 2025-ci il tarixli sərəncamla təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" bu sahədə institusional çərçivəni müəyyənləşdirən əsas siyasi sənəddir. Strategiyada süni intellektin dövlət idarəçiliyində, iqtisadiyyatın müxtəlif sektorlarında və sosial sahələrdə tətbiqinin genişləndirilməsi, eləcə də bu istiqamətdə institusional vəzifələrin icrası nəzərdə tutulur.

Dövlət başçısı tərəfindən xüsusilə dövlət orqanlarında avtonom süni intellekt agentlərin tətbiqi ilə bağlı verilən tapşırıqlar idarəetmədə səmərəliliyin artırılmasına yönəlmiş mühüm addımdır. Bu qurumlarda toplanan böyükhəcmli verilənlərin intellektual analizinin aparılması, qərar qəbuletməni dəstəkləyən əhəmiyyətli tövsiyələrin formalaşdırılması və operativ hesabatların hazırlanması baxımından süni intellekt agentləri əhəmiyyətli funksional alətə çevrilir. Bu isə dövlət idarəetməsində çevikliyin, şəffaflığın və əsaslandırılmış qərarların verilməsinin təmin olunmasına mühüm töhfə verir.

Biznes mühitində isə süni intellekt əmək bazarının transformasiyasına, yeni peşələrin və dəyərlərin formalaşmasına səbəb olur, toplanmış ilkin məlumatlar artıq strateji resurs kimi çıxış edir. Yerli süni intellekt təşəbbüsləri üçün bu, həm daxili bazarda, həm də qlobal miqyasda rəqabət qabiliyyətinin artırılması baxımından real imkanlar yaradır.

Bununla belə, qarşıda duran əsas vəzifələrdən biri də milli süni intellekt suverenliyinin təmin olunmasıdır. Ölkənin süni intellekt suverenliyi bir neçə əsas komponentə - yerli tədqiqat potensialının gücləndirilməsi, rəqabətədözümlü milli süni intellekt modelləri və alqoritmlərinin işlənilməsi, strateji maraqlara, o cümlədən dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə və iqtisadi rəqabətə davamlılığın artırılmasına xidmət edən texnoloji məhsulların yaradılmasına əsaslanır.



Hazırda istər Elm və Təhsil Nazirliyinin tabeliyində olan elmi qurumlarda, ali təhsil müəssisələrində, istərsə də Azərbaycan Milli Elmlər Akademiyasının institutlarında süni intellekt sahəsində institusional təşəbbüslər genişlənir. Müxtəlif elm sahələrində süni intellekt metodlarının tətbiqi, araşdırma metodologiyasının yeni çağırışlar əsasında formalaşdırılması, keyfiyyətli biliklərin əldə olunması üçün ardıcıl və sistemli islahatlar aparılır.

Beləliklə, ölkəmizdə həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində süni intellektin inkişafı sistemli, institusional və strateji mərhələyə qədəm qoyub. Bununla əlaqədar, elm, biznes və dövlət arasında formalaşan yeni əməkdaşlıq modeli milli süni intellekt təşəbbüslərinin həm daxili, həm də qlobal bazarda rəqabət aparmaq potensialını əhəmiyyətli dərəcədə artırır.

*- Rasim müəllim, süni intellektin ölkəmizdə əmək bazarına təsirini və perspektivlərini necə dəyərləndirirsiniz?*

- Son illərdə ölkəmizdə rəqəmsallaşma istiqamətində atılan institusional addımlar, qabaqcıl beynəlxalq modellərin öyrənilməsi və tədrisə inteqrasiyası elektron təhsilin infrastrukturunun formalaşdırılması istiqamətində xeyli irəliləyişlərə səbəb olub. Lakin süni intellekt texnologiyalarının sürətli inkişafı mövcud təhsil və tədqiqat mexanizmlərinin daha çevik və əmək bazarı ilə sıx əlaqəli şəkildə yenidən qurulması zəruriyyətini yaratmışdır.

Tarixə nəzər salsaq görərik ki, hər bir sənaye inqilabı öz dövrünün əmək bazarına ciddi təsir edərək yeni peşələrin, sosial-iqtisadi və digər reallıqların yaranmasına səbəb olmuşdur. Bu gün artıq V Sənaye İnqilabına doğru irəliləyirik və bu mərhələdə süni intellekt, kiberfiziki sistemlər, böyük verilənlər, kibertəhlükəsizlik və çoxçeşidli rəqəmsal platformalar əmək bazarının əsas hərəkət və istiqamətverici qüvvəsinə çevrilməkdədir. Bu baxımdan, Azərbaycan təhsil sisteminin qarşısında duran əsas vəzifə əmək bazarının cari və perspektiv tələblərinə uyğun insan kapitalının formalaşdırılmasıdır.

Hazırda ali təhsil sistemində yeni ixtisasların yaradılması, rəqəmsal bacarıqların inteqrasiyası və tədqiqat yönümlü təhsilin gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər aparılır, əmək bazarı, akademik mühit və sənaye arasında səmərəli əməkdaşlıq mexanizmləri gücləndirilir.

Məlum olduğu kimi, son zamanlar süni intellektin əmək bazarında kütləvi işsizliyə səbəb olacağı ilə bağlı bəzi narahatlıqlar hiss olunur və əsaslı-əsassız mülahizələr səsləndirilir. Təcrübə göstərir ki, əvvəlki sənaye inqilabları dövründə yeni yaranan texnologiyalar iş yerlərini tamamilə aradan qaldırmamış, sadəcə, onların məzmununun dəyişilməsinə səbəb olmuşdur. Bugünkü rəqəmsal transformasiya dövründə də köhnə, adi əməliyyatların icrasını tələb edən, yüksək zəka və bacarıq tələb etməyən peşələr tədricən aktuallığını itirir, paralel olaraq süni intellektlə rəqabət apara bilən, yeni və daha ali bilik tələb edən peşələr və iş yerləri formalaşır.

Əmək bazarının sürətlə virtuallaşdığı müasir mərhələdə distant iş və inklüziv məşğulluq imkanları insanların fiziki məkandan və kommunikasiyadan asılılığını azaldır. Azərbaycan əmək bazarı da rəqəmsal transformasiya proseslərinin təsiri ilə artıq qlobal əmək bazarının tərkib hissəsinə çevrilməkdədir və ayrı-ayrı fərdlər, xüsusən də gənclər kompüterlər, mobil qurğular vasitəsilə həm yerli, həm də beynəlxalq əmək bazarında fəaliyyət göstərə bilirlər.

Yeni texnologiyaların tətbiqi nəticəsində əmək bazarında data analitikası, süni intellekt, kibertəhlükəsizlik mütəxəssisi, proqram mühəndisi kimi ixtisaslara tələbat sürətlə artır.

Bu baxımdan, qarşıdakı dövrdə əsas çağırışlardan biri fasiləsiz təhsil mexanizmləri və modellərinin tətbiq edilməsi, davamlı təhsil konsepsiyasının hazırlanmasıdır. Sürətlə yeniləşən texnoloji mühit şəraitində insanlar yalnız formal və ya digər ali təhsillə kifayətlənməməli, çoxçeşidli, çevik qeyri-formal təhsil mexanizmləri vasitəsilə də yeni bilik və bacarıqlara nail olmalıdırlar.

Beləliklə, süni intellekt və digər rəqəmsal texnologiyalar əmək bazarı üçün təhlükə yaratmamaqla yanaşı, düzgün qiymətləndirildiyi və idarə olunduğu halda yeni geniş imkanlar təqdim edən strateji potensialdır. Əsas məsələ süni intellektlə təbii intellektin qarşıdurması deyil, onların sintezini təmin edəcək bilik və bacarıqların formalaşdırılmasıdır.

*- Bu yaxınlarda süni intellekt texnologiyalarının yaratdığı çoxçeşidli risklər kontekstində Milli Məclis tərəfindən Cinayət Məcəlləsinə dəyişikliklərin edilməsi məsələləri müzakirə olunmuşdur. Sizin fikrinizcə, süni intellektlə bağlı risklərin effektiv tənzimlənməsi üçün əlavə hansı tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır?*

- Əvvəlcə qeyd etmək lazımdır ki, rəqəmsallaşma proseslərinin cəmiyyətin bütün sahələrinə sürətlə sirayət etməsi süni intellekt texnologiyalarının yaratdığı müxtəlif xarakterli, çoxsaylı risklərin və kibercinayətkarlıq halları ilə mübarizənin tənzimlənməsi məsələlərini daha da aktuallaşdırmışdır. Bu nöqteyi-nəzərdən Milli Məclisdə Cinayət Məcəlləsinə ediləcək bəzi dəyişikliklərin müzakirə olunması olduqca aktual və vaxtında atılmış addımdır.

Hazırda ölkəmizdə qabaqcıl beynəlxalq təcrübəyə istinad edilməklə normativ-hüquqi bazanın davamlı olaraq təkmilləşdirilməsi, yeni qanun və strategiyaların qəbul edilməsi, mövcud hüquqi aktlara dəyişikliklərin edilməsi istiqamətində çox vacib və səmərəli işlər aparılır. Eyni zamanda cəmiyyətin bütün sferalarında virtuallaşma proseslərinin yüksək templə dərinləşməsi insan hüquqlarının təmin olunması müstəvisində əvvəllər rast gəlinməyən, mövcud olmayan yeni çağırışlar, problemlər yaradır. Bu nöqteyi-nəzərdən qlobal səviyyədə mövcud hüquqi mexanizmlərin təhlili, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş standartların, konvensiya və bəyannamələrin milli qanunvericiliyə uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Sözügedən standartlar və normativ-hüquqi sənədlər süni intellekt əsaslı layihələrin, texnoloji həllərin ilkin ekspertizasında, tətbiqi və audit mexanizmlərinin formalaşdırılmasında mühüm rol oynayır.

Rəqəmsal transformasiya proseslərinin təsiri ilə həyata keçirilən hüquqi islahatlar çərçivəsində digər vacib istiqamətlərdən biri də onlayn mühitdə formalaşan mülkiyyət münasibətlərinin tənzimlənməsi məsələsidir. Rəqəmsal aktivlərin üzərində mülkiyyət hüququ, alqı-satqısı və sığortalanması mexanizmlərinin yaradılması, onların nəsildən-nəslə varisliyinin təmin olunması və s. kimi istiqamətlərdə beynəlxalq təcrübənin öyrənilməsi və milli hüquq sisteminə adaptasiyası zamanın tələbidir.

Xüsusilə deepfake texnologiyalarının sürətlə yayılması cəmiyyət üçün ciddi risklər və təhlükələr yaradır. Foto, video və audio materialların saxtalaşdırılması, fərdi biometrik məlumatların manipulyasiyası genişmiqyaslı kibercinayətkarlıq əməllərinə yol açır. Bu kibertəhlükələr vətəndaşlara məxsus bank kartlarına müdaxilələrdən tutmuş şəxsi nüfuzun zədələnməsinə, uşaqların təhlükəsizliyinə olan təhdidlərə qədər müxtəlif sahələri əhatə edir. Uşaqların rəqəmsal mühitdə zərərli kontentlərdən qorunması istiqamətində cənab İlham Əliyev tərəfindən 27 fevral 2026-cı il tarixində imzalanmış müvafiq sərəncam bu sahədə atılmış mühüm qabaqlayıcı addımlardan biridir.

Bundan əlavə, süni intellekt texnologiyaları və məhsulları tərəfindən generasiya olunan saxta məlumatlar ictimai rəyə təsir göstərməklə yanaşı, hüquqi normaların və münasibətlərin də təhrif olunmasına səbəb olur. Bu baxımdan, Cinayət Məcəlləsinə ediləcək dəyişikliklər süni intellekt texnologiyaları vasitəsilə həyata keçirilən kibercinayətlərlə mübarizənin hüquqi statusunu və çərçivəsini daha dəqiq müəyyənləşdirəcək. Həmçinin rəqəmsal aləmlə bağlı zəruri hüquqi mexanizmlərin gücləndirilməsi cəmiyyətdə süni intellekt texnologiyalarına olan etimadı və güvəni artırır, bu texnologiyaların tətbiqinə ictimai dəstəyi formalaşdırır.

Bu proseslərin ardıcıl, sistemli və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi, qabaqlayıcı addımların atılması, rəqəmsal ekspertiza və kriminalistik təminat mexanizmlərinin inkişaf etdirilməsi ölkəmizdə dayanıqlı, təhlükəsiz və hüquqi rəqəmsal dövlətin formalaşmasına təkan verəcəkdir. Heç şübhəsiz ki, strateji əhəmiyyətli belə bir konseptual yanaşma həm cəmiyyətin bütün təbəqələrinin maraqlarına, həm də dövlətin təhlükəsizliyinə və kibersuverenliyinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

*- Müasir dövrdə çox müxtəlif mənbələrdən generasiya olunan məlumatların milli resurs kimi idarə olunması nə üçün vacibdir və Azərbaycanda data ekosisteminin qurulması hansı çağırışlardan irəli gəlir?*

- Əvvəlki suallarda data ilə bağlı müxtəlif məqamlara toxunulsa da, xüsusi olaraq qeyd etmək lazımdır ki, ölkənin bütün ərazisini, cəmiyyətin bütün üzvlərini, qurumları və təşkilatları əhatə edən telekommunikasiya və şəbəkə infrastrukturlarının inkişafı təkcə onlayn ünsiyyət və digər texnoloji imkanların genişləndirilməsinə deyil, eyni zamanda vahid rəqəmsal platformada formalaşan data resursların süni intellekt texnologiyaları və agentləri üçün əlçatan, sistemli və istifadəyə yararlı hala gətirilməsinə, onlardan keyfiyyətli və obyektiv biliklərin əldə olunmasına xidmət etməlidir. Bu zəruri tədbirlərin həyata keçirilməsi "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nda müəyyən edilmiş prioritetlərdə öz əksini tapmışdır.

Bu kontekstdə ilk növbədə vətəndaşlara mənsub fərdi məlumatların qorunması məsələsi aktuallaşır. Belə ki, müxtəlif qurumlar tərəfindən toplanan data resurslarında fərdi məlumatların mühafizəsinə dəstək verən texnoloji, təşkilati-hüquqi və s. mexanizmlərin formalaşdırılması ilə bağlı müəyyən problemlərin həlli məsələləri meydana çıxır.

Eyni zamanda müxtəlif fəaliyyət sahələrində - səhiyyə, bank-maliyyə, nəqliyyat, peyk və seysmoloji müşahidələr, ətraf mühit, təbii proseslər və digər istiqamətlər üzrə generasiya olunan ilkin, emal olunmamış data resursların toplanması, etibarlı saxlanılması, intellektual emal olunması və idarə edilməsi, rəqəmsal dövlətin əsas dayaqlarından biri kimi milli data suverenliyinin təmin olunması üçün elmi-konseptual yanaşmaya əsaslanan araşdırmaların aparılmasına böyük ehtiyac vardır. Təəssüf ki, çox müxtəlif obyektiv, bəzi hallarda subyektiv səbəblərdən bəzi qurumlar və təşkilatlarda data resurslara münasibət sistemli xarakter daşımır, texnoloji baza zəifdir, məlumatlar qısamüddətli saxlanılır və ya sonradan silinir. Halbuki istənilən fəaliyyət sahəsində yaranan data resursları, xüsusən də insan sağlamlığı, iqtisadiyyat, cəmiyyətin idarə olunması və digər strateji əhəmiyyətli obyektlərlə bağlı məlumatlar dövlətin dayanıqlı və davamlı inkişafı, insanların sosial rifahının yüksəldilməsi üçün çox böyük dəyərə malik milli resurs kimi qiymətləndirilməlidir.

Məhz bu səbəbdən ölkədə rəqəmsal inkişaf sahəsində aparılan dövlət siyasətinin əsas hədəflərindən biri də elmi cəhətdən əsaslandırılmış, möhkəm dayaqlar üzərində qurulacaq milli data ekosisteminin formalaşdırılmasıdır. Burada məqsəd hər bir qurumun ayrıca data və superkompüter mərkəzi yaratması deyil, çünki bu, həm maliyyə baxımından, həm texnoloji, həm də menecment, kibertəhlükəsizliyin təmin olunması cəhətdən səmərəsiz hesab olunur. Ona görə də burada əsas hədəf müvafiq mərkəzi hakimiyyət orqanlarının nəzarətində olan, yüksək səviyyədə qorunan və superkompüterlərin infrastrukturunun enerji və kibertəhlükəsizlik tələblərinə tam cavab verən, data itkisinə yol verməyən milli data mərkəzlərin yaradılmasıdır.

*- Rasim müəllim, müasir rəqəmsal çağırışlar fonunda Azərbaycan dilinin qorunması və onun texnoloji mühitə inteqrasiyasının strateji əhəmiyyəti nədən ibarətdir?*

- Hələ 1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və məlum məhdudiyyətlər şəraitində qətiyyətli mövqeyi ilə Azərbaycan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi bu sahədə tarixi dönüş nöqtəsi oldu. Həm Ümummilli Liderin hakimiyyəti illərində, həm də Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi müasir dövrdə Azərbaycan dilinin qorunması və inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi davam etdirilib. Dövlət başçısı Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxışında Azərbaycan dilini təkcə mədəniyyət hadisəsi deyil, həm də milli təhlükəsizlik məsələsi kimi dəyərləndirib. Bu mövqe Prezidentin yerli televiziya kanallarına verdiyi müsahibələrdə də ifadə olunub: "Biz bu gün Azərbaycan dilimizi qorumasaq, sabah dövlət olaraq da itirə bilərik, çünki dil dövlətçiliyin və milli kimliyin əsas atributlarından biridir".

Heç şübhəsiz ki, müasir dövrdə bu yanaşma rəqəmsal müstəvidə də davam etdirilməli və inkişafı təmin olunmalıdır. Azərbaycan dili artıq yalnız cəmiyyətin gündəlik və rəsmi ünsiyyət dili kimi deyil, eyni zamanda virtual məkanda, texnoloji platformalarda əsas rəqəmsal kommunikasiya vasitəsi kimi əhəmiyyətli mövqeyə malik olmalıdır. Başqa sözlə, Azərbaycan dili süni intellekt, təbii dilin emalı, sosial şəbəkələr və digər rəqəmsal platformalar üçün tam funksional, emal oluna bilən rəqəmsal dilə çevrilməlidir.

Əlbəttə ki, bu istiqamətdə görüləcək kompleks işlər ardıcıl, sistemli elmi-praktiki yanaşma tələb edir. Bununla əlaqədar olaraq, dövlət başçısı tərəfindən digər qurumlarla yanaşı, AMEA-ya da bu məsələ ilə bağlı konkret tapşırıqların verilməsi təsadüfi deyil. Azərbaycanın yeni rəqəmsal arxitekturasının qurulması kontekstində təbii Azərbaycan dili ilə yanaşı, rəqəmsal Azərbaycan dilinin formalaşdırılması, onun bütün funksional imkanları və xidmətlərini əhatə edən onlayn platformada vahid linqvistik ekosistemin yaradılması zəruridir.

Bu linqvistik ekosistem çərçivəsində Azərbaycan dilinin terminologiyası, orfoqrafiyası, orfoepiyası, dialektologiyası və digər servisləri rəqəmsal dövlət arxitekturasının üzvü tərkib hissəsinə çevrilməlidir. Bu isə rəqəmsal platformada insan-kompüter və kompüterlər arası qarşılıqlı əlaqəsinin Azərbaycan dili vasitəsilə qurulması, robot və digər "ağıllı" sistemlərin virtual mühitdə sosiallaşaraq Azərbaycan dilində ünsiyyət imkanlarının genişlənməsi, həmçinin Azərbaycan dilindən digər dillərə tərcümələrin keyfiyyətinin yüksəldilməsinə imkan verəcəkdir. Eyni zamanda dilin semantik, emosional və digər aspektlərinin rəqəmsal texnologiyaların köməyi ilə reallaşdırılması nəticəsində dezinformasiya ilə mübarizədə, kibertəhlükəsizliyin təmin edilməsində də geniş imkanlar yaradacaqdır.

Beləliklə, Azərbaycan dili təkcə ana dili deyil, həm də rəqəmsal texnologiyaların, süni intellektin dili olacaqdır. Rəqəmsal dövlət mühitində bu təşəbbüslər və ideyalar reallaşacağı halda, dilin qorunması və inkişafı ilə yanaşı, linqvistik suverenlik daha da möhkəmlənəcək, qlobal informasiya məkanında dünya xalqlarının dillərinə kibertəhdidlərə qarşı effektiv mübarizə üçün geniş imkanlar açacaqdır.

***Müsahibəni apardı:***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Regional əməkdaşlıq nümunəsi

**Azərbaycan-Gürcüstan münasibətləri Cənubi Qafqaz regionunda sabitlik və əməkdaşlığın ən uğurlu nümunələrindən biri kimi qiymətləndirilir. Tarixi köklərə, ortaq maraqlara və qarşılıqlı etimada əsaslanan bu əlaqələr müasir dövrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Xüsusilə enerji, nəqliyyat və regional təhlükəsizlik sahələrində həyata keçirilən birgə layihələr iki ölkəni bir-birinə daha da yaxınlaşdırıb və onları regionun əsas aktorlarına çevirib.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanla Gürcüstan arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri mövcuddur və ölkələrimizin bu əlaqələri əsl regional tərəfdaşlıq nümunəsidir: "İki ölkə arasındakı strateji tərəfdaşlıq münasibətləri mütəmadi şəkildə yeni keyfiyyət çaları ilə zənginləşməkdədir. Azərbaycanla Gürcüstanı mehriban qonşuluq və tarixi dostluq, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir".

Azərbaycan-Gürcüstan münasibətlərinin daim yüksək səviyyədə olduğunu qeyd edən deputat əlavə edib ki, dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. Ötən illər ərzində qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-Gürcüstan əlaqələri dinamik şəkildə inkişaf edib və ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb. Bu əməkdaşlığın ən bariz nümunələri sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Qars dəmir yolu kimi iri transmilli layihələri qeyd edə bilərik. Bu layihələr təkcə iqtisadi fayda gətirməklə kifayətlənmir, həm də regionun geosiyasi əhəmiyyətini artırır, Avropa ilə Asiya arasında mühüm körpü rolunu möhkəmləndirir.

V.Rəhimzadə vurğulayıb ki, bu kontekstdə Prezident İlham Əliyevin Gürcüstana son səfəri mühüm əhəmiyyət kəsb edir. "Dövlət səfəri çərçivəsində keçirilən yüksəksəviyyəli görüşlər və aparılan müzakirələr göstərir ki, tərəflər mövcud əməkdaşlıq səviyyəsini qorumaqla yanaşı, onu daha da genişləndirmək niyyətindədirlər. Xüsusilə enerji resurslarının nəqli, nəqliyyat marşrutlarının inkişafı və infrastrukturun təkmilləşdirilməsi kimi məsələlər əsas yer tutur. İki ölkə arasında formalaşmış etibarlı münasibətlər regional məsələlərin həllində vacib faktordur. Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması üçün Azərbaycan və Gürcüstanın birgə mövqedən çıxış etməsi regionun gələcəyi üçün vacib amillərdən biridir. Azərbaycan-Gürcüstan əlaqələri qarşılıqlı fayda və strateji maraqlar üzərində qurulmuş möhkəm tərəfdaşlıq modelidir", - deputat bildirib.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

## Azərbaycan-Gürcüstan əlaqələri Avrasiyanın enerji mənzərəsini yenidən formalaşdırır

**Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri iki qonşu ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi istiqamətində mühüm siyasi-diplomatik hadisədir. Səfər iki xalqın tarixi dostluq bağlarının sarsılmaz əməkdaşlığa çevrildiyini bir daha nümayiş etdirməklə yanaşı, müasir qlobal çağırışlar fonunda Azərbaycanın bölgədəki həlledici liderlik rolunu və Gürcüstanın strateji tərəfdaş kimi əhəmiyyətini yenidən təsdiq etdi. Bu birlik həm də Cənubi Qafqazda sabitliyin, enerji təhlükəsizliyinin və yeni nəqliyyat dəhlizlərinin gələcək taleyini müəyyən edən ən mühüm faktor kimi çıxış edir.**



Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Tbilisidə yüksək ehtiramla qarşılanması və keçirilən ali səviyyəli görüşlər rəsmi Bakının xarici siyasət strategiyasında Gürcüstanın yalnız mühüm tranzit tərəfdaşı deyil, həm də Cənubi Qafqazın təhlükəsizlik sistemində və regional sabitlikdə həlledici payı olan müttəfiq dövlət olduğunu bir daha təsdiqləyir. Tərəflər arasında aparılan müzakirələr regionun gələcək inkişafının məhz Cənubi Qafqaz dövlətlərinin daxili iradəsindən və qarşılıqlı əməkdaşlığından keçdiyini bir daha nümayiş etdirdi. "Bakı və Tbilisinin nümayiş etdirdiyi vahid və qətiyyətli mövqe bu baxımdan müstəsna əhəmiyyət daşıyır. Azərbaycanın öz suverenliyini tam bərpa etməsindən sonra bölgədə yaranan yeni reallıqların Gürcüstan tərəfindən birmənalı şəkildə dəstəklənməsi, regionda uzunmüddətli və sabit sülhün əsas sütunlarını təşkil edir. Bu strateji birlik təkcə iki ölkənin deyil, bütövlükdə Avrasiya məkanının enerji və nəqliyyat xəritəsinin təhlükəsizliyini təmin edən ən mühüm amildir. Dövlətimizin başçısının Gürcüstana səfəri zamanı mətbuata verdiyi bəyanat bu münasibətlərin həm tarixi köklərini, həm də gələcəyə yönəlmiş sarsılmaz perspektivlərini aydın şəkildə ortaya qoyur. Ölkə rəhbəri qeyd etdi ki, bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və regionda yerləşən ölkələr bu imkanları əldən verməməlidir: "Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim", - deyə deputat əlavə edib.

Deputat Gürcüstanın Baş naziri İrakli Kobaxidzenın çıxışını xatırladaraq bildirib ki, baş nazir qlobal geosiyasi dəyişikliklərin, ümumiyyətlə, Orta dəhlizin vacibliyini, o cümlədən Qara dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırdığını deyib: "Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq".

K.Bayramov diqqətə çatdırıb ki, müasir geosiyasi şəraitdə Gürcüstan Azərbaycanın Qərbə açılan əsas strateji qapılarından biri kimi çıxış edir. Öz növbəsində, Azərbaycan Gürcüstan üçün iqtisadi sabitliyin qorunması, enerji təhlükəsizliyinin təmini və regional inteqrasiya prosesləri baxımından əvəzedilməz tərəfdaşdır. Məhz bu qarşılıqlı asılılıq və ortaq maraqlar iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirərək, onları regional əməkdaşlığın beynəlxalq miqyasda uğurlu nümunəsinə çevirir.

Deputat vurğulayıb ki, qarşıdakı dövrdə münasibətlər "yaşıl enerji", rəqəmsal bağlantılar, yeni yük marşrutları və Xəzər-Qara dəniz xətti üzrə strateji layihələrlə daha da zənginləşəcək. "Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri bütövlükdə region üçün nümunəvi əməkdaşlıq modeli kimi çıxış edərək, gələcək genişmiqyaslı təşəbbüslər üçün möhkəm zəmin yaradır. Bakı və Tbilisi tərəfindən nümayiş etdirilən bu sarsılmaz birlik modeli, Cənubi Qafqazın təhlükəsizlik sistemini möhkəmləndirməklə yanaşı, həm də Avrasiyanın enerji və nəqliyyat mənzərəsini yenidən formalaşdırır. Bu tərəfdaşlıq təkcə bu günün reallıqlarına deyil, həm də gələcək nəsillər üçün sabit, təhlükəsiz və inteqrasiya olunmuş bir regionun qurulmasına xidmət edir", - deyə K.Bayramov bildirib.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Etibarlı və məsuliyyətli tərəfdaşlar

**"Azərbaycan uğurlu xarici siyasət həyata keçirir. Bu siyasətin nəticəsində qonşu ölkələrlə münasibətlərimiz arzuolunan səviyyədədir. O cümlədən Azərbaycanla Gürcüstan arasında münasibətlər yüksələn xətlə inkişaf edir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. O bildirib ki, Azərbaycanla Gürcüstanı təkcə siyasi-iqtisadi amillər deyil, həm də tarixi köklər birləşdirir. Azərbaycan və Gürcüstan münasibətlərinin daim yüksək səviyyədə olduğunu vurğulayan deputat deyib ki, dövlətlərarası əlaqələrimizin zəngin tarixi var: "İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri ötən illər ərzində dinamik inkişaf edib. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb. Prezident İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri də ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafının və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinin göstəricisidir. Səfər çərçivəsində ölkə rəhbərləri ikitərəfli münasibətlərin gündəliyində duran aktual məsələləri müzakirə ediblər. Prezident İlham Əliyev və Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin görüşündə Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilib. Eyni zamanda əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, "yaşıl enerji", nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Görüşdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu da vurğulanıb".

P.Kərimzadə səfər zamanı Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin təkbətək və geniştərkibli görüş keçirdiyini xatırladıb. Mətbuata bəyanat zamanı gürcü və Azərbaycan xalqlarının əsrlər boyu dostluq, qardaşlıq şəraitində yaşadıqlarını və hazırda bu ənənələrin davam etdirildiyini vurğulayan dövlətimizin başçısı Gürcüstan-Azərbaycan əlaqələrinin bundan sonra da inamla inkişaf edəcəyinə əminliyini ifadə edib. Prezident İlham Əliyev, həmçinin Cənubi Qafqazda tamamilə yeni vəziyyətin yaranmaqda olduğunu və regionun artıq sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrildiyini diqqətə çatdırıb.

Deputat qeyd edib ki, Azərbaycanın və Gürcüstanın tarixi İpək yolu üzərində yerləşməsi və ölkəmiz tərəfindən irimiqyaslı enerji və nəqliyyat layihələrinin icra edilməsi regionumuzdan keçən yük axınının həcmini dəfələrlə artırıb: "Ölkələrimiz arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivəsində irimiqyaslı enerji və nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edir. Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eyni zamanda Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rolu oynayır. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atıb. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Həm Azərbaycan nefti və qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Orta dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu ölkələrimiz üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir".

P.Kərimzadə Gürcüstanın Baş nazirinin də Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimizin daşımalarda mühüm rol oynadığını vurğuladığını xatırladıb. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq. "Bütövlükdə, qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri dinamik inkişaf edir. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb. Eyni zamanda xalqlarımız arasında mədəni və humanitar sahələrdə əlaqələrin davam etməsi də ümumi maraqlarımıza uyğundur. Bütün bunlar ölkə və xalqlarımız arasında əlaqələri davamlı olaraq gücləndirir", - deyə deputat deyib.

***Əsmər QABİLQIZI, "Azərbaycan"***

# Ermənistan taleyüklü seçim qarşısındadır

## Sülh yolu ölkəyə rifah, revanşistlərin mövqeyi isə Azərbaycanın "dəmir yumruğ"unu vəd edir

**Ermənistan daxilində parlament seçkiləri ərəfəsində kifayət qədər gərgin siyasi mühit formalaşıb. İqtidar və müxalif düşərgəsinin fəallığı maksimum həddə çatıb. Seçki kampaniyası siyasi rəqabət çərçivəsini aşaraq aşkar təhdid, təhqir və nifrət ilə müşayiət olunur. Tərəflərin təbliğat tezisləri arasında kəskin uçurum var. Baş nazir və komandasının məqsədi səsvermədə üstünlük qazanaraq mövqelərini möhkəmləndirməkdirsə, revanşist qruplar müxtəlif rıçaqlardan yararlanaraq mövcud gedişatı dəyişdirməyə, sülh prosesində əldə olunmuş nailiyyətlərə kölgə salmağa can atırlar.**



Baş nazir N.Paşinyan cəmiyyətə regional barışıq və əməkdaşlıq vəd etdiyi halda, müxalif cinah münaqişə ritorikasını canlandırmaq, köhnə ideyaları təşviq etmək və qonşu dövlətlərlə gərginliyi artırmaq hesabına elektorat toplamağa çalışır. Eyni zamanda Paşinyan və komandasının yenidən mandat qazanma şansı yüksək qiymətləndirilsə də, qarşı tərəfin maliyyə resursları, kənardan aldığı dəstək və müəyyən dərəcədə ictimai dayağı baş naziri narahat etməkdədir. Bu amillər 7 iyunda keçiriləcək parlament seçkilərinin nəticələri ilə bağlı dəqiq proqnoz verməyi çətinləşdirir. Görünən odur ki, Ermənistanda siyasi rəqabət daha aqressiv müstəviyə keçib və bu tendensiya seçki gününə qədər artan xətt üzrə davam edəcək.

Hazırda müxalif qüvvələrin məqsədi pərakəndə fəaliyyətdən çıxıb koalisiyalar ətrafında birləşməkdir. Eyni zamanda mövcud administrasiyaya qarşı ideoloji və hibrid xarakterli hücumların intensivliyi də artıb. Kampaniyaların məqsədi xalqın gözündə hakimiyyətin nüfuzunu aşağı salmaqdır. Seçki ərəfəsində Rusiya və Qərb arasında maraqların toqquşması da pik həddədir. Moskvanın niyyəti Paşinyanı devirmək və yerinə Kremlə sadiq qüvvələrin gətirilməsinə nail olmaqdır. Avropa isə hazırkı hökumətin stabilliyini qorumaqla Ermənistanı tədricən Rusiyanın təsir dairəsindən uzaqlaşdırmağa səy göstərir. Paşinyan Qərbin dəstəyi ilə Rusiyanın təsirindən uzaqlaşmaq istəsə də, ölkənin hərbi və iqtisadi asılılığı bu prosesi ağrılı edir. Ermənistanda hakimiyyət dəyişikliyi Cənubi Qafqazda mövqelərini qorumaq üçün Rusiyanın son şanslarından biridir. Qərb isə Paşinyanı "demokratiyanın qoruyucusu" kimi saxlayaraq Rusiyanın bölgədən sıxışdırılıb çıxarılmasını hədəfləyir. Beləliklə, ölkə faktiki olaraq iki böyük güc mərkəzinin nüfuz savaşı meydanına çevrilib ki, bu da dövlətçilik maraqları baxımından ciddi risklər vəd edir.

Seçki kampaniyasının diqqətçəkən məqamlarından biri N.Paşinyanın müharibə xəbərdarlığı etməsidir. Baş nazir çıxışı zamanı açıq şəkildə bəyan edib ki, əgər Robert Köçəryan və Rusiyayönümlü qüvvələr hakimiyyətə gələrsə, payızda dəhşətli müharibə başlaya bilər: "Ermənistanda müəyyən dairələr var ki, hakimiyyətə gələcəkləri təqdirdə sülh gündəliyinə yenidən baxmağı planlaşdırırlar. Bu qüvvələrin hamısı sülhün reviziyası mövqeyindən çıxış edir ki, bu da seçkilərdən qısa müddət sonra, ən gec isə payızda müharibənin labüd olacağı anlamına gəlir". Baş nazirin sözlərinə görə, bu cür bəyanatlar ölkə üçün ağır nəticələr doğura bilər: "Onlar başqaları tərəfindən yazılmış mətnləri səsləndirirlər". Parlament sədri Alen Simonyan da bənzər fikirlər səsləndirib. Spiker deyib ki, parlament seçkilərində ölkə əhalisi sülh və mümkün müharibə arasında seçim etməli olacaq: "Bəli, müharibə partiyası var və sülh partiyası var. 2026-cı il seçkiləri sülh və mümkün müharibə haqqında olacaq".

N.Paşinyan seçki kampaniyasını "sülh gətirən lider" obrazı üzərində qurur. Baş nazir rəqiblərini və onların seçki təbliğatını xalqa növbəti müharibə anonsunu verənlər kimi təqdim edir. Bəllidir ki, Ermənistan cəmiyyəti 44 günlük müharibənin travmasından və ağır məğlubiyyət sindromundan hələ xilas olmayıb. Bu mənada, yeni müharibə qorxusu hakimiyyətin əlində ən böyük təsir rıçağıdır. Paşinyan ictimaiyyətə sülh və regional əməkdaşlıq təklif edir, rəqibləri isə toplumu yeni fəlakətə və savaşa sürükləyir. Paşinyanın müxalifətə yönəlik "başqaları tərəfindən yazılmış mətnləri səsləndirirlər" ifadəsi birbaşa Rusiyaya və keçmiş "Qarabağ klanı"na işarədir. Baş nazir revanşistləri Ermənistanın yox, kənar güclərin maraqlarını güdən qüvvələr kimi göstərməyə çalışır. Bu, Ermənistanda getdikcə artan anti-Rusiya meyillərindən siyasi xal toplamaq cəhdidir. Hökumət başçısı aşkar xəbərdarlıq edir ki, əgər müxalifət seçkidə qalib olaraq hakimiyyətə gələcəyi təqdirdə Bakı ilə imzalanmış sənədləri və şifahi razılaşmaları inkar edərsə, bu, avtomatik olaraq status-kvonun pozulması və Azərbaycanın legitim cavab tədbirləri görməsi ilə nəticələnəcək. Yəni, müxalifətin populist vədləri reallıqda yeni itkilərə yol açacaq.

Paşinyanın çıxışı həm də daxili auditoriyaya hesablanmış xəbərdarlıq taktikası və beynəlxalq aləmə ünvanlanmış bir mesajdır. Baş nazir mesaj verir ki, onunla hətta çətin şərtlərdə olsa belə, sülh içində yaşamaq, müxalifətlə müharibə içində yox olmaqdan daha yaxşıdır.

Əslində, Paşinyan öz xəbərdarlıqlarında haqlıdır. 1990-cı illərin ritorikası ilə hərəkət edən revanşist qüvvələrin siyasi qələbəsi Ermənistan üçün yeni və daha dağıdıcı qarşıdurma vəd edir. Müxalifət unudur ki, regionda hərbi-siyasi balans köklü şəkildə dəyişib. Azərbaycanın hərbi qüdrəti, iqtisadi üstünlüyü və strateji müttəfiqlikləri qarşısında Ermənistanın hər hansı hərbi revanş cəhdi dövlətçilik üçün intihar ssenarisidir. Bakı dəfələrlə bəyan edib ki, sülh müqaviləsinin masada olmasına baxmayaraq, istənilən revanşist meyillər və təxribat cəhdləri dərhal və yerindəcə boğulacaq. Azərbaycanın "dəmir yumruq" amili bu prosesdə ən böyük çəkindirici faktor kimi Ermənistanın daxili siyasi gündəmini diktə etməyə davam edir.

Nəticə etibarilə, 7 iyun seçkiləri Ermənistan üçün dövlət kimi mövcudluq və ya yox olmaq arasındakı taleyüklü seçimdir. Cəmiyyət ya Paşinyanın təklif etdiyi realist sülh yolunu seçəcək, ya da revanşistlərin utopik vədləri arxasınca gedərək regional reallıqların və Azərbaycanın hərbi gücü qarşısında tam fəlakətə sürüklənəcək. Müəyyən kəsim Nikol Paşinyana dəstək versə də, əksəriyyət müxalifəti yeni və daha böyük məğlubiyyətin carçısı kimi qəbul edir. Onların fikrincə, revanşistlərin hakimiyyətə gəlməsi Ermənistan üçün fəlakətli sonun başlanğıcı deməkdir. İrəvanın bu sınaqdan hansı nəticə ilə çıxacağı erməni toplumunun acı tarixi təcrübədən nə dərəcədə dərs almasından asılı olacaq.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# BEYNƏLXALQ HƏYAT

# Dünya nəfəsini dərdi:

## *Vaşinqton və Tehran atəşkəsə razı oldu*

### İslamabad danışıqlarında tərəflər strateji şərtlərini bir-birinə qəbul etdirməyə çalışacaq

**ABŞ və İran həftələrlə davam edən hərbi qarşıdurmadan sonra ikihəftəlik müvəqqəti atəşkəs rejiminin tətbiqi barədə ortaq məxrəcə gəliblər. İsrail də İranla atəşkəsdə ABŞ-yə qoşulmağa razılıq verib. Nümayəndələr arasında danışıqlar aprelin 10-da Pakistanın paytaxtı İslamabadda aparılacaq. Atəşkəsin əldə olunmasının təşəbbüskarı Pakistandır.**

İslamabadın atəşkəs barədə təklifi ABŞ və İran tərəfindən müsbət qarşılanıb. Pakistanın Baş naziri Şahbaz Şərif İslamabad danışıqlarının uğurlu nəticələnəcəyinə ümidvar olduğunu bəyan edib. İranın Ali Rəhbəri Ayətullah Müctəba Xamenei Çinin gərgin diplomatiyası və son anda təzyiqindən sonra Pakistanın 2 həftəlik atəşkəs təklifini təsdiqləyib. Ölkənin xarici işlər naziri Abbas Əraqçi bildirib ki, iki həftə müddətində Hörmüz boğazından təhlükəsiz keçid mümkün olacaq. Lakin rəsmi Tehran danışıqların ABŞ-yə etimadsızlıq şəraitində aparılacağını vurğulayıb. İran parlamentinin sədr müavini Əli Nikzad deyib ki, ABŞ İranın 10 şərtini qəbul etməsə, ali rəhbər razılaşmanın imzalanmasına icazə verməyəcək. Məlumat üçün bildirək ki, Tehranın razılaşma üçün irəli sürdüyü maddələr arasında İrana və regionda dəstəklədiyi qüvvələrə qarşı hücumun tam dayandırılması, bütün sanksiyaların ləğvi, ölkəyə dəyən ziyanın kompensasiya edilməsi, uranın zənginləşdirilməsi hüququnun tanınması və digər tələblər var.



Xatırladaq ki, ABŞ və İsrail fevralın 28-də İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirib. Buna cavab olaraq İran İsrail ərazisinə raket atıb və Körfəz ölkələrindəki ABŞ-yə məxsus hərbi bazaları hədəf alıb. Vəziyyətlə əlaqədar olaraq regionun bəzi ölkələri hava məkanını müvəqqəti bağlayıb.

Dünya ölkələri və beynəlxalq təşkilatlar ABŞ-İran arasındakı atəşkəs razılaşmasını alqışlayıblar. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallas barış təşəbbüslərini yüksək qiymətləndirib və blokun prosesə dəstək verməyə hazır olduğunu bildirib. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da ABŞ və İran arasında elan edilmiş atəşkəs təqdir olunub: "Atəşkəsin əldə olunmasında vasitəçilik edən bütün tərəflərin səylərini yüksək qiymətləndiririk. Bu atəşkəsin regionda gərginliyin azaldılmasına, eləcə də davamlı sülh və sabitliyin bərqərar olmasına töhfə verəcəyinə ümidvarıq". Qeyd olunub ki, Azərbaycan hər zaman regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə hazırdır.

Maraqlısı odur ki, həm ABŞ, həm də İran atəşkəs razılaşmasını qarşı tərəf üzərində "qələbə" kimi təqdim edib. Ağ Ev rəhbəri Donald Tramp mübahisəli məsələlərin aradan qalxdığını, Hörmüz boğazının tam açılması müqabilində İrana dağıdıcı hücumları iki həftə müddətinə dayandırdığını deyib: "Bunu etməyimin səbəbi, artıq bütün hərbi məqsədlərə çatmağımız və onları aşmağımız, İranla uzunmüddətli sülh və Yaxın Şərqdə sülh haqqında qəti sazişin üzərində çox irəliləməyimizdir. İrandan 10 bəndlik təklif aldıq və bunun danışıqlar üçün işlək bir əsas olduğuna inanırıq".

Ağ Evin mətbuat katibi Kerolayn Livitt də atəşkəs anlaşmasını Prezident Donald Tramp və Amerika ordusunun qələbəsi adlandırıb: "Döyüşçülərimizin inanılmaz imkanları sayəsində biz 38 gün ərzində əsas hərbi məqsədlərimizə nail olduq və hətta onları aşdıq". Tramp adminstrasiyası atəşkəsi "zəiflik", "geri çəkilmə" yox, "qalibiyyət" kimi ictimaiyyətə təqdim edir. ABŞ Prezidentinin İranın yenidən qurulması ilə bağlı anonsları və Yaxın Şərq üçün "qızıl dövrün" başlayacağını vəd etməsi sülh sazişinin böyük iqtisadi paketlərlə, investisiyalarla müşayiət olunacağından xəbər verir. Bu, Trampın xarici siyasətinin mərkəzində duran iqtisadi sülh konsepsiyasına əsaslanır.

İranla birbaşa danışıqlarda ABŞ-nin vitse-prezidenti Cey Di Vensin, prezidentin xüsusi nümayəndəsi Stiv Uitkoffun və Donald Trampın kürəkəni Cared Kuşnerin iştirak edəcəyi deyilir. ABŞ-nin danışıqlara göndərəcəyi heyətdə təmsil olunacaq şəxslərin kimliyi Ağ Evin məsələyə nə qədər ciddi yanaşdığını göstərir. Vens, Uitkoff və Kuşner üçlüyü D.Trampın ən yaxın və sadiq adamlarıdır, bu da sazişin birbaşa Ağ Evin nəzarətində olacağının sübutudur. Xüsusən Trampın kürəkəni Kuşnerin iştirakı "İbrahim sazişləri" təcrübəsinin prosesə inteqrasiya olunacağını göstərir. Tramp İranı da İsrail və ərəb ölkələri arasında əldə olunan "İbrahim sazişləri" modelinə bənzər çərçivəyə daxil etmək istəyir.

Ümumiyyətlə, ABŞ və İran arasında atəşkəs razılaşmasının əldə olunması Yaxın Şərqdə pik həddə çatmış gərginliyin aradan qaldırılması yönündə önəmli dönüş nöqtəsi sayılır. Bölgə bir neçə gün öncə genişmiqyaslı və dağıdıcı müharibənin astanasında idi. Belə gərgin şəraitdə hərbi ritorikanın yerini atəşkəs müzakirələrinin alması kifayət qədər ümidverici hadisədir. Dialoq razılaşması və tərəflərin bir-birinə konkret bəndlərdən ibarət təkliflər verməsi danışıqların texniki detallara keçdiyini göstərir. İkihəftəlik atəşkəsin mühüm iqtisadi komponenti Hörmüz boğazının tam və təhlükəsiz fəaliyyətinin bərpasıdır. Dünya neft ticarətinin təxminən 20-30 faizinin keçdiyi strateji su yolu müharibə riski səbəbindən iflic vəziyyətinə düşüb. Boğazın açılması enerji daşımalarındakı bloklamanı aradan qaldıracaq və qlobal yanacaq qiymətlərini stabilləşdirəcək.

Yaxın Şərqdə cərəyan edən proseslərdə dost Pakistanın vasitəçilik missiyası kifayət qədər əhəmiyyətli hadisədir. Pakistanın nüvə dövləti olması, ABŞ və İranla eyni müstəvidə münasibət saxlaması İslamabadı danışıqlar üçün əlverişli siyasi platformaya çevirib və imkansız görünən razılığın əldə olunmasında həlledici rol oynayıb.

İran tərəfinin Çinin gərgin diplomatiyasını vurğulaması da təsadüfi deyil. Bu, Pekinin regiondakı enerji təhlükəsizliyini qorumaq üçün Tehrana ciddi təzyiq etməsindən xəbər verir. Çin dünyanın ən böyük neft idxalçısıdır və onun iqtisadi maşınının işləməsi birbaşa Fars körfəzindən gələn sabit xam neft axınından asılıdır. Bu mənada Yaxın Şərqdə ABŞ və İran arasında genişmiqyaslı müharibə Çin iqtisadiyyatı üçün fəlakət deməkdir.

Lakin İran danışıqlar masasına əlindəki ən mühüm təzyiq rıçağı ilə oturur. İranın atəşkəs şərti kimi Hörmüz boğazından təhlükəsiz keçid vəd etməsi qarşı tərəfə ən böyük təhdidini xatırlatmasıdır. Tehran mesaj verir ki, əgər danışıqlar uğursuz olarsa, qlobal iqtisadiyyatı boğa bilər. Dünya ölkələri də onun fərqindədir ki, boğazın bağlanması qlobal neft qiymətlərinin rekord həddə çatması və dünya birjalarının çökməsi deməkdir. Digər tərəfdən, Hörmüz boğazı ABŞ-ni masada saxlamaq üçün İranın istifadə etdiyi yeganə real hərbi-strateji imkandır.

İsrailin atəşkəsə "hə" deməsi də kritik məqamlardan biridir. ABŞ-nin İsrail üzərindəki təsir imkanları bəllidir. Görünür, Təl-Əviv Vaşinqtondan İranın nüvə-raket proqramı ilə bağlı müəyyən pərdəarxası zəmanətlər alıb. İsrailin İranla bir masa arxasına oturmasının yeganə şərti Tehranın nüvə ambisiyalarının dondurulmasıdır. Eyni zamanda İranın uzaqmənzilli ballistik raket proqramı və İsrailin təhlükəsizliyinə təhdid yaradan texnologiyaların inkişafının qarşısının alınması da masanın müzakirə mövzusudur. Baş nazir Benyamin Netanyahunun ofisindən yayılan bəyanatlar göstərir ki, İsrail atəşkəsi yalnız İrana hücumlara şamil edir. Təl-Əviv Livanın cənubunda terrorçu qruplaşmalara qarşı əməliyyatlarını davam etdirmək hüququnu özündə saxlayır. Bu, atəşkəsin kövrək olduğuna dəlalət edir, çünki Tehranın öz proksilərinin vurulmasına səssiz qalıb-qalmayacağı sual altındadır. Əgər İran iki həftə ərzində nüvə və raket məsələsində real geri çəkilmə nümayiş etdirməsə, İsrailin atəşkəs rejimindən çıxması və regionun yenidən alova bürünməsi qaçılmaz olacaq.

İran tərəfinin vurğuladığı kimi, danışıqların ABŞ-yə etimadsızlıq şəraitində aparılması da atəşkəsin pozulmasına, hücumların yenidən başlanmasına yol aça bilər. Görünən odur ki, aprelin 24-dək tərəflər arasında çətin diplomatik şahmat oynanılacaq. Bu oyunda hər gediş regionun gələcək onilliklərini müəyyən edəcək. Əgər tərəflər qısa müddətdə 10-15 bəndlik təklifləri yekun sənəd halına gətirsələr, Yaxın Şərqdə müharibənin iqtisadi maraqlarla əvəzləndiyi "qızıl dövr" başlana bilər. Əks halda, indiki atəşkəs daha böyük fırtınadan əvvəlki səssizlik olacaq.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Atəşkəs razılaşması davamlı sülhə transformasiya olunmalıdır



**ABŞ və İran arasında atəşkəs barədə razılığın əldə olunması müsbət haldır və bu, yalnız iki ölkə arasında gərginliyin azalması deyil, daha geniş regional və qlobal təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir. Son dövrlərdə davam edən qarşılıqlı hücumlar Yaxın Şərqdə vəziyyəti kəskin şəkildə gərginləşdirərək regionu genişmiqyaslı qarşıdurma riskinə yaxınlaşdırmışdı. Belə bir ssenarinin reallaşması isə təkcə region ölkələri üçün deyil, bütövlükdə beynəlxalq təhlükəsizlik və iqtisadi sabitlik üçün ciddi təhdidlər yarada bilərdi.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, münaqişənin dərinləşməsi yalnız hərbi müstəvidə deyil, həm də enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları və beynəlxalq ticarət baxımından zəncirvari təsirlərə səbəb ola bilərdi. Xüsusilə Fars körfəzi regionunda sabitliyin pozulması qlobal enerji bazarlarında qeyri-müəyyənliyi artırmaqla yanaşı, strateji kommunikasiya xətlərinin təhlükəsizliyini də sual altına qoyurdu. Bu baxımdan atəşkəsin əldə olunması daha genişmiqyaslı böhranın qarşısının alınması istiqamətində vacib addım kimi qiymətləndirilməlidir. "Diqqətəlayiq məqamlardan biri də ondan ibarətdir ki, münaqişənin gərgin mərhələsində bir sıra dövlətlər və beynəlxalq aktorlar vasitəçilik təşəbbüsləri ilə çıxış edərək vəziyyətin eskalasiyasının qarşısını almağa çalışdılar. Pakistan, Türkiyə, Misir və Səudiyyə Ərəbistanı kimi ölkələrin diplomatik səyləri, eləcə də Çin və Pakistan tərəfindən irəli sürülən təşəbbüslər göstərdi ki, regional problemlərin həllində çoxtərəfli diplomatiya və koordinasiya olunmuş yanaşma həlledici rol oynayır. Bu təşəbbüslərin nəticə verməsi beynəlxalq münasibətlər sistemində dialoq və qarşılıqlı anlaşmanın hələ də effektiv alət olaraq qaldığını bir daha təsdiqlədi", - deyə deputat qeyd edib.

Sevinc Fətəliyevanın sözlərinə görə, əldə olunmuş atəşkəsin uzunmüddətli sülhə çevrilməsindən hələ danışmaq tezdir. Mövcud ziddiyyətlərin dərinliyi nəzərə alınarsa, davamlı sabitliyin təmin olunması üçün tərəflər arasında etimadın bərpası, institusional dialoqun qurulması və beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması vacib şərtlər kimi çıxış edir. Əks halda, atəşkəs yalnız müvəqqəti fasilə rolunu oynayar, gərginlik yenidən alovlana bilər.

Azərbaycanın mövqeyinin bu kontekstdə ardıcıl və prinsipial olaraq qaldığını deyən S.Fətəliyeva vurğulayıb ki, ölkəmiz həm regionumuzda, həm də daha geniş coğrafiyada sülhün, sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsinin tərəfdarıdır: "Rəsmi Bakı ABŞ və İran arasında əldə olunmuş atəşkəsi alqışlayaraq, tərəflər arasında mövcud problemlərin həlli istiqamətində konstruktiv və nəticəyönümlü dialoqun tərəfdarıdır. Azərbaycanın xarici siyasətində balanslı yanaşma, qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanan münasibətlər sistemi prioritet təşkil edir. Bugünkü mürəkkəb geosiyasi şəraitdə bu cür yanaşma əhəmiyyətlidir. Çünki müasir dövrdə təhlükəsizlik anlayışı yalnız hərbi komponentlə məhdudlaşmır, eyni zamanda iqtisadi sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat əlaqələrinin fasiləsiz fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan da məhz bu prinsiplər əsasında regional əməkdaşlıq təşəbbüslərini dəstəkləyir və qarşıdurma deyil, əməkdaşlıq modelinin təşviqinə üstünlük verir".

Deputat sonda qeyd edib ki, ABŞ və İran arasında atəşkəsin əldə olunması müsbət tendensiya olmaqla yanaşı, daha geniş proseslərin başlanğıcı kimi də qiymətləndirilə bilər. Bu mərhələdə əsas məsələ əldə olunmuş razılaşmanın davamlı sülhə transformasiyası və regionda yeni qarşıdurma risklərinin minimuma endirilməsidir. Bu isə yalnız dialoq, qarşılıqlı etimad və beynəlxalq hüququn aliliyinə əsaslanan yanaşma ilə mümkün ola bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Artemis - 2" heyəti uzaq və sürətli səfərdən sonra Yerə qayıdır

**ABŞ Milli Aeronavtika və Kosmik Administrasiyası (NASA) bildirib ki, "Artemis - 2" pilotlu missiyasının heyəti Yerə qayıdır. Bəyanatda deyilir: "Aprelin 6-da Şərq vaxtı ilə saat 21:35-də (CEST vaxtı ilə səhər 3:35 - red.) "Artemis - 2" heyəti Ay müşahidə dövrünü başa vurub və evə qayıtmağa başlayıb".**

Həmin günün əvvəlində - aprelin 6-da "Orion" kosmik gəmisi Ayın cazibə qüvvəsinin Yer kürəsindən daha güclü təsir göstərdiyi zonaya daxil olub. NASA qeyd edib ki, həmin vaxt kosmik gəmi planetimizin peykinin səthindən təxminən 63.000, Yerdən isə təxminən 232.000 km məsafədə idi.

Astronavt Kristina Kox həmçinin NASA-nın yayımında "Artemis - 2" heyətinin Ayın ətrafından uçuşu uğurla başa vurduğunu və indiyə qədər ən uzunmüddətli pilotlu kosmos uçuşu rekordunu qırdığını açıqlayıb. Bundan əvvəl astronavtlar Yerdən 407.000 km məsafə qət etmişdilər ki, bu da 1970-ci ildə "Apollon - 13" missiyası zamanı baş vermişdi. NASA-nın X mikrobloqunda bildirdiyi kimi, bu, 56 il öncə "Apollo - 13" missiyası zamanı müəyyən edilmiş əvvəlki rekordu 4102 mil (təxminən 6500 km) üstələyir.

Yer kürəsinin peyki planetimizdən təxminən 400.000 kilometr məsafədə yerləşir. Aya əvvəlki eniş 54 il öncə - 7 dekabr 1972-ci ildə "Apollo - 17" kosmik gəmisində baş tutmuşdu.

"Orion" kosmik gəmisi aprelin 1-də ABŞ-nin Şərq sahillərindən kosmosa buraxılmışdı. Gəmidə NASA astronavtları Rid Vaysman, Viktor Qlover, Kristina Kox, eləcə də Kanada Kosmik Agentliyinin astronavtı Ceremi Hansen yer almışlar. Ekipajın planetimizin təbii peykinin ətrafında fırlanıb 10 gün müddətində Yerə qayıtması planlaşdırılırdı. Missiya iştirakçıları 6 günə qədər avtonom nəfəsalma qabiliyyətinə malik yeni skafandrları sınaqdan keçirmişlər.





"Apollon" proqramı, 1961-ci ildə ilk insanlı Aya eniş etmək məqsədilə qurulan və 1975-ci ildə başa çatdırılan ABŞ kosmik agentliyi NASA-nın pilotlu kosmik uçuş proqramı idi. Proqramın məqsədi ABŞ Prezidenti Con F.Kennedi tərəfindən 12 sentyabr 1962-ci il tarixli çıxışında formalaşdırılmış və 20 iyul 1969-cu ildə Neyl Armstronq və Edvin Oldrinin Aya enişini həyata keçirən "Apollon - 11" missiyası ilə əldə edilmişdir. "Apollon" proqramı 6 uğurlu Aya enişlə nəticələnmişdir. Bu 6 "Apollon" uçuşu hazırda tarixdə başqa bir astronomik obyektə insan enişini həyata keçirən yeganə uçuşlardır.

"Apollon" proqramı NASA tərəfindən qurulan üçüncü pilotlu kosmik uçuş proqramı idi. Bu proqram "Apollon" kosmik gəmisindən və "Saturn" seriyalı buraxılış vasitələrindən istifadə etmiş, daha sonra "Skylab" proqramı və Sovet-Amerika "Soyuz - Apollon" proqramı üçün istifadə olunmuşdur.

Keçmişə nəzər salsaq görərik ki, ötən əsrin 60-cı illərində layihənin icrası zamanı əldə edilən bir çox uğurlarla yanaşı, 2 böyük uğursuzluq da yaşanmışdır. Birincisi, "Apollon-1"in uçuş sınaqları zamanı 3 astronavtın (Vircil Qrissom, Edvard Higgins Vayt və Rocer Çaffi) ölümü, ikincisi isə, "Apollon - 13"ün kosmosda partlaması idi. Həmin fəlakət layihə mühəndislərinin, uçuş nəzarətçilərinin və ekipaj üzvlərinin səyləri sayəsində astronavtlara heç bir zərər dəymədən sovuşdurulmuşdur.

İlk əhəmiyyətli addım 21 dekabr 1968-ci ildə göndərilən "Apollon-8"in Ayın orbitinə yerləşdirilməsi və Ay ətrafında 10 dəfə fırlanması ilə atılıb. Həmin kosmik gəmi bir həftədən sonra Yerə qayıdaraq Sakit okeana enib. 1969-cu il martın 3-də "Apollon-9" vasitəsilə Aya enmə zamanı istifadə ediləcək modul sınaqdan keçirilib. "Apollon"un əsas gövdəsindən kiçik bir tunellə Ay moduluna keçilərək ilk dəfə kosmik gəminin xaricinə çıxmadan bir kosmik vasitədən digərinə keçid edilib.






"Apollon" layihəsinin ən böyük uğurlarını "Apollon-11" reallaşdırıb. 16 iyul 1969-cu il tarixində Kanaveral kosmodromundan qalxan "Apollon - 11"in içindəki astronavtlardan Neyl Armstronq və Edvin Oldrin iyulun 20-də Eagle adlı Ay moduluna keçiblər və iyulun 21-də səhərin erkən saatlarında Aya ayaq basıblar. Ekipajın üçüncü üzvü Maykl Kollins Ay orbitində dövr edən idarəetmə modulunda qalıb. Ayın səthinə ilk addım atan Neyl Armstronq həmin an demişdi: "Bu, insan üçün kiçik bir addım, bəşəriyyət üçün böyük bir sıçrayışdır".

14 noyabr 1969-cu ildə göndərilən "Apollon-12" sayəsində Aya ikinci dəfə insan endirmək mümkün olub. "Apollon-17" isə 1972-ci ilin dekabrında layihə çərçivəsində həyata keçirilən son Ay səfərini realləşdırıb.

"Apollon" proqramının dayandırılması müxtəlif səbəblərdən və müxtəlif zaman kəsiyində meydana gəlmişdi. İlk dəfə olaraq Apollon missiyaları 1960-cı illərin əvvəlində "Apollon - 1" gəmisində baş vermiş və heyətin tələfatı ilə nəticələnmiş qəzanın baş verməsinə görə dayandırılmalı idi. Ancaq daha sonra NASA-nın "Apollon" missiyalarının uğurla həyata keçirməyə başlaması və 20 iyul 1969-cu il tarixində "Apollon - 11" missiyasının Aya uğurla enməsi nəticəsində bundan imtina edilib.

"Apollon -11" missiyasından sonra Aya daha 9 missiya planlaşdırılmışdı. Amma 1972-ci ildə "Apollon - 17"nin Aya son uçuşu oldu və müəyyən səbəblərdən "Apollon - 18, 19 və 20" missiyaları təxirə salındı. Aya uçuş missiyalarının təxirə salınması səbəblərinin biri Amerika Birləşmiş Ştatlarının yeni "Skylab" kosmik stansiya proqramını həyata keçirməsi oldu. Bu proqramın mahiyyəti SSRİ ilə birlikdə kosmik stansiyaların yaradılmasına başlamaq idi. Bundan əlavə, ABŞ Prezidenti Riçard Nikson daha Ayın heç bir maraq kəsb etmədiyini və onun tam öyrənildiyini bəyan etmişdi. Bu da "Apollon" missiyalarının dayandırılmasında öz sözünü demişdi.

ABŞ hökuməti "Apollon" missiyasının fəaliyyəti üçün, 1969-cu il mənbələrinə görə 25,4 milyard, 2007-ci il mənbələrinə görə 145 milyard dollar vəsait sərf edib. Bəzi qeyri-rəsmi mənbələrə görə isə, ABŞ Vyetnam müharibəsinə çəkilən xərcləri tənzimləmək üçün "Apollon" missiyasını və onu maliyyələşdirməyi dayandırmışdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR

## Uşaq evi sakininin builki ad günü yaddaqalan oldu

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Milli Məclisin deputati Pərvin Kərimzadə Sosial Xidmətlər Agentliyinin Gəncədəki 4 saylı Uşaq evi sosial xidmətlər müəssisəsində yaşayan Şəlalə Həsənlinin ad günündə iştirak etmişlər.**



Şəhər rəhbəri və millət vəkili Şəlalə Həsənlini ad günü münasibətilə təbrik etmiş, ona hədiyyələr vermişlər. Uşaq evinin direktoru Nazilə İsmayılova göstərilən diqqət və qayğıya görə qonaqlara təşəkkürünü bildirmişdir.

Qeyd edək ki, Şəlalə Həsənli ictimai tədbirlərdə fəal iştirak edir. O, keçən il Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə keçirilən "Konstitusiya və suverenlik uşaqların gözü ilə" mövzusunda ənənəvi uşaq rəsm müsabiqəsində III yerə layiq görülmüşdür.

***S.ƏLİYEV, "Azərbaycan"***

## "Ümid" qəsəbəsinin ağdamlı sakinləri səyyar görüşdən ümidlə ayrıldılar

**Əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi məqsədilə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun Bakının "Ümid" qəsəbəsində səyyar qəbul-görüşü keçirilib. Səyyar görüşdə əhalini narahat edən problemlərin həlli üçün həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb.**



Çıxış edən V.Həsənov Prezident İlham Əliyevin verdiyi tapşırıqların həyata keçirilməsi, əhalinin problemlərinin öyrənilməsi və operativ həlli üçün keçirilən bu cür görüşlərin əhəmiyyətini qeyd edərək belə səyyar görüşlərin davamlı olacağını bildirib. RİH-in başçısı Prezident İlham Əliyev tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəlmiş son qərarlardan danışaraq bütün bunların vətəndaşlara olan dövlət qayğısının göstəricisi olduğunu vurğulayıb. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamının icrası ilə əlaqədar məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün təbliğat-izahat və təşviqat işlərinin aparılması ilə bağlı məlumat verib.

Vaqif Həsənov qəbula gələn vətəndaşların qaldırdıqları məsələlərin bir hissəsini yerində həll edib, digər vacib məsələlərin prosesini nəzarətə götürüb. Görüşün sonunda qəbulda iştirak edən sakinlər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***L.QULİYEV, "Azərbaycan"***

## Tərtərdə 430-dan çox fermer pambıqçılıqla məşğuldur

### Onlar bu sahədən əldə etdikləri qazancdan razıdırlar

**Vaxtilə Tərtərdə pambıqçılıq kənd təsərrüfatının aparıcı sahələrindən biri olub. Kənd adamları bu sahədən əldə edilən gəlir hesabına ailə büdcələrini möhkəmləndirir, güzəranlarını yaxşılaşdırırdılar.**



Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə Tərtərdə bu qiymətli bitkinin əkib-becərilməsi ilə məşğul olan insanların zəhmətini yüksək qiymətləndirmişdir. Respublika rəhbərinin rayona səfərləri zamanı tarlalarda pambıqçılarla görüşür, onların problemləri, arzuları ilə maraqlanırdı. Prezident İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları ilə bağlı keçirilən müşavirələrin birində dövlət başçısı demişdir: "1969-cu ildə Heydər Əliyev birinci dəfə katib seçiləndə Azərbaycanda 200 min hektarda pambıq əkilmişdir və 300 min tona yaxın məhsul götürülmüşdür, yəni məhsuldarlıq orta hesabla 15 sentner səviyyəsində idi. Ancaq 1980-ci illərin əvvəllərində həm məhsuldarlıq artmışdır, 30 sentnerə yaxınlaşmışdır, hətta bir neçə ildə 30 sentnerdən də üstün idi və pambıq tədarükü sabit surətdə təqribən 800 min ton səviyyəsində olmuşdur. 1981-ci ildə isə bu rəqəm 1 milyon tona qalxmışdır".

Lakin müstəqilliyin ilk illərində bu qiymətli bitkinin istehsalı ildən-ilə azalmış, 1991-ci ildə 500 min, 1993-cü ildə 280 min tona düşmüşdür. Bu baxımdan, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü çox böyük işlərdən biri də məhz pambıqçılığın inkişaf etdirilməsi oldu. Bununla bağlı 2017-2020-ci illəri əhatə edən dövlət proqramı qəbul edildi. Dövlət proqramı sayəsində pambıqçılığın dirçəldilməsində uğurlar qazanıldı və yüksək nəticə əldə edildi. Belə nailiyyətlər əldə edən rayonlardan biri də Tərtər oldu. Təsadüfi deyil ki, dövlət başçısı pambıqçılığa dair keçirdiyi müşavirədə tərtərlilərin təcrübəsini yaymağı tövsiyə etmişdir.

Tərtər pambıqçıları ildən-ilə qabaqcıllığı əldə saxlayır və uğurlarını artırırlar. Burada dövlətin fermerlərə dəstəyi, müasir texnikanın sayının artması ilə yanaşı, həm də Zəfərdən sonra Sərsəng su anbarının da "əsirlik"dən azad edilməsi müstəsna əhəmiyyət kəsb edir. 44 günlük Vətən müharibəsindən sonra Suqovuşan və Sərsəng su anbarlarından rayonun tarlalarına gələn su torpaqların bərəkətini artırıb.

İndi tərtərli pambıqçılar yaz-tarla işləri ilə məşğuldurlar. Ötən il onlar 2796,7 hektardan 10,5 min tondan çox məhsul götürərək məhsuldarlığı 37,65 sentnerə çatdırmışlar. Rayon ərazisində 2026-cı il üçün 3 şirkət tərəfindən fermerlərlə müqavilələr bağlanmışdır. "Prime Cotton" MMC tərəfindən 276 istehsalçı ilə 1025,57, "Azərpambıq ASK" MMC tərəfindən 158 istehsalçı ilə 800, "Elakoton" MMC tərəfindən 2 istehsalçı ilə 316 hektar ərazi üçün müqavilələr bağlanaraq əkin aparılmışdır. Ümumilikdə cari il rayon ərazisində 436 istehsalçı 2141,57 hektar sahədə çiyid səpəcək.

Tərtərdə məhsuldarlığa görə rayon səviyyəsindən yüksək göstəricilər əldə edən fermerlər çoxdur. Onlardan İlham Ağayev 6,5 hektarın hər hektarından 58, Qamədin Əliyev 9 hektarın hər hektarından 47, Gülbəyaz Tanrıverdiyeva hektardan 50, Elnur Xıdırov isə 43 sentner məhsul əldə etmişlər.

Bəs hazırda çiyid səpiləcək sahələrin vəziyyəti necədir? Bu suala Qazyan kəndinin sakini Qaməddin Əliyev cavab verdi:

- Cari mövsümdə 11,5 hektar sahədə pambıq əkib-becərəcəm. Səpinə qədər tələb olunan aqrotexniki tədbirlərin hamısını yüksək keyfiyyətlə görmüşük. Lakin bu mövsümün özəllikləri var - aprel ayının əvvəllərindən yağan aramsız yağışlar nəticəsində sahələrdə xeyli alaq otları bitib. Bu vəziyyətdə səpin aparılsa, çiyid çətin cücərəcək. Ona görə də yağışlar imkan verən kimi, alağa görə dərmanlama aparıb mala çəkəcəyik.

Fermerdən pambıq becərilməsinin onun ailə büdcəsinə nə qədər xeyir verdiyini də soruşduq. Söylədi ki, şirkətin xərcləri çıxılandan sonra ötən il subsidiya ilə birlikdə 20 min manata yaxın pul alıb.

Elnur Xıdırov isə müqavilə bağladığı şirkətlə əlaqədən danışdı. Bildirdi ki, artıq ilk günlərdən başlayaraq, bütün işlər həmin şirkətin nəzarəti və köməyi ilə həyata keçirilir. Fermerlər texnika, gübrələrlə təmin olunurlar, mütəxəssislər vaxtaşırı pambıq tarlalarına gəlib məsləhətlərini verirlər. Yəni bütün bu proseslər, əvvəlki dövrdə olduğu kimi, kortəbii aparılmır, ona görə də nəticələr də yaxşıdır.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədovla da görüşdük. Bildirdi ki, hazırda Tərtərdə pambıqçılıq diqqətdə saxlanılır: "Pambıqçılıq hesabına rayonda xeyli insanın məşğulluğu təmin edilir. Bu isə işsizlik probleminin həllinə kömək edir, insanların maddi vəziyyətini yaxşılaşdırır".

Tərtərdə taxılçılıq da inkişaf edən sahələrdəndir. 2026-cı il üçün 2025-ci ilin payızında 4217,9 hektara arpa, 2997,4 hektara buğda əkilib. Hazırda taxıl zəmilərində alaq otlarına və zərərvericilərə qarşı dərmanlanma işləri aparılır.

Rayonda günəbaxan səpininə də başlanılıb. Arpa biçinindən sonra isə təkrar əkin olaraq darı, sorqo və digər bitkilərin əkini nəzərdə tutulur. Qeyd edək ki, təkrar əkin artıq rayonda geniş yayılıb və yaxşı səmərə verir. Belə ki, eyni sahədən bir ildə iki dəfə məhsul götürmək torpaq sahələri üçün çox faydalıdır.

Bu gün Tərtər başdan-başa yamyaşıl rəngə boyanıb. Bu, həm göz oxşayır, həm də gələcək ruzi-bərəkətdən xəbər verir. Bol ruzi-bərəkət isə tərtərlilərin ürəyinin təpərinə, zəhmətsevərliyinə, vətənpərvərliyinə ana təbiətin mükafatıdır.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Sumqayıtda Göz Mərkəzi açılıb

**Sumqayıt Tibb Mərkəzinin tabeliyində fəaliyyət göstərən 2 nömrəli şəhər xəstəxanasında yaradılmış yeni Göz Mərkəzinin açılışı olub.**



Açılış mərasimində TƏBİB-in icraçı direktoru vəzifəsini müvəqqəti icra edən Anar İsrafilov, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Sumqayıt Tibb Mərkəzinin direktoru Elnur Azadxanov, 2 saylı Sumqayıt şəhər xəstəxanasının baş həkimi Arzu Bəndəliyeva və Göz Mərkəzinin rəhbəri Leyla Qəhrəmanova iştirak ediblər. Mərkəzdə yaradılmış şərait barədə məlumat verən Elnur Azadxanov bildirib ki, yeni mərkəz Sumqayıt şəhəri ilə yanaşı, Abşeron - Xızı regionu üzrə əhaliyə geniş spektrdə oftalmoloji xidmətlər göstərəcək. Qeyd olunub ki, mərkəz dünyanın aparıcı istehsalçılarının müasir tibbi avadanlıqları ilə, o cümlədən OCT Angio, optik biometriya sistemləri və yüksək dəqiqlikli diaqnostika avadanlıqları ilə təchiz edilib. Mərkəzdə quraşdırılan angioqrafiya sistemi retina damar patologiyalarının erkən aşkarlanması və dəqiq qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bir çox hallarda görmənin qorunmasında həlledici rol oynayır. Mərkəzdə həmçinin yüksək dəqiqlikli fakoemulsifikasiya cərrahiyyə sistemləri və müasir əməliyyat mikroskopları quraşdırılıb. Burada oftalmoloji xəstəliklərin müasir standartlara uyğun diaqnostikası, müalicəsi və yüksək texnologiya tələb edən mürəkkəb cərrahi prosedurların icrası mümkün olacaq.

Mərkəzdə tor qişa xəstəlikləri, katarakta, qlaukoma, diabetik retinopatiya, makula patologiyaları və refraktiv qüsurlar üzrə geniş çeşiddə xidmətlərin göstərilməsi nəzərdə tutulur. O da bildirilib ki, mərkəzdə xaricdə təhsil almış və beynəlxalq təcrübəyə malik peşəkar həkimlər fəaliyyət göstərəcək. Burada 12-si həkim olmaqla, ümumilikdə 35 nəfər tibb və qeyri-tibb işçisi vətəndaşlara müasir tibbi yanaşmalar əsasında ambulator və stasionar xidmətlər göstərəcək. Mərkəzdə göstəriləcək tibbi xidmətlər icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində vətəndaşlara ödənişsiz əsaslarla təqdim olunacaq.

Yeni mərkəzin istifadəyə verilməsi regionda oftalmoloji xidmətlərin əlçatanlığını əhəmiyyətli dərəcədə artırmaqla yanaşı, vətəndaşların paytaxta üz tutmadan yüksəkkeyfiyyətli və mürəkkəb tibbi xidmətlərdən yararlanmasına geniş imkanlar yaradacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Şəmkir: rayon iqtisadiyyatına qoyulan investisiya davamlı inkişafa təkan verir

**Məlumdur ki, iqtisadiyyatın davamlı və balanslı inkişafının əsas şərtlərindən biri investisiyaların cəlb edilməsidir. Bu baxımdam, son illər həyata keçirilən müxtəlif stimullaşdırıcı tədbirlər Şəmkir rayonunda da investisiya cəlbediciliyini artırmışdır.**

Rayonda investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində süni maneələrin aradan qaldırılması, investorların dəstəklənməsi istiqamətində sistemli və ardıcıl işlər görülür. Şəmkirin coğrafi mövqeyi, Bakı-Qazax magistral yolunun üstündə yerləşməsi səbəbindən əlverişli logistika imkanlarının mövcudluğu daxili və xarici bazarlara çıxış üçün əlverişli imkan yaratmışdır. Bunların nəticəsində rayon iqtisadiyyatına qoyulan investisiyaların həcmində müsbət dinamika müşahidə olunur. Təkcə son üç il ərzində rayon üzrə ümumilikdə 87,5 milyon manat dəyəri olan investisiya layihələri icra edilmişdir. Cəlb edilmiş investisiyalar əsasən kənd təsərrüfatı məhsullarının istehsalı və satışı, istixanaların və meyvə bağlarının salınması, müxtəlif ticarət və xidmət sahələrini əhatə edir. İnvestisiya layihələrinin icrası nəticəsində rayonda 1884 yeni iş yeri açılmışdır. Nəticədə rayonun makroiqtisadi göstəricilərində əhəmiyyətli artım qeydə alınmışdır. Belə ki, 2023-2025-ci illərdə Şəmkir kənd təsərrüfatı məhsullarının həcminə görə respublikada 1-ci, ümumi məhsul buraxılışının həcminə görə isə 6-cı olmuşdur.

Rayonun geniş iqtisadi potensialının reallaşdırılması istiqamətində nəzərdə tutulmuş ən mühüm layihələrdən biri də 2025-ci ilin sentyabr ayında keçirilmiş I Azərbaycan Beynəlxalq İqtisadi Forumunda illik istehsal gücü 2 milyon ton, investisiya dəyəri 1,2 milyard manat olan dəmir istehsalı zavodunun inşası layihəsidir. Zavod istismara verildikdən sonra tək ölkənin ümumdaxili məhsuluna verəcəyi ilkin dəyərin 1,17 milyard manat olacağı proqnozlaşdırılır. Bununla yanaşı, Prezidentin 2026-cı il 15 yanvar tarixli fərmanı ilə Gəncə şəhəri və Şəmkir rayonunun ərazisində Qərb Sənaye Parkının yaradılması qərara alınmışdır ki, bu da rayona investisiya qoyuluşunun artırılmasında, iqtisadiyyatın inkişafında və məşğulluq problemlərinin həllində mühüm rol oynayacaq.




***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Goranboyda kütləvi səpin başa çatıb

**Goranboyun təsərrüfat sahibləri kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün bu il də bütün qüvvələri səfərbərliyə almışlar. Artıq istehsal olunacaq məhsulların səpini başa çatmışdır.**

İndiyədək 20722 hektar sahədə dən və yaşıl yem üçün müxtəlif yem bitkiləri səpilmişdir. Səpin aparılmış sahələrin 95,9 faizi və yaxud 19869 hektarı dən üçün payızlıq bitkilərdir ki, onun da 5787,5 hektarı buğda, 14081,5 hektarı arpadır.

Qeyd edək ki, rayonda səpin işləri ötən illə müqayisədə 6,5 faiz çox olmuşdur. Belə ki, cari mövsüm 682,4 hektarda dənli və dənli paxlalı bitkilər, 680,3 hektarda tərəvəz, 110,5 hektarda kartof, 9,1 hektarda bostan bitkiləri, 900,2 hektarda dən üçün günəbaxan, 584,1 hektarda çoxillik ot əkilmişdir. Hazırda səpilmiş əkin sahələrinə yemləmə gübrəsinin verilməsinə başlanılmışdır.

***"Azərbaycan"***

## Ağstafalı fermerlərin yaz qayğıları başdan aşır

**Ağstafada da yaz-tarla işlərinin qızğın çağıdır. Fermerlər əkin sahələrində əkin-səpin aparır, torpağa lazımi aqrotexniki qulluq göstərirlər.**

Qeyd edək ki, 2025-2026-cı il üçün rayon fermerləri 8187,2 hektarda taxıl səpini aparmışlar. Bunun 4812,3 hektarı buğda, 3374,9 hektarı arpadır. Səpinə 90-a yaxın texnika cəlb edilmişdir. Təsərrüfat sahibləri cari il əkin sahələrini 217 hektar artırmışlar. Səpindən sonra 5660 hektarda suvarma aparılmışdır. Hazırda 129 hektar sahədə 2-ci vegetasiya suvarması aparılır. Sahələrdən bol məhsul götürmək üçün fermerlər yaz aylarında 2850 hektar sahədə yemləmə gübrəsi ilə yanaşı, 1750 hektarda alaq otlarına qarşı kimyəvi mübarizə də aparmışlar.

Həmişə olduğu kimi, bu il də rayonun ən çox taxıl əkən kəndləri Göycəli, Köçəsgər, Eynallı, Dağ Kəsəmən və Qıraq Kəsəməndir.

Fermerlər yazlıq əkinlərini də davam etdirirlər. Qısa vaxt ərzində 280 hektarda kartof, 150 hektarda günəbaxan əkilmişdir. Artıq digər yazlıq əkinlərin səpininə də başlanılmışdır.



Ağstafada meyvəçilik də inkişaf edir. Hazırda rayon üzrə 1619,3 hektar meyvə bağı mövcuddur. Bağlara üzvi və mineral gübrələr verildikdən sonra ağacların dibinin yumşaldılması işlərinə başlanılmışdır. Söz düşmüşkən qeyd edək ki, rayon sakinləri arasında intensiv bağların salınmasına maraq çoxdur. Keçən il Kolxəlifəli kəndində Səxavət Binnətov 55 hektarda meyvə, Aşagı Göyçəli kəndində Nazim Əhmədov 6 hektarda və Zəlimxan kəndində Elfaq Mamayev 1,49 hektar sahədə yeni fındıq bağları salmışlar. Hazırda bağbanlar xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri ilə məşğuldurlar.

Rayonda 508 hektara yaxın üzüm bağı da salınıb. Üzümçülük gəlirli sahə olduğu üçün fermerlər arasında bu sahəyə maraq getdikcə artır. Ötən il hər hektar üzüm bağından fermerlər orta hesabla 153 sentner məhsul əldə etmişlər. Poylu kəndindən Səməndər Vəliyev, Qurban Aslanov və Kolxəlifəli kəndindən Yuləti Kərimov bu il də plantasiyalardan bol məhsul götürmək əzmindədirlər.

***S.YUNİSOĞLU, "Azərbaycan"***

# Milli-mənəvi dəyərlərin dəyərsizləşmə təhlükəsi

**Son günlər ölkə televiziyalarında bəzi verilişlərin, şou əhlinin efirə çıxmasına qoyulan qadağalar bizi təkrar milli-mənəvi dəyərlər haqqında düşünməyə, cəmiyyətdə yaranan sualların məntiqli cavabını araşdırmağa vadar edir. Hansısa televiziyanın reytinqini qaldıran, hətta onun işçilərinin əməkhaqqına müsbət təsir göstərən verilişlər cəmiyyət üçün nə dərəcədə ziyanlıdır?! Doğrudanmı 1-2 saatlıq bir şou proqramla mübarizə aparmaq dövlət üçün bu qədər əhəmiyyətlidir?! Cavabın birmənalı şəkildə müsbət olduğunu əsaslandırmaq üçün bu verilişlərin qənim kəsildiyi milli-mənəvi dəyərləri təhlil edək.**

Ölkə prezidenti İlham Əliyevin 24 fevral 2024-cü ildə andiçmə mərasimində qeyd etdiyi kimi, "milli-mənəvi dəyərlər bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir." Bu fikirdə açar məqamlardan biri də məhz "bizim əlimizdə" kəlməsidir. Bəs əlində belə bir imkanı olan hər vətəndaş bu məsuliyyəti dərk edirmi?! Gündəmi məişətin bəsit söz-söhbəti ilə zəbt edən, bir fərdin məntiqsiz tələblərini xalqın qlobal problemi səviyyəsinə qaldıran və özünə hər cəhdlə haqq qazandırmağa çalışan TV verilişləri də bunu anlayırmı?! Vandalizmi özünüifadənin şah əsəri kimi qəbul edib Nizami Kino Mərkəzinin divarlarını korlayan yeniyetmələrin valideynləri, müəllimləri də bu məsuliyyətin miqyasını təsəvvür edirlərmi?!



## Milli kimlik - xalqın varlıq şərti kimi

Bir xalqın milli kimliyinin, tarixdəki imzasının, onu digər xalqlardan fərqləndirən unikallığının formalaşması əsrlərlə davam edən prosesdir. Bir tərəfdən, xalqın keçdiyi inkişaf yolu - dinc zamanlarda yazıb-yaratması, çiçəklənməsi, müharibələrdə itkilər verib, əsarətə düşməsi, təkrar müstəqillik qazanıb, öz dövlətini yaratmaq üçün ayağa qalxması, mübarizələr aparması, digər tərəfdən, dövrün inikası olan folklor, mütəfəkkirlərin, sənətkarların ruhu ilə yoğurduğu əsərləri - bunların hamısı milli-mənəvi xəzinəyə əlavə edilən dəyərlər, qiymətsiz var-dövlətdir. Bu xəzinə nə qədər dolu, zəngin olarsa, bir o qədər millətin qaməti şax, özünəinamı sabit olar. Onda illərin keşməkeşləri ona "yelin qayaya vurduğu qədər" ziyan verər. Və əvəzində təcrübəsini zənginləşdirər, tarixinin şərəfli səhifələrinin sayını artırar. Bu səbəbdən, o dəyərlərin məsuliyyətsizcə israfı, məhvi bilavasitə millətin çöküşünə, manqurtlaşmasına gətirir.

Milli-mənəvi dəyərləri qorumaq əsrlər boyu miras kimi xalqın aparıcı və qoruyucu qüvvələrinə - xalqın liderlərinə, ziyalılarına, qəhrəman övladlarına ötürülür. Bu prizmadan baxanda, Ulu Öndər Heydər Əliyevin sözlərinin əsl mahiyyəti də açılır: "Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir". 20 Yanvardan tutmuş Aprel döyüşlərinə qədər xalqın taleyində dövlət başçısının rolunu və fəaliyyətini araşdıran bir kitabda deyildiyi kimi: "Bir milləti ən rəzil, yazıq vəziyyətə salan da, onu millətlər arasında ən uca bir zirvəyə qaldırıb, haqqında dastan qoşduran da onun lideri, qəhrəmanıdır." Bunu isə xalqın lideri məhz milli kimliyə, yüksək mənəviyyata söykənməklə edə bilir.

Milli-mənəvi dəyərlər yəqin ki, ölkənin müstəqilliyi, sərhədlərin toxunulmazlığı ilə müqayisə edilə bilər - hər ikisi çoxluq, xaos arasında xalqı qoruyan amillərdir. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi, "Ailə dəyərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim mədəniyyətimiz, tariximiz - bütün bunlar Azərbaycan xalqını qorumuşdur". Əslində, bu sözlərdə həm dövlət siyasəti, həm milli inkişafın prioritet istiqamətləri, həm də dördüncü hakimiyyət kimi medianın prinsipləri öz əksini tapır.

Artıq bir neçə ildir ki, Azərbaycan keçid mərhələsindən çıxıb yüksək inkişaf etmiş ölkələrlə ayaqlaşır, bərabər layihələrə imza atır. Sürətlə bir-birini əvəz edən tarixi hadisələr də göstərir ki, Azərbaycan artıq postsovet - keçmiş imperiyanın tələblərini yerinə yetirməyə məcbur edilən bir respublika yox, dünyaya öz dəyərlərini göstərən, öz fikrini, mövqeyini diktə edən, nümunə olan, super dövlətlərin də hesablaşdığı bir ölkədir. Ən vacibi isə, maddi gəlirini insan kapitalına çevirən bir siyasət yürüdür. Bütün bunlar ondan güc tələb edir, güc isə daxildən qaynaqlanmalı, milli-mənəvi dəyərlərdən qidalanmalıdır ki, super güclər, qlobal axınlar onu öz ölçüləri çərçivəsinə salıb təhrif etməsin.

## TV proqramlarının prinsipləri və mənəvi dəyərlər

Xalqa təqdim edilən proqramların, təbliğ edilən ideyaların müəllifi öz subyektiv mövqeyindən çıxış etsə də, mütləq dövlətin, xalqın varlığı üçün zəruri olan prinsipləri nəzərə almalıdır. Azərbaycanın ən yeni tarixi müxtəlif hadisələrlə, qəhrəmanlıq, acı günlərlə, hətta varlığı üçün təhlükə yaradan məqamlarla zəngindir. Bu proseslərin nəticəsi olaraq hazırda Azərbaycan müstəqildir. Dünyaya açılan, demokratiyanı əsas istiqamət kimi qəbul edən bir dövlət nəticədə yeni bir problem ilə üz-üzə qalıb: azadlıqdan sui-istifadə. Varlıq, mövcudluq yalnız azadlıq üzərində bərqərar deyil. Tanınmış psixoloq Viktor Franklın da dediyi kimi, "varlığın üç ekzistensiyası var: mənəviyyat, azadlıq və məsuliyyət". Bu isə o deməkdir ki, bunlardan birini əskik etsək, digər ikisi də nəinki naqis qalar, hətta ziyan verər.

Hər hansı imperiyanın tərkibində olmaq yalnız bəlli bir ideologiya çərçivəsində yazıb-yaratmaq, düşünmək deməkdir. Bununla yanaşı, imperiya öz maraqları naminə səni böyük informasiya selindən, müəyyən mənada qlobal təhlükələrdən də təcrid edir. Azadlıq məhz onlarla üz-üzə gəlmək və onların altında əzilməmək deməkdir. Məhz buna görə də azadlıq məsuliyyət və mənəviyyatla silahlanmalıdır. Məsuliyyət özündə güclü biliyi, geniş dünyagörüşünü, düzgün təhlil bacarığı və məntiqli nəticə çıxarmaq qabiliyyətini ehtiva edir. Mənəviyyat isə bütün bunları milli ruh və kimlik zəminində həyata keçirməyi özündə cəmləşdirir. Filosoflar təsadüfən demirlər ki, "azadlıq dərk edilən zərurətdir" və bununla azadlığın insanın daxilində doğulub, formalaşıb güc aldığını vurğulayırlar. Belə olan halda, televiziyalarda ailədaxili münaqişələr baş mövzuya çevrilmir, əxlaqsızlıq istedad kimi təqdim edilmir, yeniyetmələrin tarixi binaların üzərindəki vandalizminə uşaqlıq həvəsi, sənətə cəhd, azad ruhun ifadəsi kimi haqq qazandırılmır. Dövlət başçısının da vurğuladığı kimi, "Bizi xalq kimi, millət kimi əsrlər boyu qoruyan, assimilyasiyadan qoruyan bizim dəyərlərimiz olub. Ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz və milli şüurumuz. Bunu biz heç vaxt itirə bilmərik, heç vaxt! Deməli, həqiqi azadlıq dərin köklərimizdən imtinada, yad qüvvələrə kor-təbii təqliddə deyil, düzgün dərk edilən milli-mənəvi dəyərlərimizdə, güclü intellektimizdə ehtiva olunub.

Bunları nəzərə alaraq TV proqramları üçün vacib olan və tez-tez pozulan bir neçə prinsipi təhlil edək.

Tamaşaçı kontingentinin nəzərə alınması. Söhbət əhalinin fərqli təbəqələrini nəzərə alaraq, onların maraqlarının və efir saatlarının düzgün təyin edilməsindən gedir. Bu verilişlərin məqsədi üç cür olmalıdır: a) öyrətmək və maarifləndirmək, b) əyləndirmək və xaosdan yorulan düşüncələri sakitləşdirmək, c) dünya hadisələrindən tutmuş regional səviyyəyə qədər informasiya ilə təmin etmək.

Burada bir qızıl qayda var: dövlətin ali qanunlarına, dəyərlərinə hörmət heç bir şəkildə pozula bilməz!

Bu prinsipdə daha bir görünməz fakt isə nəsillər arasındakı mənəvi bağın qorunmasıdır. Söhbət yalnız ailə dəyərlərindən deyil, ümumiyyətlə, cəmiyyətdəki qarşılıqlı münasibətdən gedir. TV proqramları xalqın mənəvi dəyərləri üzərində qurulmalıdır, onları bir fərdin, bir ailənin məişət çərçivəsində təqdim etmək yerinə, fərdləri, hadisələri həmin dəyərlər işığında təhlil etməli, qərarlar verməlidir. Ulu Öndərin məşhur bir kəlamında deyilir: "Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər". Bu sözlər bir daha təsdiq edir ki, hər kəsin evində ailə üzvü kimi yeri olan televiziyalarda mənəviyyat, milli kimlik öndə durmalı, ondan kasad olan, onu maddi gəlirə - reklama, reytinqlərə qurban verən şəxslərin üzünə isə verilişlər birmənalı şəkildə bağlanmalıdır.

Mövzuların təyini. Mənəviyyatın düşməni cəhalətdir, çünki heç bir mütəfəkkir sahəsindən, zamanından asılı olmadan öz görüşlərində mənəviyyatsızlığa çağırmayıb. Antik dövrdə Miletli Fales deyirdi ki, "zahirini yox, mənəviyyatını gözəlləşdir," Orta əsrlərdə Şərq müdriki Ömər Xəyyam isə tövsiyə edirdi ki, "qaranlıq dünyada yalnız mənəvi zənginlik həqiqidir və dəyərsizləşməz". Televiziyalardan yığışdırılan və qadağan edilən verilişlər, əslində, zahiri parıltıya - maddi gəlir, müvəqqəti populyarlıq - bürünən cəhalətdir; divarlara yazılan mənasız sözlər, əslində, həmin şəxslərin boş mənəviyyatının, zəif intellektinin, milli kimliyinə olan laqeydliyin ifadəsidir. Maraqlıdır ki, bəzən səviyyəsi aşağı, mövzusu dar olan verilişlərə dəvət edilən həqiqi ziyalı, düşüncə sahibi, sənətkar da məhz həmin çərçivə daxilində danışmalı olurdu, nəticədə həmin görünməz cəhalətin təbliğatçısına çevrilir. Bədxassəli şiş kimi medianın, mədəniyyətin bətnində sürətlə yayılan belə psevdo-mədəniyyət, əslində, mənəviyyatın məhvinə istiqamətlənir, vandalizmə, aqressiyaya meyilli yeniyetmələrin əməlinə haqq qazandırmağa çalışanlar isə nəslin korlanmasına rəvac verir. Axı atalarımız deyib ki, "əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir". Artıq kifayət qədər insanların zehninə, gənclərin tərbiyəsinə, dünyagörüşünə dərindən təsir göstərməyə başlamış bu verilişlərin yeganə yolu radikal müdaxilə - bağlanması və qadağalar qoyulması oldu. Maraqlıdır, bəs onların zəhərlədiyi düşüncələr, mənəviyyatlar neçə müddətə təmizlənə biləcək?!

## Milli-mənəvi dəyərlər - xalqın vəhdət gücü

Gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Burada bir-birini tamamlayan, şərtləndirən iki proses var. Məhz gənclər milli-mənəvi dəyərlərin daşıyıcısı, öz simasında təbliğatçısıdır. Ulu Öndərin də dediyi kimi, "biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Məhz dünyagörüşü düzgün formalaşmış, mənəviyyatı zəngin və milli özünüdərki inkişaf etmiş bir gənc dövlətin gələcəyində, daxili sabitliyinin təmin edilməsində, beynəlxalq aləmdə öz layiqli siması ilə tanınmasında vacib rol oynaya bilər. Dövlət başçısı İlham Əliyevin də vurğuladığı kimi, "Bizə sağlam millət lazımdır, sağlam, yeni gənc nəsil lazımdır. Bilikli, savadlı, bütün dünyada gedən proseslərə bələd olan, gözəl təhsil alan, öz biliyi və savadı ilə Azərbaycanın gələcək inkişafına töhfə verəcək gənc nəsil lazımdır, vətənpərvər gənc nəsil lazımdır". Deməli, ölkədə gedən bütün proseslər, mümkün islahatlar, media orqanları bu məqsədə xidmət etməlidir. Xatırladaq ki, 90-cı illərdə Azərbaycanın müstəqilliyi üçün ayağa qalxıb canından-qanından keçənlər də, 30 ildən sonra ölkəni erməni işğalından xilas etmək üçün Ali Baş Komandanın ətrafında cəmləşən də öz milli kimliyini qorumaq istəyən, öz mənəvi dəyərlərini düşməndən gələn təhlükədən daha üstün görən gənclər olub.

Gənclər həm də keçmiş və gələcək nəsil arasında əlaqələndiricidir və onların mənəviyyatının çürük dəyərlər üzərində formalaşması, milli kimliyinin bəsit şoular çərçivəsinə salınması bütövlükdə xalqın daxildən parçalanmasına, hətta qütbləşməsinə gətirib çıxarır. Dövrdən, şəraitdən asılı olaraq maraqlar fərqli istiqamətlərə yönələ, toqquşa bilər, prioritet mövzular dəyişər, lakin nüvəsi sağlam olan xalqı belə keçici dəyişikliklər parçalaya bilməz, hər əsən küləklə sovrulub tükənməz. Deməli, ən vacib missiya məhz həmin nüvənin qorunmasıdır və bu işdə dördüncü hakimiyyətin - medianın rolu çox böyükdür. İlham Əliyev 2013-cü ildə xüsusilə vurğulayır ki, "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır".

Əhəmiyyətli bir məqamdır ki, millətə düşmən kəsilən qüvvələr də bunu çox gözəl anlayır, məhz bu vasitə ilə xalqı parçalamağa çalışır. Diqqətəlayiq məqamdır ki, hər nə qədər dördüncü hakimiyyət olsa da, media milli-mənəvi dəyərlərin qorunmasında, təbliğində məsul olan qüvvələr arasında ən zəif halqadır. Onu zəbt etmək, təhrif etmək daha asandır, eyni zamanda onun vasitəsilə vurulan zərbə daha böyük miqyaslı və əsaslı olur, çünki hər ailəyə icazəsiz, qeyd-şərtsiz daxil ola bilir. Əsrlərlə formalaşdırılan, Dədə Qorquddan tutmuş bu günə qədər neçə dahi mütəfəkkirin, sənətkarın, alimin damla-damla topladığı milli-mənəvi dəyərlərimiz - xalqın toxunulmaz mirası-xəzinəsi məhz bu vasitə ilə kiminsə cılız dünyagörüşü, bəsit təhlilləri ilə təhrif olunur, xərclənir, havaya sovrulur. Tamaşaçı informasiya almaq, maariflənmək, gözəl sənətdən zövq almaq, mənən dincəlmək əvəzinə qiymətli vaxtını kiminsə reytinqinin yüksəlməsinə, şəxsi gəlirinin artmasına sərf etməli olur. Ayrı-ayrı fərdlərin məişət davaları, ictimailəşdirilən qeyri-etik davranışlar, dialoqlar, sənət adına ləkə olan mahnılar, musiqilər, rəqslərin təqdimatı, əslində, günün müəyyən saatlarından daha çox mənəviyyatın bütün müsbət keyfiyyətlərini zəbt edir - xalq savadsız, etikasız, biliksiz, dünyagörüşü kasıb, din-iman yerinə maddi gəlirə səcdə edən bir fərdin çərçivəsinə sığdırılır. Bu prizmadan baxanda, həmin verilişlərə qoyulan qadağa, əslində, milli-mənəvi dəyərlərin azadlığa çıxmasıdır.

## Son söz yerinə

Hər xalqın dastanı olmadığı kimi, onun varlığını əsrlər boyu qoruyan milli-mənəvi dəyəri də yoxdur. Həmin xalqlar hansısa bir hamiyə, ağaya möhtacdırlar ki, bir dövlət tərkibində bir qəbilə, toplu kimi yaşaya bilsinlər. Bir fərdin məişət problemlərinə, bir şəxsin sənətdən uzaq təqdimatına, bəsit düşüncəli, dar dünyagörüşlü aparıcıların təhlillərinə, ixtisasdan xəbəri olmayan ekspertlərin mülahizələrinə ilişib qalan tamaşaçının yüksək dəyərlər haqqında təsəvvürü formalaşa bilməz. Özünü tanımayan, milli kimliyi olmayanları isə maddiyyat qarşılığında alçaltmaq da, idarə etmək də, özünə qənim kəsdirmək də asandır. Belə yazılmayan qanunları dərk edən və xalqına da aşılamağa çalışan Ulu Öndər Heydər Əliyev deyir: "Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz…"

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü, professor***

*Bu barədə düşünək*

# Gecikən məhəbbət

## Gənclərimiz ailə qurmağa niyə tələsmirlər

**Əvvəllər deyərmişlər ki, tez evlənən və səhər tez oyanan irəli düşər. Yuxudan sübh tezdən oyanmaq, əslində, yaxşıdır, amma erkən evlənmək xüsusilə indiki sivil dünyada bir qədər mübahisəli məsələdir. Elə əvvəllər bunu alqışlamaq, təbliğ etmək istəyənlərin özü də məsələnin dərinliyinə bir o qədər varmaq istəməyiblər. Çünki "tez alışan tez sönər", "tələsən təndirə düşər" fikirlərini də onlar söyləyiblər.**

İnsan ömrü ilin fəsillərinə bənzəyir. Hər fəslin isə öz özəlliyi var. Yazda çiçəklər açır, yayda, payızda meyvələr yetişir, qışda bəyaz qar yağır... Bunların hər biri öz zamanında gözəldir.

Ailə qurmağın da öz vaxtı var. Tələsmək olmaz. Amma gecikmək də heç də yaxşı hal deyil.

Oğlunun yaşı 35-ə yaxınlaşan bir ananın gileyini eşitdik: "Evləndirmək istəyirik, yaşı keçir. Yaxın dostlarından öyrənmişəm ki, gözaltısı yoxdur. Odur ki, arada özüm məsləhət bildiyim qızların adını çəkib seçim etməyin, ailə qurmağın vaxtının ötdüyünü yadına salıram. Susur. Yaş üstünə isə yaş gəlir. O gün baxıram ki, artıq saçlarına dən düşməyə başlayıb..."

Bir qız anasının da narahatlığını bölüşdük: "Orta məktəbi əla qiymətlərlə bitirdi, universitetə daxil olub orada da yaxşı oxudu, təhsilini ağılla-kamalla başa vurdu. Xeyli vaxtdır öz ixtisası üzrə də işləyir. Yaxından-uzaqdan, tanış-bilişdən söz açanlar, qapıya gəlmək istəyənlər var. Eşitdiyimə görə, öz iş yoldaşlarından da elçi düşənlər olub. Ancaq qız daşı ətəyindən töküb bir Allah bəndəsinə "hə" demək istəmir. Yaş isə keçir..."

Bəlkə də bu iki ananın ürək çırpıntılarını bəyan etməzdik. Əgər həmin fikirlərlə rahatlıq tapmayan ata-analar az olsaydı... Amma təəssüf ki, artıq ailə həyatı qurmaq yaşı keçən övladlarının sabahı üçün nigaran olan belə valideynlər çoxdur. Onların dediklərini eşitsək də, eşitməsək də, statistik rəqəmlərdən xəbərimiz olsa da, olmasa da, real vəziyyət göz qabağındadır. Hər birimizin çevrəsində neçə-neçə gənc - istər qız, istərsə də oğlan var ki, ailə qurmağa tələsmir, daha doğrusu, gecikir. Qısası, bu, bir həqiqətdir ki, son illərdə Azərbaycanda cavanların nikaha daxil olma yaşı artıb. Bu isə ölkədə nikahların sayının azalmasına səbəb olur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən il Azərbaycanda 48546 nikah bağlanıb. Halbuki ondan əvvəlki ildə 49508 nikaha daxilolma qeydə alınmışdı. Fərq 952 nikahdır, başqa sözlə, əhalinin hər 1000 nəfərinə nikahların əmsalı 4,9-dan 4,7-yə enib. Cari ilin ilk ayında isə ötən ilin eyni dövründəkindən 1795 az ailə qurulub. Bu isə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların əmsalının 5,4-dən 3,4-ə düşməsi deməkdir.

Cavanların nikaha daxilolma yaşının artması bunun başlıca səbəblərindəndir. Yenə də statistikaya müraciət edək. Qoy əsl mənzərəni rəqəmlərin özü yaratsın. 2014-cü, 2015-ci və 2016-cı illərdə kişilərin nikaha daxilolma yaşı orta hesabla 28,6 idi. Həmin rəqəm getdikcə artaraq 2017-ci ildə 28,8-ə, 2018-ci ildə 29-a, 2019-cu ildə 29,4-ə və 2020-ci ildə 30-a çatdı. 2014-2016-cı illərdə qadınlar orta hesabla 24,1 yaşında ailə qurmuşdular. Sonrakı illərdə bu rəqəm tədricən artdı və 2017-ci ildə 24,2 olduğu halda 2020-ci ildə 25,2-yə qədər yüksəldi.

Bu tendensiya özünü ilk nikaha daxil olanların yaşında da göstərir. Birinci nikaha daxil olan qadınların orta yaşı 2015-ci ildəki 23,6-dan 2020-ci ildə 24,3-ə çatdı. Birinci nikaha girən kişilərin yaşı isə həmin dövr ərzində 27,5 olduğu halda ilbəil artaraq 2020-ci ildə 28,5 təşkil etdi. Ən son rəqəmlər isə belədir: 2024-cü ildə kişilər orta hesabla 30,2, qadınlar 25,1 yaşında evləniblər. İlk dəfə nikaha daxil olanların orta yaşı isə kişilər arasında 28,6, qadınlar arasında 24 olub.

Bunların orta rəqəmlər olduğuna bir daha dərindən nəzər salsaq, vəziyyət tam aydın olar. "Kişilərin nikaha daxil olma yaşı orta hesabla 30-dur" deyəndə düşünə bilərik ki, bu, o qədər də narahatlıq doğuran rəqəm deyil. Lakin həmin orta rəqəm tələsib 19-21 və sonrakı yaşda ailə quranların, eləcə də 30-dan sonra evlənənlərin yaş göstəricilərindən yaranır. Beləliklə, 35 və daha yuxarı yaşda nikaha daxil olanların da sayının çoxluğu ortaya çıxır.

Bəs gənclərimizi ailə qurmağa gecikdirən səbəb nədir? Sosioloqlar bunun bir səbəbini gənclərin daha mükəmməl təhsil almaq istəyi ilə bağlayırlar. Məsələn, onların bir çoxu ali təhsilin bakalavr pilləsindən sonra magistraturanı da başa vurmaq istəyir. Gənc daimi iş yeri tapınca, özünü bir mütəxəssis kimi doğruldunca, ailə dolandırmaq imkanına çatınca isə xeyli vaxt keçir. Bu proseslərin davam etdiyi dövrdə cavanların heç də hamısı evlənmək barədə fikirləşmir.

Müşahidələr göstərir ki, indi gənclər daha sərbəst və müstəqildirlər, o mənada ki, quracaqları ailəni özləri, artıq yaşa dolmuş valideynlərinə ziyan vurmadan dolandırmaq istəyirlər. Gənc ailələrin başlıca istəyi isə ayrıca mənzildə yaşamaqdır. Əlbəttə, cavanların, necə deyərlər, ayaq üstə durmağı bacarandan, əli çörəyə çatandan sonra evlənmək məqsədləri təqdirəlayiq haldır. Amma çox gecikməyin də heç yeri deyil.



Görək gənclərin özləri və onların çevrəsindəki insanlar nə deyirlər? Yaşı 35-ə yaxınlaşan Natiq deyir ki, gəlini haraya gətirim? Atamın, anamın, nənəmin və yaşca məndən kiçik bacımın yaşadığı üçotaqlı "xruşşovka"ya, ya kirayə mənzilə? Bu gənc haradasa haqlı olsa da, hər halda çıxılmaz vəziyyətdə deyil. Əvvəla, onun ata evi var və nənəsi hamının adından deyir ki, gəlinin gözümüz üstündə yeri var, təki ürəklər geniş olsun. Üstəlik, Natiq sanballı bir şirkətdə çalışır, yüksək maaş alır, yeni mənzil sahibi olmaq şansı da istisna deyil. Əslində, özü bu barədə düşünməyə gecikib. Çünki sosial vəziyyəti onunla eyni olan dostları Azad və Elman məsələni xeyli vaxtdır müsbət həll ediblər. Biri dövlətin gənc ailələrə güzəştlərindən istifadə edərək ipoteka krediti götürüb və artıq təzə mənzilə köçüb. Digəri isə yaşadığı Bakı yaxınlığındakı kənddə salınan yeni massivdə torpaq sahəsi alaraq xudmani bir ev tikdirir.

Yaşıdları artıq ailə qurmuş Saleh də hələ evlənməyə tərəddüd edir. Evi olduğu halda... O, kiçik bizneslə məşğuldur və qazancının ailəni dolandırmağa yetməyəcəyini düşünür. Valideynləri ona deyir ki, indi gənc qızların əksəriyyəti müəyyən peşə, sənət sahibidir, iş yerləri var. Odur ki, Saleh də gələcək həyat yoldaşı ilə birlikdə əl-ələ verib dolana bilərlər. Bir də ki, zəhmətlə, səbirlə, hətta çətinliklə əldə olunan nemətlər daha şirin olur. Ev-eşiyin, pul-paranın, lap elə həyatın özü də!

Son aylara aid bir məsələdən də yan keçmək istəməzdik. Oğlunun gözaltısı olan, lakin toyu ləngidən üç xanımdan bunun səbəbini soruşdum. Ərk etdim, çünki onlardan biri əziz rəfiqəm, digəri yaxın qohumum, üçüncüsü qapıbir qonşumdur. Üçündən də aldığım eyni cavabdan təəccübləndim. Dedilər ki, bəs gəlinin qır-qızılını düzəldə bilmirik, bunun üçün ən azı 10 min manat pul lazımdır.

Bu, nə vaxtdan ailə qurmağın başlıca şərti olub?! Ailə quran qızlarımız həmişə qarşı tərəfin imkanları ilə hesablaşıblar axı. Bir sıra hallarda oğul anaları gələcək gəlinləri üçün öz mücrülərindən bəxşişlər ediblər. Zinət əşyaları zaman-zaman nəsildən-nəsilə hədiyyə olunub və onlar həm əziz yadigar, həm də əntiq əşya, antikvar kimi qorunub. Deyirlər, indiki qızlar bunları bəyənmir. Demə, qızılın da dəbi olarmış... Bəzən isə elə oğlan evi özü deyilənləri prestij sayır, necə deyərlər, "layiqincə" üzə çıxmaq istəyir.

Yeri gəlmişkən, deyək ki, ailə qurmaq yaşına çatmış qızların da çoxu bir sıra səbəblərdən tərəddüd edirlər. Görək bu barədə dünyagörmüş ağbirçəyimiz Kifayət xanım nə deyir: "İndiki gəlinlər qayınanalı-qayınatalı evdə yaşamaq istəmirlər. Qızlar birinci şərt kimi oğlanın özünün ayrıca evi olması tələbini irəli sürürlər. Üzümü onlara tutub demək istərdim ki, qızlarım, heç olmasa bir müddət, ayrıca ev-eşik düzəldincə böyüklərlə bir yerdə yaşamağın özü də müsbət haldır. Belədə düşdüyünüz ailəyə, qohum olduğunuz insanlara daha tez isinişərsiniz. İşləyən, karyera sahibi olan qızlar üçün bu həm də bir köməkdir. Çünki ailənin digər üzvləri ona ev işlərində, uşaqların qeydinə qalmaqda köməkçi olurlar".

Kifayət nənə özü vaxtilə uzun illər uşaq bağçasında tərbiyəçi işləyib. Odur ki, cavan qadınların işləməsini, karyera qurmasını alqışlayır. Onun fikrincə, qızların bir qismini ərə gedəndən sonra ailənin tələbi ilə sevimli işlərindən, kollektivdən, yəni cəmiyyətdən ayrı düşəcəkləri qorxudur. Ağbirçəyin bu məsələyə aid də məsləhəti var: "Həkim, müəllim, alim, yaxud sadə və gərəkli peşə sahibi olan qızlarımız çoxdur. Ailə qurandan sonra bəzi hallarda ər evinin onu işindən ayırmasının qəti əleyhinəyəm. Qoy işləsinlər, cəmiyyətə də xeyir versinlər, ailə büdcəsinə də bunun köməyi var". Nənə gülür: "Qədimdə deyərmişlər ki, halvaçı qızı bir az da şirin..."

İxtiyar yaşlı Bakı sakini Nazim Tağıyev isə internetin, sosial şəbəkələrin gənclərin çox vaxtını almasından, fikrini həddindən artıq məşğul etməsindən narahatdır. Ağsaqqal deyir ki, kompüterdən və mobil telefonlardan faydalı işlər üçün istifadə etmək lazımdır. Boş-boş yazışmalara, lazımsız oyunlara, yerli-yersiz şəkillər paylaşmağa yox! Bütün bunlar gəncləri gələcək barədə düşünməkdən, məqsədyönlü qərarlar qəbul etməkdən yayındırır.

Ailə qurmağa tələsməyən hər kəsin öz səbəbi var. Odur ki, bu barədə fikirlər, mülahizələr də müxtəlifdir. Dəqiq bilinən isə yalnız odur ki, bu cavanlara kömək etmək lazımdır. Doğmaları, dostları onlara yol göstərməli, birgə çalışdıqları kollektiv çətinliklərini aradan qaldırmaqda bacardığı dəstəyi əsirgəməməlidir. Onlar ailə qurmalı, bir ocaq başında birləşib xoşbəxt yaşamalıdırlar. Burada söhbət həm də xalqımızın genofondundan gedir. Prezident İlham Əliyevin təbirincə desək, artan əhali artan gücümüzdür.

Həkim-genetik Eldəniz Bayramov vaxtında ailə qurmağın tibbi baxımdan çox vacib olduğunu deyir: "Ailə şəraitində insanların, xüsusilə kişilərin qidalanması, istirahəti düzgün tənzimlənir, bu da onların səhhətinin yaxşı, iş qabiliyyətinin yüksək olmasına, sağlam həyat tərzi keçirməsinə xidmət edir. Vaxtında qurulmuş ailələrdə həm də sağlam uşaqlar dünyaya gəlir. Belə ki, insanlar yaşa dolduqca onların həm genetik və həm də sonradan qazanılmış xəstəlikləri daha bariz şəkildə üzə çıxır və bu, özünü doğulan uşaqlarda göstərir".

Təcrübəli mama-ginekoloq Elmira Əfəndiyevanın sözü isə qızlaradır: "Erkən nikah kimi, gec evliliyin də mənfi cəhətləri var. Vaxtında ailə qurmaq lazımdır. Qadınların yaşı artdıqca onların dünyaya uşaq gətirmək şansları da azalır. Bu, mümkün olduqda belə ananın və gələcək körpənin həyatı üçün risklər yaranır. Gec ailə quran qızlar özlərini də, hətta biz həkimləri də çətinlik qarşısında qoyurlar. Bəzən dünyaya gətirdikləri körpələr tam sağlam olmur".

Odur ki, sevib-sevilməyə, ömür-gün yoldaşı seçməyə gecikməyin, əziz gənclər. Gecikənlər isə tələsin. Tələsin ki, sizə şirin-şəkər körpələr "ata", "ana" desinlər. Tələsin ki, sonra bir mahnıda olduğu kimi, peşiman-peşiman "ay gecikən məhəbbətim" deyə səslənərək qaçaq saldığınız xoşbəxtliyinizi axtarmayasınız.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● 2026 – "Şəhərsalma və Memarlıq İli"

# Bakının simasını dəyişən memar

**Memar əsrlərlə yaşayan daş əsərləri yaratsa da, onu tanıyanlar o qədər də çox olmur. Baxmayaraq ki, yaradıcı insan əsərini torpağın üstündə ərsəyə gətirib xalqa bəxş edir və həmin əsər nə qədər mükəmməldirsə, bir o qədər uzunömürlü olur, xalqın və tarixin yadigarına çevrilərək əbədiləşir.**

Bu gün biz Bakının küçələrindən keçərkən neçə-neçə möhtəşəm tikilinin qarşısında ayaq saxlayır və onları yaradan müəlliflərin istedadının, zövqünün, əməyinin, yaradıcı təfəkkürünün izlərini seyr edirik. Belə görkəmli sənətkarlardan biri də XIX əsrdə fəaliyyət göstərmiş azərbaycanlı memar Qasım bəy Hacıbababəyovdur.





O, Bakının müasir mərkəzinin formalaşdırılmasında və şəhərin memarlıq simasının müəyyənləşməsində həlledici rol oynamış ilk peşəkar azərbaycanlı memarlardan biri hesab olunur. Q.Hacıbababəyov Rusiya imperiyasının memarlıq və şəhərsalma sahəsindəki dövlət və ictimai müəssisələrində çalışmış qafqazlılardan da birincisi idi. Şəhər planlaşdırılmasında və tikintisində iştirak etdiyi üçün "Müqəddəs Anna" ordeni ilə təltif olunmuşdur.

Qasım bəy Hacıbababəyov 1812-ci ildə Şamaxı şəhərinin Sarıtorpaq məhəlləsində dünyaya gəlmişdi. İbtidai təhsilini molla yanında almışdı. Sonra qəza məktəbində oxumuşdu. Atası və böyük qardaşı Səməd bəy də memar idi. O, 1848-ci ildən Şamaxı quberniya memarının köməkçisi, 1856-cı ildən quberniya memarı kimi fəaliyyət göstərmişdir. 1858-1859-cu illərdə Şamaxının yenidən qurulmasının baş planını hazırlamışdır.

Hacıbababəyovun karyerası Şamaxıda başlamışdır. Onun bu dövrdəki ən böyük uğuru 1858-ci ildə inşa etdiyi teatr binasıdır. Bu, nəinki Şamaxıda, həm də bütün Azərbaycanda ilk teatr binası hesab olunur. Bina bölgənin mədəni həyatında inqilab etmiş və Şəki, Kürdəmir kimi ətraf rayonlardan da tamaşaçı cəlb etmişdir. 1859-cu il zəlzələsindən sonra Bakı quberniya mərkəzinə çevriləndə Q.Hacıbababəyov şəhərin ilk baş planının hazırlanmasında iştirak etmişdir. O, Bakının relyefini və topoqrafiyasını nəzərə alaraq küçələri pilləli və sistemli şəkildə planlaşdırmışdır. 1868-ci ilə qədər Bakının şəhər memarı vəzifəsini icra etmişdir. Şamaxıya qayıdandan sonra 1868-ci ildən ömrünün sonunadək (1874) yenidən Şamaxı quberniya memarı kimi fəaliyyət göstərmişdir.

Qasım bəy Hacıbababəyovun yaradıcılığı Azərbaycanın memarlıq tarixində keçid dövrünü təşkil edir. O, ənənəvi Şirvan memarlıq məktəbi ilə XIX əsrin Avropa klassisizm üslubunu uğurla sintez edən ilk yerli peşəkar memar idı. Q. Hacıbababəyovun layihələri əsasında Bakının mərkəzində şəhərin vizit kartına çevrilmiş bir neçə bina ucaldılmışdır. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binası: Əvvəllər bura "Metropol" mehmanxanası kimi tikilmişdir. "Karvansara" binası: Hazırda Nizami küçəsində yerləşən, "Araz" və "Vətən" kinoteatrlarının olduğu bina kompleksi. Fəvvarələr meydanındakı binalar: Meydanın ilkin memarlıq ansamblının müəllifi məhz Q.Hacıbababəyov olmuşdur. Qubernator bağının (Vahid bağı): genişləndirilməsi və abadlaşdırılması işlərində memar fəal iştirak etmişdir.

Həmçinin Bakının əsas küçələrinin (məsələn, İçərişəhərdən kənardakı Sahil və mərkəzi məhəllələrin) ilk planlaşdırma layihələri onun adı ilə bağlıdır. 1860-cı ildə İçərişəhərin dəniz tərəfdən olan qala divarlarının sökülməsindən sonra şəhər memarı Qasım bəy Hacıbababəyov sahil zolağını nizamlamışdır və orada II Aleksandrın adını daşıyan sahil küçəsi - bulvar salınmışdır.

Memarın ən məşhur əsərlərindən biri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyidir. İlk baxışda öz memarlıq üslubu ilə diqqəti cəlb edən muzey binasının tarixi XIX yüz ilin ortalarından başlayır. 1850-ci ildə qədim İçəri şəhəri əhatə edən Qala divarları yaxınlığında inşa edilmiş birmərtəbəli karvansaraya sonradan Bakı quberniyasının baş memarı Qasım bəy Hacıbababəyovun layihəsi ilə ikinci mərtəbə də əlavə olunur. Mülki mühəndis Aleksandr Nikitin ikinci mərtəbədə banket zalının layihəsini hazırlayır və 1915-ci ildə binanın yeni sahibi - Azərbaycan milyonçusu Hacıağa Dadaşovun istəyi ilə bina "Metropol" mehmanxanasına çevrilir.



1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin əməkdaşları bu binadan həm yaşayış, həm də iş yeri kimi istifadə etmişlər. 1920-1930-cu illərdə isə bina Azərbaycan Həmkarlar İttifaqının ixtiyarına verilmişdir.

Muzeyin yaradılması işinə XX əsrin 40-cı illərinin əvvəllərində başlanmışdır. Azərbaycanın ən seçmə sənətkarları milli söz ocağının yaradılmasına cəlb edilmişlər. O zaman - 1941-ci ildə Nizami Gəncəvinin təntənəli yubiley mərasimi məlum səbəb üzündən ovaxtkı blokadada olan Leninqradda, Ermitajda keçirilir və bu, böyük bir tarixi hadisə kimi qiymətləndirilir.

Muzey Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr olunmuş daimi sərgi xatirə muzeyinin təşkili haqqında Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1 noyabr 1939-cu il tarixli sərəncamı ilə yaradılmışdır. Lakin onun açılışı 1945-ci il may ayının 14-nə təsadüf edir.

1943-cü ildə binanın fasadı və interyeri milli üslubda işlənərək eyvanında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin - Füzulinin (heykəltaraş: F.Əbdürrəhmanov), Vaqifin (C.Qaryağdı), M.F.Axundzadənin (heykəltaraş: P.Sabsay), Natavanın (heykəltaraş: E.Tripolskaya), C.Məmmədquluzadənin (heykəltaraş: N.Zaxarov), C.Cabbarlının (heykəltaraş: E.Klyatskin) heykəlləri ucaldılır.

70 ildən artıqdır ki, dünyada yeganə Ədəbiyyat Muzeyi sayılan bu müqəddəs söz sarayı Azərbaycan xalqının qədim mədəniyyətinin, zəngin ədəbi irsinin təbliğatçısı olmaq kimi şərəfli missiyanı həyata keçirir. Sonralar memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynovun layihəsi çərçivəsində burada əsaslı təmir işləri aparılır, baş fasadda heykəllər quraşdırılır və daha iki mərtəbə tamamlanır. Muzeyin interyeri Lətif Kərimov tərəfindən bəzədilir. Sonradan Nizami xatirə muzeyi Azərbaycan Ədəbiyyatı Muzeyinə çevrilir.

Muzeyin müasir dünya standartlarına cavab verən, yenidən qurulmuş, tam kompüterləşdirilmiş, innovativ vasitələrlə zənginləşdirilmiş ekspozisiyasında Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri öz əksini tapmışdır. Dünyanın hər yerindən Azərbaycana gələn qonaqlar Ədəbiyyat Muzeyini məmnunluq hissilə ziyarət edirlər. Ekspozisiyada nümayiş olunan qədim əlyazmaları, maddi-mədəniyyət nümunələri, rəsm əsərləri, xalçalar, nadir çap kitabları, nəfis miniatürlər, məşhur xəttatların əlyazmaları, numizmatika nümunələri, yazıçıların xatirə əşyaları, sənədli fotoşəkillər, heykəltaraşlıq nümunələri, xəritələr, tətbiqi sənət nümunələri qonaqların diqqətini cəlb edən eksponatlardır.

Muzeyin yenilənmiş ekspozisiyasında monitorlar vasitəsilə ziyarətçilər qiymətli audio-video materiallarla - müxtəlif filmlərdən, səhnə əsərlərindən fraqmentlərlə, görkəmli Azərbaycan bəstəkarlarının əsərləri ilə, tanınmış aktyorların ifasında poeziya nümunələri ilə tanış ola bilirlər. Muzeyin yeni ekspozisiyasında bir neçə zal da yaradılmışdır. Nəsrəddin Tusi, Şəms Təbrizi, Zülfüqar Şirvani, Molla Qasım Şirvaninin yaradıcılığını əks etdirən ekspozisiya, Şah İsmayıl Xətaiyə, Həsən bəy Zərdabiyə, Hüseyn Cavidə həsr olunmuş ayrıca zallar da ziyarətçilərin heyranlığına səbəb olur. Repressiya qurbanlarının faciəsini əks etdirən yeni ekspozisiyada tamaşaçılar ilk dəfə günahsız insanlara açılmış "Delo"ların fotosurətlərini görmək imkanına malik olurlar. Saat vitrini - muzeyin ekspozisiyasına fərqli bir ahəng qatır. Görkəmli ədiblərin saatları sanki onların yazı masası arxasında keçirdiyi anlara şahidlik edir.

Bakı şəhərinin görkəmini dəyişən bir çox abidə binaların müəllifi olan Qasım bəy Hacıbababəyov memarlıq tariximizdə əbədi yer tutan şəxsiyyətlərimizdəndir. Görkəmli memar 1874-cü ildə 63 yaşında vəfat etmişdir.

***İradə ƏLİYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Ankarada azərbaycanlı rəssamların sərgisi açılıb

**Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə Ankara Rəsm və Heykəllər Muzeyinin birgə layihəsi çərçivəsində "Suverenliyimizi qazandıran şanlı Zəfər" mövzusunda azərbaycanlı rəssamların sərgisi açılıb.**

AZƏRTAC xəbər verir ki, Ankara Rəsm və Heykəllər Muzeyində təşkil olunan sərginin açılış mərasimində diplomatlar, eləcə də mədəniyyət, incəsənət xadimləri, rəssamlar, qardaş ölkədə yaşayan azərbaycanlılar və sənətsevərlər iştirak ediblər.

Əvvəlcə hər iki ölkənin şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazanılan zəfərini əks etdirən qısa film nümayiş olunub.

Açılış mərasimində Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Gözəl Sənətlər Baş İdarəsinin rəhbəri Ömer Faruk Belviranlı çıxış edərək ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərindən, eləcə də sərginin əhəmiyyətindən bəhs edib. O, sərgilənən əsərlərdə Azərbaycanın qazandığı şanlı Zəfərin sənətin dili ilə insanlara çatdırıldığını qeyd edib. O, Türkiyədə yaşayan çoxsaylı azərbaycanlı sənət adamlarının, rəssamlarının mədəniyyətə töhfə verməklə yanaşı, iki qardaş ölkə arasında mədəni körpü qurduqlarını bildirib.



Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, zəfər tarixinin hər bir dövlət üçün müqəddəs və önəmli tarixi hadisə olduğunu qeyd edərək, 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərimiz haqqında danışıb. O, Türkiyədə yaşayan çoxsaylı azərbaycanlı rəssamlar arasında keçirilən və zəfərimizə həsr olunan sərgidə 44 əsərin nümayiş olunduğunu və bu əsərlərdə Vətənimizin tarixi, mədəniyyəti, mənəvi dəyərləri, Qarabağ mövzusunun geniş işıqlandırıldığını söyləyib.

Azərbaycan xalqının min illər boyu zəngin bir mədəniyyət yaratdığını və onun rəssamlıq məktəbinin əsrlər boyu bu mədəniyyətin bədii və estetik dəyərlərini qoruyub saxlamaqla inkişaf etdirdiyini qeyd edən S.Abbasov, azərbaycanlıların daim qardaş Türkiyənin mədəni həyatında aktiv iştirakını və mədəniyyətin inkişafına mühüm töhfələr verdiyini vurğulayıb.

Səfirliyimizin müşaviri Füzuli Məcidli Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərindən bəhs edərək, bu kimi mədəni təşəbbüslərin Azərbaycan ilə Türkiyə arasında mədəniyyət diplomatiyasının gücləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

Azərbaycanın Xalq rəssamı Arif Hüseynov çıxış edərək Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsünü və layihəsini yüksək dəyərləndirərək bu cür sərgilər vasitəsilə tarixi zəfərin gənc nəslə bədii dillə çatdırılmasının əhəmiyyətini, qardaş Türkiyədə geniş kütlələrə çatdırılmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Sonra sərgiyə baxış keçirilib, nümayiş olunan əsərlər haqqında iştirakçılara məlumat verilib.

Zəfərimizə ithaf edilmiş sərgidə türk dünyasının böyük şəxsiyyətləri, Ulu öndərlər Mustafa Kamal Atatürk və Heydər Əliyevin rəsmləri, habelə Azərbaycan, Vətən sevgisi, milli mədəniyyətimiz, mənəvi dəyərlərimiz, Qarabağ, Azərbaycan-Türkiyə qardaşlığı mövzusunda rəsmlər nümayiş etdirilir.

Qeyd edək ki, sərgidə nümayiş olunan əsərlər 2025-ci ildə Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin 5 illiyi münasibətilə elan etdiyi müsabiqə çərçivəsində seçilib. Türkiyənin müxtəlif şəhərlərindən təqdim olunan çoxsaylı əsərlər arasından Təşkilat Komitəsi tərəfindən 44 rəsm əsəri seçilib və Ankara Rəsm və Heykəllər Muzeyinə gətirilərək nümayiş etdirilir.

● Şəxsiyyətlər

# Təmiz məsləkli insan

**Cəmiyyətin müxtəlif sahələrində işləyib Vətən və xalq qarşısında böyük xidmətlər göstərmiş, uğurları ilə doğmalarını sevindirmiş, ölkəsinin inkişafına töhfələr vermiş şəxsiyyətlər heç vaxt unudulmur. Azərbaycanın neft sənayesinin inkişafında böyük xidmətlər göstərmiş peşəkar mütəxəssislərdən, dövlət xadimlərindən biri də Nəzər Heydərovdur.**



N.Heydərov ötən əsrin ortalarında neft sənayesinin inkişafı və texniki təchizatının gücləndirilməsində, həmçinin yeni üsullar tətbiq etməklə hasilatın artırılmasında böyük əmək sərf etmişdir. O, həm də yeni yataqların mənimsənilməsi işinə rəhbərlik etmiş neftçilərdən olmuşdur. Nəzər Heydərov İkinci Dünya müharibəsindən sonra Bakının neft sənayesinin yenidən qurulmasında fəal iştirak etmiş, bu işə bilik və təcrübəsini əsirgəməmişdir. O, neft sənayesinin müxtəlif sahələrinə rəhbərlik etdiyi illərdə artıq köhnəlmiş hesab olunan texnologiyaların təkmilləşdirilməsi işinə də böyük töhfələr vermişdir. Gördüyü bütün səmərəli işlər, atdığı addımlar qısa müddət ərzində Nəzər Heydərova böyük uğurlar qazandırmışdır.

Nəzər Heydər oğlu Heydərov 29 mart 1896-cı ildə Zəngəzur qəzasının (indiki Qubadlı rayonu) Gürcülü kəndində dünyaya göz açıb. Yaşı çatanda Gorus şəhərindəki orta məktəbin birinci sinfinə gedib. Təhsilini uğurla başa vurduqdan sonra əmək fəaliyyətinə başlayıb. 1913-cü ildə ürəyində böyük arzularla Bakıya üz tutub. "Balaxanıneft" mədənlərində çalışıb. 1918-ci ildə isə gərgin hadisələrin cərəyan etdiyi Zəngəzura göndərilib. O, müxtəlif illərdə Qubadlıda, Ağdaş və Şuşada, həmçinin keçmiş DQMV-də rəhbər vəzifələrdə çalışıb. Zaman keçdikcə siyasi təcrübəsi artan Nəzər Heydərov 1927-1928-ci illərdə Azərbaycan SSR Ali XTS-də məsul vəzifədə işləyib. Bacarığı və təcrübəsini nəzərə alaraq 1928-ci ildə onu Moskvaya təhsil almağa göndəriblər. Oxumaq, ali təhsil almaq onun çoxdankı arzusu idi. İstəyinə çatan Nəzər Heydərov Moskvadakı Sənaye Akademiyasının neft şöbəsində və Moskva Neft İnstitutunda oxuyub və təhsilini başa vurduqdan sonra 1931-ci ildə Bakıya dönüb.

Elə həmin ildən başlayaraq, Azərbaycan neft sənayesinin müxtəlif sahələrində fəaliyyət göstərib. Bacarıqlı neftçi 18 il ərzində Molotov adına mədənin direktoru, "Əzizbəyovneft" trestinin müdiri, Azərbaycan Neft Texniki Təchizat Trestinin müdiri, "Azneft" İstehsalat Birliyinin rəis müavini və rəisi işləyib. Bu illər ərzində Nəzər Heydərov neft sənayesinin inkişafına böyük töhfələr verib.

1949-cu il Nəzər Heydərovun həyatında əlamətdar hadisələrlə yadda qalıb. Həmin ilin may ayında o, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə seçilib. Nəzər Heydərov bu mühüm vəzifədə 1954-cü ilə qədər işləyib. Həmin illər ərzində o, həm də paralel olaraq SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdu.

1954-cü ildə Nəzər Heydərov yenidən neft sənayesində çalışmağa qayıdıb. 1959-cu ilə qədər "Azərnefttextəchizat" idarəsi rəisinin müavini vəzifəsində işləyib. Təcrübəli mütəxəssis kimi neft sənayesinin inkişafı istiqamətində böyük xidmətlər göstərmiş Nəzər Heydərov 1960-cı ildə fərdi təqaüdə çıxıb.

Nəzər Heydərovun xalqımız və dövlətimiz qarşısındakı xidmətləri müxtəlif illərdə layiqincə qiymətləndirilib. O, keçmiş SSRİ-nin ali mükafatları - "Lenin" və "Qırmızı əmək bayrağı" ordenləri ilə təltif edilib.

Neftçi, dövlət xadimi olmaqla yanaşı, Nəzər Heydərov ədəbiyyata da maraq göstərib. Dünyasını dəyişməzdən üç il əvvəl - 1965-ci ildə ötən əsrin əvvəllərində Zəngəzurda yaşayan azərbaycanlılara qarşı erməni quldur dəstələrinin böyük amansızlıqla həyata keçirdikləri soyqırımı hadisələrindən bəhs edən "Zəngəzur dağlarında" adlı memuar yazıb. Bədii-publisistik janrda qələmə alınan bu kitab tarix baxımından böyük əhəmiyyət daşıyırdı. Memuar dəfələrlə Azərbaycan, rus və hətta erməni dillərində nəşr edilib. 1972-ci ildə işıq üzü görmüş bu kitabda Nəzər Heydərov ötən əsrin 20-ci illərində erməni-daşnak, rus bolşevizminin azərbaycanlılara qarşı yönəlmiş qanlı planlarından bəhs edib, əzəli torpaqlarımızın hiylə ilə qoparılaraq Ermənistana verilməsini real, təkzibolunmaz faktlarla və şahidi olduğu hadisələrin təsviri ilə verib. Bununla o, ermənilərin çirkin əməllərini, məkrli xislətlərinin iç üzünü açıb dünyaya göstərib. Onu da qeyd edək ki, 1988-ci ildə Qarabağ hadisələri başlayanda Moskvaya göndərilən sənədlərdə mühüm tarixi mənbələrdən biri kimi Nəzər Heydərovun yazdığı həmin kitabdakı faktlara da istinad olunub. Bu fakt "Zəngəzur dağlarında" memuarının necə böyük tarixi dəyərə malik olduğunu göstərir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Şair-diplomat Hacan Hacısoyun 80 illik yubileyi qeyd olunub



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda görkəmli neftçi-alim və diplomat, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) müəllimi, şair Hacan Hacısoyun 80 illik yubileyi qeyd olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirin aparıcısı, AYB-nin poeziya şöbəsinin müdiri İbrahim İlyaslı Hacan Hacısoyun poeziyası haqqında bir qədər məlumat verərək bildirib ki, insanın çox şeyləri - mükafatları, müəyyən statusları ola bilər. Amma şair üçün ən yaxşı təqdimat onun şeirləridir. Ona görə də Hacan müəllimi tanımaq üçün insana müdriklik aşılayan şeirlərini oxumaq kifayətdir.

Azərbaycan Yazıçılar Birliyi sədrinin müavini Rəşad Məcid, AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru Südeyf İmamverdiyev və başqaları yubilyarı təbrik edərək ona ən xoş arzularını çatdırıblar.

Natiqlər Hacan Hacısoyun insani keyfiyyətlərindən, böyük alim kimi gördüyü işlərdən danışmaqla yanaşı, onun diplomatik fəaliyyəti üzərində dayanaraq ölkəmiz üçün çətin bir dövrdə Gürcüstanda səfir olduğunu, işlədiyi müddətdə Azərbaycanı layiqincə təmsil etdiyini bildiriblər.

Sonra ADNSU-nun müəllimləri, şair Rəfael Tağızadə, şair-naşir Elçin İsgəndərzadə, Əməkdar jurnalist Şahismayıl Şəmmədoğlu və digərləri çıxış edərək şairi 80 illik yubileyi münasibətilə təbrik ediblər.

Qeyd olunub ki, Hacan Hacısoy diplomat kimi nə qədər müdrik fəaliyyət göstərmişdisə, şeirlərində də bir o qədər incə və məsuliyyətlidir. Onun əsərləri ilə tanış olduqca vətənpərvər, milli-mənəvi dəyərləri uca tutan və təbliğ edən, sözün qədrini bilən, ondan məharətlə istifadə etməyi bacaran bir şairlə tanış olursan. Onun şeirlərində heç zaman artıq sözə rast gəlməzsən. Məhz bu xüsusiyyətlərinə görədir ki, Azərbaycanın müstəqillik illərində qarşılaşdığı ağır problemlər, Vətən ağrıları, Qarabağın işğalı şairin şeir və poemalarında ayrıca bir yer tutur. Onun şeirlərindən aydın olur ki, xalqımıza qarşı törədilən ədalətsizliklərlə barışmır, torpaqlarımızın işğalına dözə bilmir, hər dəqiqə əlinə silah götürüb vuruşmağa hazırdır. Torpaqlarımıza qarşı təcavüz onu nə qədər ağrıdırsa, Qarabağın azadlığa qovuşması, ədalətin bərpası şairi ürəkdən sevindirir. Nəticədə isə nikbin poetik nümunələr yaranır.

Sonda yubilyar tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib və yeni şeirlərini səsləndirib.

# "Azərenerji" Naxçıvanın enerji sistemini beynəlxalq standartlara uyğunlaşdırır






**Naxçıvanın ölkə enerji sisteminə qoşulması üçün işlər sürətlə davam edir. Dövlət başçısının müəyyən etdiyi strateji hədəflərə uyğun olaraq, "Azərenerji" Naxçıvan Muxtar Respublikasında enerji infrastrukturunu köklü şəkildə yeniləyir, rəqəmsal və intellektual idarəetməyə əsaslanan müasir enerji sistemi qurur.**

Layihə çərçivəsində regionun enerji təchizatında mühüm rol oynayan 110 kilovoltluq "Naxçıvan", 154 kilovoltluq "Babək" və 110 kilovoltluq "Çeşməbasar" yarımstansiyaları tam yenidən tikilir və işlər yekun mərhələyə çatıb. Xüsusilə "Naxçıvan" yarımstansiyası regionda ilk qapalı tipli yarımstansiya olaraq inşa edilir ki, bu da təhlükəsizlik və operativ idarəetməni əhəmiyyətli dərəcədə artıracaq.

Eyni zamanda enerji sisteminin rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılır. "Azərenerji" tərəfindən Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi davam edir, mövcud stansiya və yarımstansiyalar vahid SCADA şəbəkəsinə inteqrasiya olunacaq. Bu yeniliklər enerji şəbəkəsinin məsafədən operativ və tam rəqəmsal idarə olunmasını təmin edəcək.

Ötürücü şəbəkə də mərhələli şəkildə yenilənir. Ötən əsrin 50-ci illərindən qalan 110 kilovoltluq hava xətləri müasir ötürmə xətləri ilə əvəz edilir. İlkin mərhələdə ümumi uzunluğu 69 km olan "Culfa", "Ordubad-1" və "Ordubad-2" elektrik verilişi xətləri ikidövrəli olmaqla yenidən qurulub. Bundan əlavə, yaşayış ərazilərindən keçən bəzi hava xətlərinin 5,2 kilometrlik hissəsi müasir şəhər üslubuna uyğun olaraq yeraltı kabel xətləri ilə əvəz olunur.

Naxçıvanın ölkənin əsas enerji sistemi ilə birləşdirilməsi və Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizinin formalaşdırılması istiqamətində də işlər sürətlə davam edir. Bu çərçivədə Cəbrayıldan başlayaraq ikidövrəli olmaqla 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti inşa olunur. Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizini keçməklə 44 km məsafədə əlavə ötürmə xətti inşa ediləcək. Bununla da Naxçıvanın beynəlxalq enerji dəhlizində strateji mövqeyi ən yüksək səviyyəyə çatdırılacaq.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Hava şəraiti dəyişkən buludlu olacaq

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 8-10, gündüz 14-17 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.



Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 14-18, dağlarda gecə 3-8, gündüz 8-13 dərəcə isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7, gündüz 10-15 dərəcə isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6, gündüz 9-14 dərəcə isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8 dərəcə isti, dağlıq ərazilərdə 2 dərəcəyədək şaxta, gündüz 10-15 dərəcə isti olacağı ehtimalı var.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 11-16 dərəcə isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda qərb rayonlarından başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-9, gündüz 10-15, dağlarda gecə 0-4, gündüz 4-7 dərəcə isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 14-18 dərəcə isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin səhərdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə güclənəcək. Havanın temperaturunun gecə 8-11, gündüz 13-17, dağlarda gecə 7-9, gündüz 10-13 dərəcə isti olacağı bildirilir.


**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Təbiətin sərt dönüşü

## Quraqlıqdan yağıntıya kəskin keçid iqlim dəyişikliyinin nə qədər mürəkkəb olduğunu göstərir



**Son günlərdə dünyada, o cümlədən Azərbaycanda müşahidə olunan intensiv yağıntılar təkcə meteoroloji hadisə kimi deyil, eyni zamanda sosial-iqtisadi və ekoloji problem kimi də gündəmdədir. Küçələrin su altında qalması, nəqliyyatın iflic olması, kənd təsərrüfatında itkilərin artması və bəzi bölgələrdə sel təhlükəsinin güclənməsi cəmiyyətin bu məsələyə diqqətini xeyli artırıb. Mütəxəssislərin fikrincə, iqlim sistemi artıq əvvəlki kimi sabit deyil. Ənənəvi olaraq müəyyən dövrlərə xas olan hava şəraiti getdikcə dəyişir, yağıntıların paylanma rejimi pozulur, ekstremal hava hadisələri tez-tez və daha güclü şəkildə baş verir. Bir tərəfdən uzunmüddətli quraqlıqlar müşahidə olunur, digər tərəfdən isə qəfil və intensiv yağışlar sel və daşqınlara səbəb olur. Bu ziddiyyətli proseslər iqlim dəyişikliklərinin nə qədər mürəkkəb və çoxşaxəli olduğunu göstərir. Xüsusilə yaz mövsümündə yağıntıların artması adi hal sayılsa da, son illərdə müşahidə olunan qeyri-sabitlik, yağışların daha qısa müddətdə, lakin daha intensiv şəkildə yağması insanların narahatlığına səbəb olur və sual doğurur. Bu, sadəcə, mövsümi dəyişikliklərin nəticəsidir, yoxsa qlobal miqyasda baş verən iqlim proseslərinin bir parçasıdır?**

### İlin bu dövründə yağışların yağması təəccüblü deyil

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən ekoloq Cəmşid Bəxtiyarın sözlərinə görə, ilin bu dövründə yağışların yağması ümumilikdə təəccüblü deyil və bunu birbaşa qlobal iqlim dəyişikliyi ilə əlaqələndirmək düzgün yanaşma sayılmır: "Azərbaycanın yerləşdiyi iqlim qurşağı üçün yaz və payız aylarında yağıntıların olması xarakterik haldır. Lakin əsas məsələ yağışın özü deyil, onun intensiv olmasıdır. Əgər yağıntılar normaya uyğun düşərsə, bu, təbii proses hesab olunur. Amma son dövrlərdə müşahidə edilən yağışların intensivliyi artıq ənənəvi iqlim göstəricilərindən kənara çıxır. Bu isə qlobal iqlim dəyişikliyinin fəsadı kimi qiymətləndirilməlidir".

Ekoloq bildirib ki, iqlim dəyişikliklərinin əsas səbəblərindən biri atmosferdə istixana qazlarının artmasıdır: "Karbon emissiyalarının yüksəlməsi nəticəsində Yer kürəsində temperatur artır. Temperaturun yüksəlməsi isə birbaşa olaraq buxarlanma prosesini sürətləndirir. Bu isə atmosferdə daha çox su buxarının toplanmasına səbəb olur və nəticədə yağıntılar daha intensiv xarakter alır. İsti hava daha çox rütubət saxlayır və bu rütubət yağış şəklində düşdükdə güclü olur. Yəni iqlim dəyişdikcə, yağıntıların paylanma rejimi də dəyişir, az-az və uzunmüddətli yağışlar əvəzinə, qısamüddətli leysan xarakterli güclü yağışlar müşahidə edilir. Bununla yanaşı, atmosferdə baş verən digər dəyişikliklər də bu prosesə təsir göstərir. Meridianal hava axınlarının artması, siklon aktivliyinin güclənməsi və yer səthinin daha çox qızması konvektiv leysanların yaranmasına şərait yaradır. Bu isə xüsusilə dağlıq və meyilli ərazilərdə daha təhlükəli nəticələrə gətirib çıxarır".

İqlim dəyişikliyi yalnız intensiv yağışlarla deyil, həm də əks proseslərlə - uzunmüddətli quraqlıqlarla da özünü göstərə bilər. Mütəxəssis deyib ki, bəzən həddindən artıq yağıntılar müşahidə olunur, bəzən isə uzun müddət yağıntı olmur. Bu, iqlim sistemində balansın pozulmasının göstəricisidir. Qütblərin yerdəyişməsi və iqlim qurşaqlarının sürüşməsi kimi daha genişmiqyaslı proseslər də uzunmüddətli perspektivdə yağıntı rejiminə təsir göstərə bilir.

Ekspertin sözlərinə görə, son dövrlərdə intensiv yağıntılar yalnız Azərbaycanda deyil, dünyanın bir çox regionlarında ciddi fəsadlara səbəb olub. Pakistan və Əfqanıstanda güclü yağışlar insan itkiləri ilə nəticələnib, Yunanıstanda yaşayış məntəqələri su altında qalıb. Aralıq dənizi hövzəsində, Cənubi Amerikada, xüsusilə Braziliyada sel və daşqınlar geniş əraziləri əhatə edib. Rusiyanın bəzi bölgələrində, o cümlədən Dağıstanda da oxşar hadisələr qeydə alınıb. Ən çox zərər görən ölkələrdən biri isə Kolumbiya olub və burada yüz minlərlə insan bu fəlakətlərin ağrı-acısını yaşayıb.

Müharibələr və partlayışların iqlimə təsiri məsələsinə toxunan Cəmşid Bəxtiyar qeyd edib ki, bu cür faktorlar əsasən lokal xarakter daşıyır və qlobal iqlim dəyişikliklərinin əsas səbəbi kimi qiymətləndirilə bilməz. Lakin onların dolayı təsirləri - atmosferə əlavə qazların buraxılması, meşələrin məhv edilməsi, torpaq örtüyünün zədələnməsi uzunmüddətli ekoloji problemlərə yol aça bilər.

### Yaranmış vəziyyət ciddi addımların atılmasını zəruri edir

Ölkə ərazisində yağıntıların intensivliyi şəhərdaxili və regionlarda özünü fərqli şəkildə büruzə verir. Cəmşid Bəxtiyarın sözlərinə görə, asfalt örtüyü suyu hopdurmadığı üçün yağıntı suları axaraq kanalizasiya sistemlərinə yönəlir. Mövcud infrastruktur isə çox vaxt bu yükü qarşılaya bilmir. Nəticədə kollektorların dolması, kanalizasiya xətlərinin yüklənməsi və subasmalar baş verir. Ekoloq hesab edir ki, yaranmış vəziyyət həm şəhərsalma, həm də ekoloji idarəetmə sahəsində ciddi addımların atılmasını zəruri edir. İlk növbədə şəhər infrastrukturunun yenilənməsi vacibdir. Kanalizasiya və suötürücü xətlər ya ayrı sistemlər şəklində qurulmalı, ya da mövcud sistemlərin gücü artırılmalıdır. Drenaj və kollektor sistemlərinin müasirləşdirilməsi subasmaların qarşısını almaqda əsas rol oynaya bilər.

"Azərbaycanda intensiv yağışların təsiri xüsusilə dağlıq və dağətəyi ərazilərdə daha qabarıq hiss olunur. Böyük Qafqazın dağətəyi zonaları, Quba, Qusar, Şamaxı, Şabran ərazilərində sel və daşqın riski artır. Son hadisələr göstərir ki, bu ərazilərdə yağan leysan yağışlar torpaq qatının yuyulmasına, sürüşmələrə və ciddi maddi ziyanlara səbəb olur. Kənd təsərrüfatında da vəziyyət birmənalı deyil. Mülayim yağışlar məhsuldarlığı artırsa da, intensiv yağıntılar torpağın münbit qatını yuyaraq onun keyfiyyətini aşağı salır. Torpağın uzun müddət nəm qalması bitki köklərinin çürüməsinə, torpağın "nəfəs" ala bilməməsinə və nəticədə məhsuldarlığın azalmasına səbəb olur. Bununla yanaşı, şəhərdən kənar ərazilərdə də kompleks tədbirlər görülməlidir. Meşələrin bərpası, eroziyaya qarşı mübarizə, torpaqların həddindən artıq yüklənməsinin qarşısının alınması vacibdir. Xüsusilə dağlıq ərazilərdə otlaq sahələrinin normadan artıq istifadə edilməsi torpaq eroziyasını sürətləndirir və intensiv yağışlar zamanı bu proses daha da dərinləşir", - deyə mütəxəssis qeyd edib.

Su idarəçiliyi də əsas prioritetlərdən biridir. Ekoloq bildirib ki, yağış sularının toplanması, su anbarlarının yaradılması, "ağıllı su" sistemlərinin tətbiqi bu sahədə effektiv həll yolları hesab edilir. Çay yataqlarının nəzarətdə saxlanılması, zəruri yerlərdə bəndlərin qurulması daşqın riskini azaltmağa kömək edə bilər. Eyni zamanda çay yataqlarında tikinti materiallarının çıxarılması kimi fəaliyyətlərin məhdudlaşdırılması da vacibdir. Kənd təsərrüfatında iqlimədavamlı bitkilərin seçilməsi, torpaq qoruyucu texnologiyaların tətbiqi və suvarma sistemlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Bu tədbirlər həm məhsuldarlığın qorunmasına, həm də torpaqların deqradasiyasının qarşısının alınmasına xidmət edir. Beləliklə, intensiv yağıntılar təkcə təbii hadisə deyil, həm də insan fəaliyyətinin və iqlim dəyişikliklərinin birgə nəticəsi kimi qiymətləndirilməlidir. Bu prosesə uyğunlaşmaq və onun mənfi təsirlərini minimuma endirmək isə həm dövlət, həm də cəmiyyət səviyyəsində koordinasiyalı yanaşma tələb edir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə prokuroru Eldar Məmmədova anası

**NADEJDA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Qəzənfər İmanova qardaşı

**HÜSEYN İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3697**
**Sifariş 456**

**Qiyməti 60 qəpik**